22 noyabr 2019-cu il
№44 (8859)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Təhsil naziri Yevlax şəhərində vətəndaşları qəbul edəcək** ⇨səh.3

**Paytaxt məktəblilərinin növbəti uğuru** ⇨səh.9

**Əjdər Ağayevsiz bir il...** ⇨səh.11

**Uşaq ədəbiyyatımızın fundamental tədqiqi** ⇨səh.13

# Xaricdə doktorantura təhsili almaq üçün geniş imkan

## Azərbaycan universitetlərinin kadr potensialı güclənəcək



Azərbaycan vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisas istiqamətlərinə uyğun olaraq yerli ali təhsil və elm müəssisələri üçün peşəkar mütəxəssislərin hazırlanması həyata keçiriləcək. Bu məqsədlə noyabrın 18-dən başlayaraq sənəd qəbuluna start verilib. Bununla da ötən ilin noyabrında qəbul edilən "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrasının reallaşdırılmasına başlanılıb.

### Qaydalar müəyyənləşdi

Öncəliklə qeyd edək ki, Azərbaycan dövləti tərəfindən ölkə vətəndaşı olan gənclərin xaricdə təhsilinin maliyyələşdirilməsi ənənəsi olmasına baxmayaraq, "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" tamamilə yenidir. Adından da göründüyü kimi, ölkəmizdə ali təhsil sisteminin gücləndirilməsinə yönələn bu proqramın həyata keçirilməsi nəticəsində təhsilin doktorantura səviyyəsində xaricdə təhsil və təcrübənin maliyyələşdirilməsi ilk dəfə gerçəkləşdiriləcək.

⇨Ardı səh.4

# Azərbaycan xalqının milli sərvəti

## 100 yaşlı Bakı Dövlət Universiteti yeni yüksəliş mərhələsində

1919-cu ildə cəmi iki fakültə ilə fəaliyyətə başlamış Bakı Dövlət Universitetində bu gün 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, 30-dan artıq elmi-tədqiqat laboratoriyası, 3 milyon nüsxəyə yaxın kitab fondu olan Elmi Kitabxana və digər qurumlar fəaliyyət göstərir. Burada müxtəlif elmi istiqamətlərdə bakalavriatura səviyyəsində 66 ixtisas, magistratura səviyyəsində 231 ixtisaslaşma, doktorantura səviyyəsində 114 ixtisas üzrə mütəxəssislər hazırlanır. Hazırda 23 mindən çox tələbə, magistrant və doktorantın ayrı-ayrı sahələr üzrə elmi ixtisasla-ra yiyələnməsi prosesi ilə 1500-ə yaxın professor-müəllim və tədris-köməkçi kollektiv məşğul olur.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan başlayaraq parlaq nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Düz bir əsr bundan əvvəl Cümhuriyyətin qurucuları həmin dövrün tanınmış alim və mütəxəssislərini respublikamıza dəvət etmiş, Avropa nümunəsi əsasında yeni bir ali təhsil ocağının əsasını qoymuş, bununla da Azərbaycan xalqının elm, təhsil və mədəniyyət tarixində müstəsna əhəmiyyətə malik misilsiz xidmət göstərmişlər. Təsis olunduğu gündən indiyədək daim yüksəlişdə olan Bakı Dövlət Universiteti bu gün regionun ən nüfuzlu ali təhsil ocağı və mühüm elm mərkəzidir.

Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında, milli ideologiyanın formalaşmasında, milli təhsilin əsaslarının yaradılmasında, maarifçiliyin, elm və təhsilin tərəqqisində, yüksəkixtisaslı kadrların yetişdirilməsində və onların vətənpərvərlik ruhunda tərbiyə olunmasında Bakı Dövlət Universiteti öz titanik fəaliyyəti sayəsində ölkəmizə və xalqımıza sanballı töhfələr vermişdir. Bakı Dövlət Universitetinin məzunlarının qazandığı nailiyyətlər respublikamızın elmi həyatının ayrılmaz tərkib hissəsi olmaqla xalqımızın qədim tarixinin araşdırılmasında, milli mədəniyyətimizin, ana dilimizin daha da təkmilləşdirilməsində və yüksək səviyyəyə qaldırılaraq nəsillərdən-nəsillərə ötürülməsində, azərbaycançılıq ideologiyasının təbliğində ölçüyəgəlməz rola malik olmuşdur.

Bakı Dövlət Universiteti Azərbaycanda təhsilin və elmin inkişafına misilsiz xidmətlər göstərməklə yanaşı, ölkənin ictimai-siyasi həyatında da mühüm rol oynamışdır. Bu ali təhsil ocağının inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır.

⇨Ardı səh.6

# Dövlət Proqramı təqaüdçüsünün uğuru

Son illər dünyanın reytinqli universitetlərində təhsil alan azərbaycanlı gənclərin yüksək hazırlıqlı tədqiqatçılar kimi yetişməsi Azərbaycan elminin gələcək uğurlu inkişafını təmin edəcək potensial elmi bazanın formalaşmasından xəbər verir. Sevindirici haldır ki, onların arasında "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçüləri də var. Bu isə Dövlət Proqramının cəmiyyətimizə verdiyi ən mühüm töhfələrdəndir.

Onlardan biri də hazırda Böyük Britaniyanın nüfuzlu ali məktəblərindən olan London Universitet Kollecində (UCL) "Tibbi texnologiya" ixtisası üzrə PhD təhsili alan Mədinə Quliyevadır. M.Quliyeva ölkəmizi xaricdə təmsil edən ən istedadlı gənclərdən biridir. Bu yaxınlarda təhsil aldığı ali təhsil müəssisəsinin təsis etdiyi "Dekanın Tədqiqat Mükafatı"na layiq görülməsi isə onun peşəkar tədqiqatçı kimi uğurlarından xəbər verir.

Diqqətə çatdıraq ki, bu mükafat universitetin ən nüfuzlu mükafatı sayılır.

Tibb elmləri fakültəsində 91 tədqiqat qrupu fəaliyyət göstərir. Bu tədqiqat qrupundan 30-u cərrahiyyə və intervent cərrahiyyə elmi bölməsinə aiddir. Bölmədə tədqiqat aparan bütün PhD tələbələri arasından "Dekanın Tədqiqat Mükafatı"na Bölmə nümayəndəsi olaraq ancaq bir namizəd irəli sürülür. Uğurlu haldır ki, Böyük Britaniyanın ən nüfuzlu universitetlərindən olan UCL-nin builki mükafatına azərbaycanlı tələbə layiq görülüb.

⇨Ardı səh.2

# Beynəlxalq ikili diplom proqramlarının tətbiqinə başlanılır

Məlum olduğu kimi, Nazirlər Kabineti tərəfindən "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydaları" təsdiq olunub.

Noyabrın 21-də Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli beynəlxalq ikili diplom proqramının tətbiqi ilə bağlı mətbuata açıqlama verdi.

N.Məmmədli diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci ildə "2019-2023-cü illər üzrə Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramında iki istiqamət nəzərdə tutulub. Birincisi, Azərbaycanda beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi, ikincisi isə ölkə vətəndaşları üçün xaricdə doktorantura təhsilinin maliyyələşdirilməsidir. Nicat Məmmədli qeyd edib ki, hər iki istiqamətin həyata keçirilməsi üzrə Nazirlər Kabineti tərəfindən bu həftə müvafiq qaydalar təsdiq olunub. Beynəlxalq ikili diplom proqramlarına dair qərarı şərh edən şöbə müdiri bildirib ki, bu sənəd Azərbaycan iqtisadiyyatı üçün prioritet istiqamətlərdə dünyanın nüfuzlu universitetləri ilə ikili diplom proqramlarının təsis olunmasını nəzərdə tutur. "Bu, imkan verir ki, tələbələrimiz ölkəni tərk etmədən, Azərbaycanda təhsil alaraq dünyanın nüfuzlu universitetlərinin diplomlarını əldə etsinlər", - deyə Nicat Məmmədli bildirib. Onun sözlərinə görə, proqramın tətbiqi universitetlərimizin ikitərəfli əlaqələrinin yaxşılaşdırılması, tədqiqat imkanlarının genişləndirilməsi, Azərbaycan universitetlərinin dünya standartlarına uyğunlaşmasına, beynəlxalq reytinqlərdə daha yüksək yerlərə qalxması üçün yaxşı imkan və şərait yaradır. Nicat Məmmədli əlavə edib ki, sözügedən Dövlət Proqramı çərçivəsində təsis olunacaq ikili diplom proqramları nəticəsində nüfuzlu xarici universitetlərin tədris proqramları Azərbaycan universitetlərində tədris olunacaq, xarici professor-müəllim heyəti azərbaycanlı tələbələrə dərs deyəcəklər.

⇨Ardı səh.5

# Mühəndis-pedaqoji heyətə Türkiyədə təlimlər keçilir

Azərbaycanda peşə təhsili səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması, hazırlanan kadrların rəqabətədavamlılığı üçün dünya təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiqi vacibdir. Bu məqsədlə müxtəlif səviyyədə heyətlər ayrı-ayrı inkişaf etmiş ölkələrə ezam olunur, peşə təhsili sahəsində müəyyən uğurlara imza atmış ölkələrin təcrübəsini öyrənmək və Azərbaycanda tətbiq etməyin yolları araşdırılır. Bu dəfə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi daha genişmiqyaslı tədbirə əl atıb. Belə ki, peşə təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji heyət Türkiyədə təlimlərə cəlb edilib. Oktyabr ayından həyata keçirilən və hazırda davam edən təlimlərdə mühəndis-pedaqoji heyətdən 50 nəfərə yaxın şəxs iştirak edib.

Qeyd edək ki, qonşu ölkənin təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiqi məqsədilə keçirilən təlimlər Azərbaycan və Türkiyə Təhsil nazirlikləri arasında əldə edilən razılaşmaya əsasən reallaşdırılır. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini Amil Əlili "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində təlimlərin gedişindən, gözlənilən nəticələrindən, ümumiyyətlə, Türkiyə ilə peşə təhsili sahəsində əməkdaşlıqda nəzərdə tutulan yeniliklərdən danışıb.

⇨Ardı səh.7



# Gənc müəllimlərimiz

## Onlar kənd məktəblərini seçib

Səh.2

## RƏSMİ XRONİKA




- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Prezident İlham Əliyev Sumqayıtda “Nizami” kinoteatrının yeni binasının, Muğam Mərkəzinin açılışlarında iştirak edib, Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub, Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.
- Prezident İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev noyabrın 19-da Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak edib.
- Dövlət başçısı İlham Əliyev noyabrın 18-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Qoşehin və Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzabın etimadnamələrini qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.
- Noyabrın 15-də Heydər Əliyev Mərkəzində Rusiyanın tanınmış yumoristi, teleaparıcı, şoumen və müğənni Maksim Qalkinin yaradıcılıq axşamı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yaradıcılıq axşamına tamaşa ediblər.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru, KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı və Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib.
- Dövlət başçısı İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev noyabrın 20-də Ş.K.Məmmədovun Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı və R.İ.Hüseynovun Masallı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrindən azad edilmələri haqqında Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamları ilə Ş.K.Məmmədov Masallı Rayon İcra Hakimiyyətinin başçısı və R.İ.Hüseynov Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunublar.
- Dövlət başçısı İlham Əliyev noyabrın 19-da Ağsu-Kürdəmir-Bəhrəmtəpə (53 km)-Zərdab avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev noyabrın 16-da Omanın Sultanı Əlahəzrət Qabus bin Səidə Oman Sultanlığının milli bayramı və Latviya Respublikasının Prezidenti cənab Egils Levitsə Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubları ünvanlayıb.

# Sumqayıt şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sumqayıt şəhərində 1 nömrəli şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

# Dövlət Proqramı təqaüdçüsünün uğuru

## Azərbaycanlı tələbə London Universitet Kollecinin tədqiqat mükafatına layiq görülüb



⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

“Azərbaycan müəllimi” qəzetinə verdiyi açıqlamada Mədinə Quliyeva qeyd edib ki, adıçəkilən mükafat universitetin tibb elmləri fakültəsində layihə icra edən tələbələr üçün nəzərdə tutulub. Qalib namizədlərin adları universitetin institut və bölmələri tərəfindən irəli sürülür. Tibb elmləri fakültəsində hazırda 3500-dən çox tələbə, o cümlədən 1200 magistrant və 400 doktorant var. Cərrahiyyə və müdaxilə elmləri bölümü tibb elmləri fakültəsinin bir hissəsidir. Bu bölmə dörd kampusda 4 əsas tədqiqat şöbəsini bir araya gətirir. Fakültənin ümumi cərrahiyyə; ortopediya və skelet elmləri institutu; urologiya və idman, məşq və sağlamlıq institutu, kök hüceyrə tətbiqetmələri, toxuma mühəndisliyi, klinik sınaqlar, transplantasiya və nanotexnologiya daxil olmaqla orqan və texnologiyaya əsaslanan tibbi cihazların qabaqcıl inkişafında dünya səviyyəli tədqiqat mərkəzləri fəaliyyət göstərir. Avropada, Amerikada və onun hüdudlarından kənarda geniş əməkdaşlıq ortaqlığı mövcuddur.

İndiki tədqiqatlarının mövzusuna gəlincə, həmsöhbətimiz bildirdi ki, onun tədqiqatları qızıl nanozərrəciklərin müxtəlif bioloji mühitlərdə bioloji təsirlər nəticəsində fiziki-kimyəvi xüsusiyyətlərinin dəyişməsi ilə bağlıdır.

Qeyd edək ki, M.Quliyeva həm də Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış və elmi nailiyyətlərin populyarlaşdırılması sahəsində uğurlu fəaliyyətləri ilə seçilən bir qrup azərbaycanlı gənc tərəfindən 2017-ci ildə əsası qoyulan və bu müddət ərzində dünya elmində ki ən son nailiyyətləri ölkəmizin elmi auditoriyasına çatdıran Azərbaycan Elm Assosiasiyasının həmsədridir. O, öz tədqiqat sahəsi olan “Tibdə nanotexnologiya” mövzusunda universitetlərimizdə seminarlar da keçirib.

Mədinə Quliyeva 1994-cü il avqustun 10-da Bakı şəhərində anadan olub. 2000-2007-ci illərdə Bakıdakı 292 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta təhsilini Londondakı “Hollan Park” məktəbində davam etdirib. Xarici dilə tez yiyələndiyinə və riyaziyyatdan keçirilən müsabiqənin qalibi olduğuna görə Londondakı “Hollan Park” məktəbi tərəfindən fəxri fərmanla təltif olunub. İki dəfə “Perfect tense” mükafatına layiq görülüb və şəkli məktəbin şərəf lövhəsində asılıb. 2008-ci ildə London İmperial Kolleci (Imperial College London) tərəfindən düzənlənmiş robot yarışmasında dostları ilə hazırladığı daşıyıcı robot ali məktəb üzrə 3-cü yerə layiq görülüb. 2012-ci ildə orta təhsilini başa vuraraq London Universitet Kollecinə daxil olub. Daha sonra “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın London Universitet Kollecində “Beyin elmləri” ixtisası üzrə bakalavr, 2015-2016-cı illərdə isə London Universitet Kollecində “Nanotexnologiya və tibbi bərpa” ixtisası üzrə magistr təhsili alıb.

Orta məktəb illərindən xüsusi istedadı və fəallığı ilə seçilən Mədinə qabiliyyətli tələbə kimi təhsil aldığı ali məktəbdə elmi tədqiqatlarda iştirak edib. O, universitetdə dünya şöhrətli professorlardan dərs alıb, məhz onlar azərbaycanlı gənci öz elmi tədqiqatlarına cəlb ediblər.

İstedad və zəhmət insanı ucaldar. Bu tamlıq qarşısında əlçatmaz heç bir zirvə yoxdur. Mədinə Quliyeva istedad və əməksevərliyi ilə bu gerçəkliyi bir daha təsdiqləyib.

# Gənc müəllimlərimiz



## Onlar kənd məktəblərini seçib



**Oruc MUSTAFAYEV**

Ölkəmizdə müəllim əməyinə göstərilən dövlət qayğısı gənclərin bu peşəyə həvəsini artırmaqla yanaşı, həm də öz bacarıq və imkanlarını göstərməsi üçün münbit şərait yaradıb. Son illər ölkəmizdə müəllim nüfuzunun artmasının mühüm göstəricilərindən biri də regionlarda və ucqar yaşayış məntəqələrində məktəblərin yenilənməsi və gənc müəllimlərin kənd məktəblərinə üz tutması ilə bağlıdır. Növbəti təqdimat müəllimlərin işə qəbul imtahanlarında (MİQ) yüksək bal toplayaraq kənd məktəblərini seçən gənc müəllimlər barədədir.

### “Ucqar kənd məktəbini seçməyim öz arzum olub”

*Xatın Həsənova* 28 dekabr 1995-ci il tarixində Ağcabədidə anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. Son 6 ilə yaxın Bakı şəhərində yaşayıb. Bu il MİQ imtahanında 56 toplayıb və müəllim kimi iş yeri olaraq Quba rayonunun Əlik kəndini seçib. Hazırda həmin kənddə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir.

- MİQ imtahanı çox asan keçdi. İmtahanlara necə hazırlaşmağıma gəlincə, düşünürəm ki, heç bir kursa ehtiyac yoxdur. Həm ixtisas, həm də metodika və məntiqdən evdə məsuliyyətlə hazırlaşmaqla yüksək bal yığmaq mümkündür. Bir şeyi də qeyd edim ki, imtahana may ayından hazırlaşmışdım, ancaq müəllim həmkarlarım indidən hazırlaşsalar, daha yüksək bal yığa bilərlər.

Ucqar kənd məktəbini seçməyim isə öz arzum olub. Aran ərazidə böyüdüyüm üçün dağ həyatı, insanları və orada təhsil alan uşaqların təhsili məni daim maraqlandırırdı. Şəhər və adi kənd məktəblərində uşaqların təhsili üçün hər bir imkanları olsa da, dağ məktəblərində belə deyil.

Təyinat aldığım kəndin əhalisi, həm də müəllim kollektivi məni hörmətlə qarşıladılar. Olduqca mehriban insanlardır.

Müəllim uşağın ikinci valideynidir. Uşağın tərbiyəli, savadlı böyüməsində müəllimin rolu böyükdür.

### “Ən böyük mükafatım şagirdlərimin təbəssümlə mənə baxan işıqlı gözləridir”

*Şahid Muradlı* 14 yanvar 1990-cı ildə Bakı şəhərində anadan olub. 2011-2015-ci illərdə Qafqaz Universitetində (Bakı Mühəndislik Universitetində) təhsil aldıqdan sonra MİQ imtahanında iştirak edib. Bakı şəhərindən İsmayıllı rayonu İstisu kənd tam orta məktəbinə yollanıb. Artıq 5 ildir ki, həmin kənddə ibtidai sinif müəllimi kimi fəaliyyət göstərir. Şagirdlərinə sevgisi və işinə olan həvəsi, məktəb rəhbərliyinin dəstəyi ilə həyata keçirdiyi tədbirlər Təhsil Nazirliyi, rayon təhsil şöbəsi tərəfindən qiymətləndirilib.

- Düşünürəm ki, evimdən uzaqda olsa belə, ucqarlarda təhsil alan uşaqlara bilik vermək üçün bu məsafəni qət etməyə dəyər. Şərəfli müəllim adı və bu peşənin məsuliyyəti mənə çətinlikləri dəf etməyə imkan verir. Ən böyük uğurum şagirdlərimi layiqli vətəndaş kimi yetişdirmək, ən böyük mükafatım isə onların təbəssümlə mənə baxan işıqlı gözləridir.

## Təhsil naziri Yevlax şəhərində vətəndaşları qəbul edəcək

**Ağdaş və Yevlax rayon sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 28 noyabr 2019-cu il tarixində saat 10:00-da Yevlax şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ağdaş və Yevlax rayon sakinlərini qəbul edəcək. Qəbulda Ağdaş və Yevlax rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 18-22 noyabr (saat 18:00-dək) 2019-cu il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna (“Qaynar xətt” xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının “Vətəndaşların qəbulu” bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

## 259 azərbaycanlı gənc xaricdə təhsil alacaq

2019-2020-ci tədris ilində Hökumətlərarası Təqaüd proqramları çərçivəsində Azərbaycan vətəndaşlarının xaricdə təhsili Macarıstan, Çin Xalq Respublikası, Rusiya Federasiyası, Latviya, Rumıniya və Qazaxıstan Respublikası üzrə ayrılmış təqaüd yerlərinə əsasən həyata keçirilib.

Cari tədris ili üzrə Macarıstanda 200, Çində 37, Rumıniyada 2, Rusiya Federasiyasında 3, Latviyada 13, Qazaxıstanda 4, ümumilikdə isə 259 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.

## Müəllimlər İsraildə STEM təlim kursunda

Təhsil Nazirliyinin “ORT İsrael” məktəblər şəbəkəsi ilə əməkdaşlığı çərçivəsində 50 nəfər təhsil mütəxəssisi İsraildə təşkil edilmiş 24 günlük STEM (Science, Technology, Engineering and Mathematics) təlim kursuna qatılıb.

Səfər çərçivəsində İsraildən olan mütəxəssislər tərəfindən STEM mövzusunda olan proqramın Azərbaycan kurikulumlarına uyğunlaşdırılması, bu məzmunun ölkəmizdən olan mütəxəssislərə çatdırılması və məktəblərdə tətbiqi zamanı müəllimlərə metodik dəstəyin göstərilməsi nəzərdə tutulub.

Təlim kursunda Təhsil Nazirliyinə, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinə tabe olan məktəblərdən və bir sıra rayonlardan müəllimlər iştirak edirlər.

Təlimlər ümumtəhsil məktəblərinin müəllim-pedaqoji heyətinin, eləcə də təhsilin idarə olunması sahəsində çalışanların dünyanın bir sıra universitetlərində, təhsil mərkəzlərində təşkil edilmiş təlim və konfranslarda iştirak etməsi onların peşə hazırlığının artırılması, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## “UNEC-də 1 gün”

“UNEC-də 1 gün” layihəsi abituriyentlərə dəstək olmağa davam edir.

Yeni tədris ilinin ilk iştirakçıları Ceyranbatan qəsəbəsinin 1 nömrəli tam orta məktəbinin X-XI sinif şagirdləri olub.

Şagirdlərə bir günlük tələbə biletləri təqdim edildikdən sonra onlar istəklərinə uyğun olaraq Marketinq, Beynəlxalq İqtisadiyyat Məktəbində (İSE) isə İngilis dili dərsini dinləyiblər.

Məktəblilər UNEC-də infoturda da olublar. II ixtisas qrupu üzrə hazırlaşan abituriyentlərə UNEC-də bu istiqamət üzrə mövcud olan fakültə və ixtisaslar barədə ətraflı məlumat verilib. UNEC-in xüsusi təqaüd, dünyanın nüfuzlu universitetləri ilə ikili diplom və mübadilə proqramlarının tələbələrə qazandırdığı üstünlüklərdən də bəhs olunub.

Abituriyentlərin UNEC-in 24/7 kitabxanası, müasir texniki avadanlıqlarla təchiz olunmuş auditoriyalar, yeməkxana və akt zalları ilə tanışlığı da olub.

## Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində “Açıq qapı” günü

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində “Açıq qapı” günü keçirilib. Tədbirin keçirilməsində məqsəd Qəbələdə yerləşən ümumtəhsil məktəblərinin şagirdləri və onların valideynlərini peşə təhsil mərkəzi ilə tanış etmək, mərkəzdə tədris olunan ixtisaslar və təlim prosesi barədə ictimaiyyəti məlumatlandırmaq, eləcə də peşə təhsilini təbliğ etməkdir.

Tədbirdə pedaqoji heyət mərkəzin fəaliyyəti və duala bənzər peşə təhsili və təlimi yanaşmasının tələbələr üçün yaratdığı imkanlar barədə ətraflı məlumat veriblər. Peşə Təhsili üzrə Dövlət Agentliyinin peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq şöbəsinin müdir müavini Nigar İsmayılzadə çıxış edərək peşə təhsilinə göstərilən qayğı, bu sahədə əldə olunan nailiyyətlər və qarşıda duran fəaliyyət istiqamətləri barədə danışıb.

Tədbirdə tələbələrin tərəfdaş müəssisələrdə qatıldıqları təlimlər, müəssisələrə təşkil olunan səfərlər haqqında məlumat verilib, videoçarx və fotoşəkillər nümayiş etdirilib. Tədbirin növbəti hissəsində Mərkəzin qənnadçı-şirniyyatçı qrupunun məzunu tərəfindən şirniyyatın bəzədilməsi üzrə master klas təşkil olunub.

Qeyd edək ki, tədbir Avropa İttifaqı və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə icra olunan “Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotlarının yaradılması” (ED VET) layihəsinin dəstəyi ilə keçirilib. Layihə turizm və kənd təsərrüfatı sektorlarını əhatə edən peşə təhsili ixtisasları üzrə müasir kurikulum, tədris materiallarının hazırlanması, eyni zamanda müəllim və usta heyətinin təlimləndirilməsini nəzərdə tutur.

# Nazir müavini Mingəçevirdə vətəndaşları qəbul edib



Noyabrın 15-də Təhsil nazirinin müavini Firudin Qurbanov Mingəçevir şəhərindəki Gənclər Evində Bərdə rayon və Mingəçevir şəhər sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil nazirinin müavini Firudin Qurbanov və Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Qəbul 2019-cu ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilib. Qəbulda sözügedən bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, tələbələrin köçürülməsi, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər.

**Gənc müəllimlərlə görüş**

Noyabrın 15-də Mingəçevir şəhərində Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə gənc müəllimlərlə görüş keçirilib.

Görüşdə iştirak edən Təhsil nazirinin müavini Firudin Qurbanov son illərdə təhsil sahəsində aparılan islahatlardan və əldə edilən nəticələrdən danışıb. Nazir müavini çıxışında müəllimlərin bilik və bacarıqlarının artırılması, təhsildə baş verən yeniliklərin mənimsənilməsi, şagirdlərlə qarşılıqlı ünsiyyətin uğurlu formalaşması mövzularına da toxunub. Nazir müavini müəllimlərin peşə fəaliyyətinin artırılması məqsədilə İKT, dil bacarıqlarının inkişaf etdirilməsi və onların tədris prosesində tətbiqi, eləcə də gələcək nəslin daha rəqabətcil, tənqidi yanaşma bacarıqlarının inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.

Firudin Qurbanov həmçinin şagirdlərin sağlam həyat tərzi üçün valideynlərin maarifləndirilməsində müəllimlərin aparıcı rolunun vacibliyini diqqətə çatdırıb.

Görüş qarşılıqlı fikir mübadiləsi ilə davam etdirilib.

# Bölgələrdə təhsil işçiləri ilə görüşlər keçirilib



Noyabrın 15-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva təhsilin vəziyyəti və tədris prosesi ilə yaxından tanış olmaq məqsədilə Şamaxı rayonuna səfər edib.

Məhəbbət Vəliyeva səfər çərçivəsində rayonda yerləşən Avropa məktəbi, eləcə də İqbal Rəsulov adına Muğanlı kənd və 6 nömrəli tam orta məktəblərə baş çəkib. Nazir müavini qeyd olunan təhsil müəssisələrində dərs prosesini izləyərək şagirdlərin oxu bacarığı və mütaliə vərdişləri ilə tanış olub.

Məhəbbət Vəliyeva həmin məktəblərin pedaqoji kollektivləri ilə görüşdə tədris prosesi zamanı müasir təhsil texnologiyalarından, həmçinin interaktiv tədris metodlarından istifadənin əhəmiyyətini diqqətə çatdırıb.

Nazir müavini eyni zamanda Şamaxı şəhəri 6 nömrəli tam orta məktəbdə rayonun qabaqcıl təhsil işçiləri və gənc müəllimləri ilə görüş keçirib. Görüş zamanı təhsil sahəsində aparılan islahatları diqqətə çatdıran Məhəbbət Vəliyeva müəllimlərə öz tövsiyələrini verib, onlara uğurlar arzulayıb.

Rəyləri dinlənildikdən sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

Daha sonra nazir müavini Qobustan rayonu Bədəlli kənd tam orta məktəbində də olub, məktəbin şəraiti ilə tanış olub və pedaqoji kollektivi ilə görüşərək onlarla söhbət aparıb.

Noyabrın 19-da Goranboy rayonu Heydər Əliyev Mərkəzində Kəlbəcər, Naftalan, Xocalı və Goranboy rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Kəlbəcər, Naftalan, Xocalı və Goranboy rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Tədbirdə Kəlbəcər, Naftalan, Xocalı və Goranboy təhsil şöbələri müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində həyata keçirilən tədbirlərdən, prioritet fəaliyyət istiqamətlərindən söz açıb.

Sonra qeyd olunan rayonların məktəb direktorları ilə görüş keçirilib. Görüşdə nazir müavini Məhəbbət Vəliyeva təhsildə keyfiyyətin yüksəldilməsi, fənlərin tədrisi, rəhbərlik və nəzarət məsələləri, fənlərin tədrisi, rəhbərlik və nəzarət məsələlərindən söz açaraq təhsil sistemində yeni yanaşma metodlarından və idarəetmənin təkmilləşdirilməsindən danışıb.

Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə uğurlar arzulayıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilib və suallar cavablandırılıb.

Noyabrın 20-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva təhsilin vəziyyəti və tədris prosesi ilə yaxından tanış olmaq məqsədilə Goranboy rayonuna səfər edib.

Məhəbbət Vəliyeva səfər çərçivəsində rayonda yerləşən Qızılhacılı qəsəbə Dilbazi Qasımov adına 1 nömrəli, Qızılhacılı qəsəbə Mahir Dosuyev adına 2 nömrəli və Goranboy şəhəri 2 nömrəli tam orta məktəblərə baş çəkib. Nazir müavini qeyd olunan təhsil müəssisələrində pedaqoji kollektivlə görüşüb, sinif otaqları və onların təchizatı barədə öz tövsiyələrini bildirib.

Nazir müavini Goranboy şəhəri 2 nömrəli tam orta məktəbdə rayonun qabaqcıl təhsil işçiləri və gənc müəllimləri ilə görüş keçirib. Məhəbbət Vəliyeva görüş zamanı təhsil sahəsində aparılan islahatlar barədə danışıb, təlim nailiyyətlərinin təkmilləşməsi ilə bağlı öz tövsiyələrini verib, onlara uğurlar arzulayıb.

Görüşdə iştirakçıların rəyləri dinlənilib, sualları cavablandırılıb.

Daha sonra nazir müavini Goranboy şəhəri İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyada olub, gimnaziyanın şəraiti ilə tanış olub və pedaqoji kollektivi ilə görüşərək onlarla söhbət aparıb.

Noyabrın 21-də Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının binasında Mingəçevir şəhər, Tərtər, Bərdə və Yevlax rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Mingəçevir, Tərtər, Bərdə və Yevlax rayon təhsil şöbələrinin müdirləri, məktəb direktorları və təhsil işçiləri iştirak ediblər.

Öncə qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Tədbirdə Mingəçevir, Tərtər, Bərdə və Yevlax təhsil şöbə müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini məktəblərin buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələrinə toxunub, bu göstəricilərin artırılması istiqamətində işlərin davam etdirilməsini tövsiyə edib. Nazir müavini bildirib ki, zəif nəticələrin səbəbi araşdırılmalı, məktəb və təhsil şöbələrinin əməkdaşları birgə fəaliyyət göstərməlidir. Məhəbbət Vəliyeva məktəblərdə xarici dil fənninin tədrisinin aşağı səviyyədə olduğunu bildirib, günün tələblərinə uyğun tədbirlər planının tərtib edilməsini tövsiyə edib.

Nazir müavini çıxışının sonunda təhsil işçilərinə fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra qeyd olunan şəhər və rayonların məktəb direktorları ilə görüş keçirilib. Görüşdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva məktəbəhazırlığın təşkilinin vacibliyindən, məktəbdaxili qiymətləndirmədən danışıb. Nazir müavini ümumi təhsil müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı məsələləri iştirakçıların diqqətinə çatdırıb.

Sonda görüş iştirakçıları ilə fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib və suallar cavablandırılıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Tərtər rayonu Uşaq-Gənclər İdman Şahmat məktəbində də olub, məktəbin gənc şahmatçıları ilə görüşüb. Nazir müavini rayonun ümumtəhsil məktəbləri şagirdlərinin əl işlərindən ibarət sərgi ilə tanış olub.

# Xaricdə doktorantura təhsili almaq üçün geniş imkan

## Azərbaycan universitetlərinin kadr potensialı gücləndiriləcək

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Nəticədə xaricdə təhsil alan və fəlsəfə doktoru dərəcəsi olan ixtisaslı kadrlar ölkə universitetlərində dərs deyəcəklər. Bu yolla Azərbaycan universitetlərinin də kadr potensialı gücləndiriləcək. Proqramın iki əsas istiqamətindən biri olan bu məqsədə doğru artıq real addımlar atılıb. Belə ki, Proqramın təsdiq olunmasından ötən bir il ərzində bu prosesin necə və hansı vasitələ həyata keçiriləcəyinə dair hər bir nüans ətraflı şəkildə ölçülüb-biçilib. Bu məqsədlə müvafiq qaydalar hazırlanıb. "Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsində təhsilinin maliyyələşdirilməsi və seçiminə dair Qaydalar" Nazirlər Kabinetinin bu il noyabrın 13-də qəbul edilən qərarı ilə təsdiq edilib. Qaydaların Azərbaycan vətəndaşları üçün yaratdığı imkanlar, sənəd qəbulu prosesi, iştirak şərtləri, ideallaların seçə biləcəyi istiqamətlər və nüfuzlu universitetlərin siyahısı Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin rəhbər şəxsləri tərəfindən geniş ictimaiyyətə açıqlanıb.

### ...sənəd qəbulu başladı

Xarici universitetlərdə sənəd qəbulu ildə iki dəfə aparılır. Ona görə də 2020-ci ilin yaz semestri üçün nəzərdə tutulan sənəd qəbuluna Azərbaycanda da start verilib. Gələn il yanvar ayının 10-da başa çatacaq bu prosesə artıq xarici universitetlərdən dəvət almış, nəinki yanvardan təhsil almağa başlayacaq gənclər, hətta artıq təhsili davam edən gənclər də qoşula bilərlər.

Növbəti sənəd qəbulu 2020-ci ilin sentyabr ayında elan ediləcək.

### Universitetini seçdinmi?

Dövlət Proqramından yararlana bilməyin bir çox şərtləri var. Həmin şərtlərdən biri universitetlə bağlıdır. Belə ki, Dövlət Proqramından yararlanmaq istəyənlər ixtisası üzrə universitetlərə müraciət ünvanlamalı və dəvət aldıqdan sonra Təhsil Nazirliyinə sənədlərini təqdim etməlidirlər. Ancaq təhsilalanın dəvət edildiyi ali təhsil müəssisəsi Təhsil Nazirliyinin 600-dən artıq nüfuzlu universitetin adının əksini tapdığı siyahısından olmalıdır. Həmin siyahıda yer alan universitetlər iki beynəlxalq reytinq siyahısından seçilib. Belə ki, azərbaycanlı gənclərin dəvəti "Times Higher Education (THE) World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" reytinq siyahılarında ilk 500-də yer alan nüfuzlu ali təhsil müəssisələrindən olmalıdır.

### Üçtərəfli müqaviləsi olanlara yaşıl işıq

Beləliklə, keyfiyyətli təhsil alıb öz tədqiqatçılıq bacarıqları ilə ölkə təhsilinə faydalı olmaq istəyən hər gənc dövlətin yaratdığı bu fürsətdən yararlana bilər. Maraqlıdır ki, hətta Azərbaycanda doktorantura səviyyəsi üzrə təhsilini tamamlayanlara da "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində yenidən təhsil almaq imkanı yaradılır. Ancaq ikinci dəfə eyni səviyyə üzrə təhsil almağın bəzi şərtləri var. Belə ki, ölkəmizdə doktorantura səviyyəsi üzrə dövlət sifarişi yerdə təhsil alan şəxslərə dövlət vəsaiti hesabına ikinci şans verilmir. Azərbaycanda ödənişli əsaslarla doktorantura təhsili alan şəxslər isə təqdimatını tutarlı şəkildə əsaslandırmalıdır ki, eyni səviyyə üzrə bu dəfə xaricdə doktorantura təhsili ala bilsinlər.

Hökumətlərarası təqaüd proqramları üzrə təhsil alanlar isə doktorantura səviyyəsi üzrə təhsilinin 50 faizə qədərini tamamlayıbsa, Dövlət Proqramına müraciət edə bilərlər. Həmin proqramlar üzrə təhsilin digər səviyyələrində təhsilini tamamlayanlar isə istisnasız yeni Dövlət Proqramından yararlana biləcəklər.

"2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində təhsil almağın ən önəmli şərtlərindən biri isə təhsilalanın ölkəmizə qayıtdıqdan sonra çalışacağı təhsil müəssisəsi ilə bağlıdır. Belə ki, xaricdə doktorantura təhsili almaq istəyənlər Təhsil Nazirliyinə müraciət edərkən, sadəcə təhsil almaq istədiyi xarici universiteti deyil, həm də təhsilini başa vurduqdan sonra qayıdıb işləyəcəyi universitetin adını göstərməlidir. Təhsilalan Dövlət Proqramından ancaq üçtərəfli - Təhsil Nazirliyi, təhsilalan və onun çalışacağı universitet arasında müqavilə bağlanarsa, yararlana biləcək. Təhsil Nazirliyinin şöbə müdiri Nicat Məmmədli bu şərti belə əsaslandırıb: "Bu şərt universitetlərdə çalışan, təhsilini davam etdirmək istəyən və bunu maddi çətinlik üzündən reallaşdıra bilməyən gənclərə dəstək olmaq məqsədinə xidmət edir. Çalışacaqları universitetlə müqavilə onların qayıdarkən işlə bağlı hər hansı probleminin olmayacağına əminliyi üçün tələb edilir. Bir sözlə, yerli ali təhsil müəssisələri ilə bağlanacaq üçtərəfli müqavilə nəticəsində Dövlət Proqramı çərçivəsində doktorantura səviyyəsi üzrə təhsil almış məzunların akademik və ya inzibati olaraq işlə təminatı nəzərdə tutulub. Həmçinin Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura səviyyəsində təhsil almış şəxslərin əldə etdikləri beynəlxalq təcrübənin Azərbaycanda elmi-pedaqoji sahədə tətbiq ediləcəyinə şübhə yeri qalmır. Üstəlik, ölkənin əmək bazarının tələbatı əsasında müəyyən olunmuş peşə və ixtisaslar üzrə yüksək tədqiqat bacarıqlarına malik kadr potensialı formalaşdırılır. Nəticədə də yerli ali təhsil sisteminin beynəlxalq rəqabətliliyi artır. İndiyə qədər həyata keçirilən xaricdə təhsil üzrə dövlət proqramlarının nəticələrini də göz önünə gətirsək, əminliklə deyə bilərik ki, bu proqram başa çatdıqda qoyulan məqsədə çatacağıq".



**Dövlət Proqramından yararlana bilməyin bir çox şərtləri var. Həmin şərtlərdən biri universitetlə bağlıdır. Belə ki, Dövlət Proqramından yararlanmaq istəyənlər ixtisası üzrə universitetlərə müraciət ünvanlamalı və dəvət aldıqdan sonra Təhsil Nazirliyinə sənədlərini təqdim etməlidirlər. Ancaq təhsilalanın dəvət edildiyi ali təhsil müəssisəsi Təhsil Nazirliyinin 600-dən artıq nüfuzlu universitetin adının əksini tapdığı siyahısından olmalıdır.**

### Prioritet ixtisaslar

Bəs, dövlətin prioriteti nədir, hansı ixtisaslar üzrə kadr potensialının gücləndirilməsinə ehtiyac duyulur?

Nazirlər Kabinetinin bu ilin may ayında təsdiq etdiyi siyahıda, demək olar ki, bütün istiqamətlər üzrə olan ixtisaslar öz əksini tapıb. Təbiət ixtisaslarından riyaziyyat, mexanika, astronomiya, fizika, kimya, biologiya, yer elmləri, coğrafiya ixtisasları üzrə kadr potensialının gücləndirilməsi planlaşdırılıb. Siyahıda kənd təsərrüfatı üzrə aqrar elmlər, texniki və texnoloji ixtisaslar üzrə texnika elmləri, iqtisadiyyat üzrə iqtisadiyyat elmləri var. Burada təhsil, səhiyyə və humanitar istiqamətlər üzrə müvafiq ixtisaslarda da tədqiqatçı gənclərin təhsili maliyyələşdiriləcək. Məsələn, təhsil üzrə pedaqogika, psixologiya, təhsilin idarə edilməsi, səhiyyə və rifah üzrə əczaçılıq, səhiyyənin idarə edilməsi kimi əhəmiyyətli ixtisaslar salınıb.

### Doktorantura təhsilini də Neft Fondu maliyyələşdirəcək

Azərbaycanda indiyədək həyata keçirilən xaricdə təhsil proqramlarının olduğu kimi, "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın da icrasını Azərbaycan Dövlət Neft Fondu maliyyələşdirəcək. İlkin qiymətləndirmələrə görə, il ərzində 100 nəfərin xaricdə doktorantura təhsili alması mümkün olacaq. Ancaq müraciətlərin sayına uyğun olaraq, bu rəqəmin dəyişə biləcəyi də istisna edilmir. Nicat Məmmədli ölkə və universitetdən asılı olaraq dəyişən rəqəmləri belə izah edib: "Biz təhsilalanların xaricdə təhsilinin maliyyələşdirilməsini təşkil edirik. Buraya həmin şəxslərin təhsil, qeydiyyat, yaşayış, gediş-gəliş, yəni nəqliyyat xərcləri, bir sözlə, bir şəxs üçün lazım olan bütün xərclər daxil edilir. Bunun üçün tələb edilən məbləğ isə ölkə və universitetə görə fərqlənir. Ona görə də xaricdə bu proqram üzrə təhsil alacaq bir şəxs üçün ayrılan vəsaitə bağlı hər hansı rəqəm səsləndirmək doğru deyil. Çünki hər ölkənin yaşayış və təhsil xərcləri eyni deyil".

Dövlət Proqramının yekun büdcəsi isə Azərbaycan Dövlət Neft Fondu tərəfindən təsdiqlənəcək: "Hər il üçün Fonddan bu məqsədlə ayrılacaq vəsaitin məbləği də fərqlənəcək. Dövlət Neft Fondunun illik büdcəsi təsdiq edilərkən, "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın hər iki istiqaməti üzrə icrasına ayrılan vəsait də orada öz əksini tapacaq".

### Ənənə yeni formada davam edir

Beləliklə, Azərbaycanda daha bir Dövlət Proqramı icraya yönəldildi. Bununla da ölkəmizdə əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründən qoyulan, ötən əsrin 70-ci illərindən davam etdirilən, müstəqilliyimizin bərpasından sonra isə məqsədyönlü şəkil alan gənclərin təhsil almaq üçün xaricdəki nüfuzlu universitetlərə göndərilməsi ənənəsi yeni forma qazandı. Bundan sonrası tədqiqatçı gəncliyin bacarığına, qətiyyətinə bağlıdır.

## Startap layihəsi ilə bağlı maarifləndirmə

Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyasının təşkilatçılığı və Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi əməkdaşlarının iştirakı ilə startapla bağlı tədbir keçirilib.

İnstitutun prorektoru Azad Novruzov təhsilin inkişafı, güclü təhsil infrastrukturunun, yüksək ixtisaslı kadr hazırlığının və maddi-texniki bazanın yaradılması istiqamətində çox mühüm addımlar atıldığını, startapla əlaqədar yeni ideyaların, layihələrin dəstəklənməsi ilə bağlı bir sıra tədbirlərin həyata keçirildiyini qeyd edib.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin şöbə müdiri Hüseyn Əsgərli *"Startup.nakhchivan.az"* internet portalını institutun müəllim və tələbə heyətinə bölmələr və modullar üzrə təqdim edib.

"İdeyadan Biznesə" Startap layihəsində final mərhələyə yüksələn "PayPort" layihəsinin komanda üzvləri öz təcrübələrini tələbələrlə bölüşüblər.

Maarifləndirici tədbirdə tələbələrin startapla bağlı sualları cavablandırılıb və təklifləri nəzərə alınıb.

## Bolonya prosesi üzrə İşçi Qrupunun növbəti iclası

Finlandiyanın paytaxtı Helsinki şəhərində Bolonya prosesi üzrə İşçi Qrupunun (Bologna Follow-Up Group - BFUG) növbəti iclası keçirilib.

48 Avropa ölkəsinin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin qatıldığı tədbirdə ölkəmizi Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov və Təhsil Nazirliyinin sektor müdiri Yaşar Ömərov təmsil ediblər.

Finlandiyanın Təhsil və Mədəniyyət Nazirliyinin ev sahibliyi etdiyi tədbirdə Bolonya prosesinin icrası üzrə Koordinasiya Qrupunun, eləcə də Kvalifikasiya çərçivəsi, Diplomların tanınması və Keyfiyyətin təminatı üzrə müvafiq İşçi Qruplarının hesabatları dinlənilib. Sosial məsələlər üzrə, Təlim və Tədris üzrə



Məsləhət Qrupları tərəfindən təqdim edilən növbəti hesabatlarda Avropa Ali Təhsil Məkanında (EHEA) ali təhsilin müvafiq istiqamətlərdə inkişaf trendləri diqqətə çatdırılıb. Qlobal Siyasət Dialoqu üzrə Koordinasiya Qrupu tərəfindən EHEA ilə dünyanın digər regionları arasında ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları barədə məlumat təqdim edilib.

İclasda EHEA ilə Avropa Tədqiqat Məkanı (ERA) arasında daha səmərəli işbirliyinin qurulması, EHEA-nın gələcəyi, San Marino dövlətinin EHEA-ya qoşulmaqla bağlı müraciəti, 2020-ci ildə Romada keçiriləcək Nazirlər Konfransına hazırlıq və digər məsələlər ətrafında müzakirələr aparılıb. İclasda təşkilati məsələlərə də baxılıb və 2022-ci ilin 1 iyul - 31 dekabr tarixlərində Azərbaycan Respublikasının Çex Respublikası ilə birlikdə BFUG-yə həmsədrlik etməsinə dair qərar qəbul edilib.

Azərbaycan nümayəndə heyəti tədbir çərçivəsində aparılan müzakirələrdə fəal iştirak edib.

## Özbəkistan ali məktəbləri ilə əməkdaşlıq

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı Daşkənd Dövlət Texniki Universitetinin rektoru, professor Sədrəddin Turbacanov və Daşkənd Kimya-Texnologiya İnstitutunun direktoru Qaffar Rəhmanberdiyev ilə görüşüb.

Azərbaycanla Özbəkistan arasındakı təhsil əlaqələrindən danışan M.Babanlı ADNSU-da həyata keçirilən islahatlardan, ikili proqramlar və beynəlxalq əməkdaşlıqdan da bəhs edib. O, Özbəkistan universitetləri ilə tələbə mübadiləsi və ikili diplomlar üzrə yeni layihələrə maraqlı olduqlarını bildirib.

Professor S.Turbacanov ADNSU-nun tədris təcrübəsindən faydalanmaq və birgə tələbə mübadiləsi aparmaq məqsədilə əməkdaşlığın onlar üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Daşkənd Kimya-Texnologiya İnstitutunun direktoru Q.Rəhmanberdiyev elmi-texniki istiqamətlə yanaşı, 2-ci ali təhsil üzrə də ADNSU ilə birgə yeni proqramların hazırlanmasında maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşün sonunda tərəflər arasında əməkdaşlıq müqaviləsinin imzalanması üçün razılığa gəlinib.

# Azərbaycanda elmi tədqiqatların faizinin artmasında ali təhsil müəssisələrinin rolu yüksəkdir

## Firudin Qurbanov Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Elm, Texnologiya və Təhsil nazirlikləri rəhbərlərinin V iclasında iştirak edib



Noyabrın 21-də Təhsil nazirinin müavini Firudin Qurbanov Rusiya Federasiyasının Moskva şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv dövlətlərin Elm, Texnologiya və Təhsil nazirliklərinin rəhbərlərinin V iclasında iştirak edib.

İclasda ŞƏT-ə üzv, müşahidəçi və tərəfdaş olan 15 ölkədən 50 nümayəndə iştirak edib. Tədbiri Rusiya Federasiyasının Elm və ali təhsil naziri Mixail Kotyukov açıq elan edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanda elmi tədqiqatların faizinin artmasında ali təhsil müəssisələrinin rolu nəzərəçarpacaq qədər yüksəkdir. Nazir müavini qeyd edib ki, azərbaycanlı alimlərin xarici həmkarları ilə birgə nəşr etdirdiyi elmi işlərin sayının artması ölkəmizin beynəlxalq tədqiqat layihələrində fəal iştirakının göstəricisidir. 2017-ci ildə dünyanın aparıcı elmi jurnallarında Azərbaycan alimlərinin ən çox sayda tədqiqat nəticələri nəşr edilib (1160 nəşr).

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" barədə məlumat verən Firudin Qurbanov bildirib ki, Azərbaycanda intellektual potensialın gücləndirilməsinə xidmət edən bu proqram Azərbaycan Respublikasının vətəndaşları üçün Şanxay reytinq cədvəlinə daxil olan 500 universitetdə doktorantura səviyyəsində təhsil almaq imkanı yaradır.

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının vacibliyini vurğulayan nazir müavini təhsildə texnoloji innovasiyaların tətbiqindən danışaraq "Rəqəmsal bacarıqlar" və STEAM layihələri barədə məlumat verib. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasının təmin olunması istiqamətində Təhsil Nazirliyi tərəfindən müvafiq addımların atıldığını qeyd edən nazir müavini əldə olunmuş nailiyyətlər, o cümlədən İnformasiya Resursları Mərkəzi, Təhsil şəbəkəsi, bu sahədə kadr potensialının inkişafı və elektron resurslar barədə də məlumat verib.

Tədbir çərçivəsində nazir müavini Firudin Qurbanov Rusiya Federasiyasının Elm və Ali Təhsil nazirinin birinci müavini Qriqori Trubnikov ilə görüşüb. Görüşdə iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edilib və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tədbirin sonunda növbəti iclasın Pakistan İslam Respublikasında keçirilməsinə qərar verilib.

# "Çün Nəsimi əyyamın sultanıdır, Dövr onun, dövran onun dövranıdır!"

Noyabrın 19-da Bakı Slavyan Universitetində (BSU) Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə və "Nəsimi ili"nə həsr olunmuş "Çün Nəsimi əyyamın sultanıdır, Dövr onun, dövran onun dövranıdır!" adlı geniş tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Təhsil nazirinin müavini Firudin Qurbanov, "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva, ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri, Xalq artisti Rasim Balayev, təhsil eksperti, professor Şahlar Əsgərov, media strukturlarının rəhbərləri iştirak ediblər.

Tədbirdən əvvəl iştirakçılar universitetin foyesində Tusi Tərtibat və Dizayn Mərkəzi tərəfindən təşkil edilmiş "Nəsimi-650" adlı sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev 2018-ci il noyabr ayının 15-də böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsi üçün Sərəncam imzalayıb. İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Rektor vurgulayıb ki Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər. Ölkə Prezidenti cənab İlham Əliyev bu il yanvar ayının 11-də Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Sərəncam imzalayıb. Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Tədbirdə çıxış edən AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin baş elmi işçisi, professor Rəhim Əliyev çıxışında qüdrətli söz ustadı, böyük mütəfəkkir Nəsiminin həyat və yaradıcılığı, eləcə də hürufilik fəlsəfi təliminin mahiyyəti haqqında ətraflı məlumat verib. Filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli çıxış edərək azadlıq ideyalarının Nəsimi yaradıcılığında öz geniş əksini tapdığını qeyd edib.

Xalq artisti Rasim Balayev Nəsimi yaradıcılığına verilən yüksək qiymətə və tədbirin keçirilməsinə görə BSU-nun rəhbərliyinə təşəkkür edib, universitetin kollektivinə uğurlar arzulayıb.

Sonra tədbir bədii-musiqili hissə ilə davam edib. Bədii-musiqili hissədə Azərbaycan əsilli tanınmış musiqiçi Sami Yusifin İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsasında hazırladığı musiqili kompozisiyasının videosu təqdim edilib. "Dərviş qrupu"nun solisti Zeynal Əhmədovun ifasında "Bayatı-Şiraz" muğamı səslənib. Ümid Abbaszadənin rejissorluğu ilə BSU-nun tələbələrinin hazırladıqları "Nəsimi və bəşəriyyət" adlı bədii kompozisiya nümayiş olunub. BSU-nun xoreoqrafı Əli Natiqoğlunun hazırladığı Nəsimiyə həsr olunmuş pantomim rəqsi "Arzu" rəqs ansamblı və "Dərviş qrupu" tərəfindən ifa edilib.

# Beynəlxalq ikili diplom proqramlarının tətbiqinə başlanılır

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Bundan başqa, beynəlxalq ikili diplom proqramları təhsilin müxtəlif - həm bakalavr, həm də magistr pillələrini nəzərdə tutur.

Nicat Məmmədli qeyd edib ki, hazırda Azərbaycanın bir neçə ali təhsil müəssisəsi təhsilin idarəedilməsi, kompüter elmləri, tibb, kənd təsərrüfatı sahələrində ikili diplom proqramlarının təsis edilməsi istiqamətində dünyanın nüfuzlu universitetləri ilə danışıqlar aparır. Şöbə müdiri hazırda pedaqoji istiqamətdə Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-ın nüfuzlu Corc Vaşinqton Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Tibb Universiteti ilə Türkiyə universitetləri arasında ikili diplom proqramlarının təsis olunmasına dair danışıqların davam etdirildiyini diqqətə çatdıraraq ikili diplom proqramlarının növbəti tədris ilindən həyata keçiriləcəyini deyib.

O, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın hər iki icra istiqaməti üzrə nəzərdə tutulmuş məqsədlərin icrasını təmin etmək üçün Təhsil Nazirliyinin nəzdində formalaşdırılacaq İdarəetmə Qrupunun vəzifələri barədə məlumat verib.

Nicat Məmmədli əmin olduğunu bildirib ki, beynəlxalq ikili diplom proqramlarının tətbiqi Azərbaycanın ali təhsil məkanına ciddi töhfələr verəcək.

# "Fərman Salmanov adına təqaüd"ün verilməsi Qaydası" təsdiqlənib

Nazirlər Kabineti tərəfindən "Fərman Salmanov adına təqaüd"ün verilməsi Qaydası" təsdiq edilib.

Qaydaya əsasən, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) bakalavriat səviyyəsində əyani təhsil alan və bu Qaydaya müvafiq olaraq keçirilən müsabiqənin qalibi elan olunmuş Azərbaycan vətəndaşları bu təqaüdü almaq hüququna malikdirlər.

Müsabiqədə iştirak üçün sözügedən universitetdə bakalavriat səviyyəsində əyani təhsil alan, xüsusi istedadı ilə fərqlənən (təhsildə yüksək göstəricilərə malik olan, ADNSU-da keçirilən tələbələrin elmi-texniki konfransının mükafatçısı olan) tələbələr təhsillərinin üçüncü ilindən başlayaraq təqaüdün alınması üçün namizəd ola bilərlər. Tələbənin ali təhsil müəssisəsinə qəbul zamanı 600-dən yuxarı bal toplaması, son iki tədris ilinin yekunlarına görə ümumi orta müvəffəqiyyət göstəricisinin 91-100 olması əsas şərtlərdəndir.

Təqaüd iki tələbə üçün, hər birinə "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" ölkə Prezidentinin müvafiq sərəncamı ilə müəyyən edilmiş adlı təqaüd məbləğində ödənilir və bir tədris ili müddətinə təyin edilir. Təqaüdün təyin olunması tələbənin digər təqaüdləri almaq hüququnu istisna etmir.

Qeyd edək ki, ölkə Prezidenti cənab İlham Əliyevin "Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında" 9 iyul 2019-cu il tarixli sərəncamına əsasən, Qərbi Sibirin Tümen vilayətində nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd" təsis edilib.

# Ali təhsil müəssisələrinin tədris proqramlarının təkmilləşdirilməsi

## BMU-da beynəlxalq seminar keçirilir



Bakı Mühəndislik Universitetinin (BMU) və Milli Erasmus + Azərbaycan Ofisinin təşkilatçılığı ilə Avropa İttifaqının Texniki Dəstək Missiyasının (TAM) proqramı çərçivəsində "Beynəlxalq akkreditasiyadan keçmək üçün Azərbaycan ali təhsil müəssisələrinin mövcud tədris proqramlarının təkmilləşdirilməsi" adlı ikigünlük beynəlxalq seminar işə başlayıb. Seminarda Təhsil Nazirliyinin, beynəlxalq qurumların, ölkədə fəaliyyət göstərən ayrı-ayrı ali təhsil müəssisələrinin nümayəndələri iştirak edirlər.

Beynəlxalq seminarı giriş sözü ilə açan BMU-nun rektoru, professor Havar Məmmədov vurğulayıb ki, son illər Azərbaycan ali təhsil müəssisələrində yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə bir çox layihələr həyata keçirilib və uğurlu nəticələr əldə edilib. Rektor Prezident cənab İlham Əliyevin görülən işlərin davam etdirilməsi məqsədilə imzaladığı "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na toxunub. Bildirib ki, sənədin əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Eyni zamanda, ali təhsil müəssisələrinin inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi də proqramın mühüm prioritetlərindəndir.

H.Məmmədov Avropa İttifaqının maliyyələşdirdiyi TAM-ın əsas məqsədinin milli və ya yerli səviyyədə mədəniyyətin idarə olunması ilə bağlı davam edən təşəbbüslərin və fəaliyyətlərin planlaşdırılmasına, həmçinin həyata keçirilməsinə kömək etmək olduğunu bildirib. Rektor qeyd edib ki, təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədilə digər ali təhsil müəssisələri ilə sazişlər bağlamaq, assosiasiyalar yaratmaq, universitetin beynəlxalq arenaya açılmasına, eləcə də beynəlxalq təcrübədən yararlanmaqla tədrisi inkişaf etdirməyə şərait yaradır. Professor H.Məmmədov çıxışında BMU-da beynəlxalq təcrübənin öyrənilməsi üçün görülən çoxşaxəli işlərdən bəhs edib, eyni zamanda, Azərbaycanın ali təhsil müəssisələrində mövcud tədris proqramlarının təkmilləşdirilməsi üçün beynəlxalq akkreditasiyadan keçməyin böyük əhəmiyyət kəsb etdiyini də vurğulayıb.

Milli Erasmus + Azərbaycan ofisinin rəhbəri Pərviz Bağırov layihənin Azərbaycanda yaranma tarixindən və önəmindən danışıb.

Layihənin rəhbəri, BMU-nun Sənaye mühəndisliyi kafedrasının baş müəllimi Sevil İmanova TAM layihəsi çərçivəsində təşkil olunan seminar haqqında ətraflı məlumat verib.

İspaniyalı professor, xanım Cecila Ruiz Esteban Avropa ali təhsil bölgəsində keyfiyyətin təminatı haqqında danışıb və Azərbaycan ali təhsil müəssisələrinin mövcud tədris proqramlarının təkmilləşdirilməsi üçün tövsiyələrini verib. O, Avropa İttifaqına qoşulan universitetlər, proqramlar və universitetlərə ayrılan maliyyə yardımlarından söz açıb, müəllim və tələbələrin bu layihələrdə iştirakını müsbət qiymətləndirib.

Çıxışlardan sonra iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, ikigünlük seminarda ispaniyalı professor Cecila Ruiz Estebanın "Ali təhsil müəssisələrinin akkreditasiya standartları ilə daxili keyfiyyətin təminatı arasında uyğunluq-qarşılıqlı əlaqə" və "Milli çərçivədən beynəlxalq akkreditasiyaya" mövzularında təqdimatları dinləniləcək, birgə müzakirələr aparılacaq.

# Azərbaycan xalqının milli sərvəti

Bakı Dövlət Universiteti - 100








⇦ Əvvəli səh.1

## 100 yaşlı Bakı Dövlət Universiteti yeni yüksəliş mərhələsində

**Abuzər XƏLƏFOV,**
*Əməkdar elm xadimi, BDU-nun fəxri professoru, Prezidentin fərdi təqaüdçüsü, tarix elmləri doktoru, professor*

**Knyaz ASLAN,**
*Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, fəlsəfə doktoru, dosent*

Ulu öndər Bakı Dövlət Universitetini “Azərbaycan xalqının milli sərvəti” kimi yüksək dəyərləndirmiş, bir məzun olaraq onun regionda qabaqcıl təhsil ocağına çevrilməsi üçün mütərəqqi işlər görmüşdür.

Nüfuzlu elm və təhsil müəssisəsi kimi böyük şöhrət qazanmış Bakı Dövlət Universitetinin sayı 150 mini ötən məzunları arasında onlarla dünya şöhrətli alim, görkəmli siyasi xadim, tanınmış şəxsiyyət var. Onların sırasında Ümummilli lider Heydər Əliyev, Nobel mükafatı laureatı, fizik akademik Lev Landau, kimyaçı akademik Yusif Məmmədəliyev, riyaziyyatçı akademik Zahid Xəlilov, fizioloq akademik Abdulla Qarayev, geoloq akademik Şəfaət Mehdiyev, ədəbiyyatşünas alim və yazıçı Mir Cəlal Paşayev, ədəbiyyatşünas professor Cəfər Xəndan, şərqşünas professor Aida İmanquliyeva və digər mütəxəssislər xüsusi yer tuturlar.

Bakı Dövlət Universitetinin yüksəliş mərhələsində müstəsna xidməti olan Ulu Öndər Heydər Əliyev milli təhsilin inkişafını və onun aparıcı dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını ciddi vəzifə kimi müəyyənləşdirmiş, bu sahədə aparılacaq islahatların mahiyyətini açıqlamışdır. Onun irəli sürdüyü elm və ali təhsil konsepsiyasının əsasını müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin sürətlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi başlıca prinsiplər təşkil etmişdir. Heydər Əliyev həm sovet dövründə - 1969-1982-ci illərdə, həm də müstəqillik dövründə - 1993-2003-cü illərdə elmin, təhsilin inkişafını nəzərdə tutan bir sıra mühüm fərmanlar, sərəncamlar, dövlət proqramları imzalamış, Azərbaycan Milli Elmlər Akademiyasının, respublikanın ali təhsil müəssisələrinin, xüsusilə Bakı Dövlət Universitetinin inkişafına hər zaman qayğı göstərmişdir.

Ulu Öndər doğma ali təhsil ocağına rəğbətini hər zaman fərəhlə bildirmiş, “Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam” kəlamını iftixarla söyləmişdir. “Universitetin başlıca məqsədi gələcəyin vətəndaşını, yüksək səviyyəli mütəxəssisini yetişdirməkdən ibarətdir” - sözlərini dəfələrlə vurğulayan Heydər Əliyev bu ali təhsil ocağının maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi potensialının artırılması üçün müvafiq tədbirlər planının həyata keçirilməsinin təşəbbüskarı və himayədarı olmuşdur. Ötən illər ərzində BDU-nun çoxsaylı kollektivi, o cümlədən professor-müəllim heyəti dünya şöhrətli məzunun qarşıya qoyduğu ali ideyaları və amalları yüksək səviyyədə həyata keçirmək naminə ciddi səy göstərmişdir.

Bir faktı xatırlatmaq yerinə düşər: 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetinin 50 illik yubileyi məhz Heydər Əliyevin rəhbərliyi ilə respublika miqyasında təntənəli şəkildə qeyd olunmuşdur. Bu möhtəşəm mərasim Bakı Dövlət Universitetinin sonrakı inkişafında, yeni elm və təhsil istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı, sözün həqiqi mənasında, dönüş mərhələsinə çevrildi. Bu dönüş mərhələsi xalqımızın tarixində milli dirçəlişə, universitetdə tədris prosesinin keyfiyyətinin yüksəlməsinə, elmi-tədqiqat istiqamətinin genişlənməsinə və kadr korpusunun daha da təkmilləşməsinə səbəb oldu. Yubiley Komissiyasının sədri kimi Ulu Öndərin Azərbaycan dilində parlaq nitq söyləməsi isə yaddaşlara əsl mədəniyyət hadisəsi kimi yazıldı.

Ümumiyyətlə, BDU-nun indiyədək keçirilmiş beş yubiley mərasimindən dördü - 50, 60, 75 və 80 illik yubileylər məhz Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf edir. Bu mənada Ulu Öndərlə Bakı Dövlət Universitetini bir-birindən ayrı təsəvvür etmək qətiyyən mümkün deyildir. Təsadüfi deyil ki, bu ali təhsil məbədi istər təhsil və elmin inkişafında, istərsə də maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni ixtisasların açılması sahəsində ən möhtəşəm nailiyyətlərini məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanmışdır.

Elə bu səbəbdən Bakı Dövlət Universitetinin qədirbilən professor-müəllim heyəti və tələbə kollektivi özünün dünya şöhrətli məzunu ilə haqlı olaraq hər zaman fəxr etmişdir. Bu tükənməz sevginin bariz nümunəsi olaraq universitetin Böyük Elmi Şurası elmin və təhsilin inkişafında göstərdiyi misilsiz qayğıya, bu təhsil ocağının şöhrətini yüksəklərə qaldırdığına görə 1999-cu ildə - 80 illik yubiley ərəfəsində Ulu Öndər Heydər Əliyevə Bakı Dövlət Universitetinin Fəxri Doktoru diplomunu böyük minnətdarlıq duyğuları ilə təqdim etmişdir.

Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə Bakı Dövlət Universitetinə özünüidarəetmə - muxtariyyət statusunun verilməsi də onun qayğısının ən parlaq nümunələrindən biridir. Müstəqilliyimizin həmin dövründə ali məktəbə müəyyən prinsiplər əsasında belə bir statusun verilməsi onun inkişafında yeni bir mərhələnin əsasını qoymuş, təhsilin məzmun və formaca təkmilləşdirilməsini, dünya təhsil sisteminə sürətli inteqrasiyasını, eyni zamanda beynəlxalq əlaqələrinin genişlənməsini təmin etmişdir. Belə ki, qabaqcıl xarici ölkələrində fəaliyyət göstərən aparıcı ali məktəblərin mütərəqqi iş təcrübəsinin universitetimizdə tətbiqi, tədris-tərbiyə prosesinin müasir beynəlxalq standartlara uyğun qurulması üçün həmin illərdə məqsədyönlü addımlar atılmışdır.

Sevindirici haldır ki, ulu öndər Heydər Əliyevin milli dövlətçilik siyasətini hazırda uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə təhsilin beynəlxalq tələblər səviyyəsinə qaldırılması, ölkə təhsilinin dünya təhsil sisteminə inteqrasiyası üçün mühüm tədbirlər həyata keçirir. Azərbaycanda iqtisadi inkişafın sürətləndirilməsinə, həyatın bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan dövlət başçısı elm və təhsilin problemlərini daim diqqət mərkəzində saxlayır, ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edir. Azərbaycanın hərtərəfli inkişafını elm və təhsildə, güclü insan kapitalının formalaşdırılmasında görən Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin cəmiyyətdəki rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirir, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri həyata keçirir. Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişaf səviyyəsini əyani şəkildə nümayiş etdirən Bakı Dövlət Universitetinin 90 illik yubileyinin respublika miqyasında geniş şəkildə qeyd olunması, bu prosesin ümumən təhsil sistemində son illərin ən əlamətdar hadisələrindən birinə çevrilməsi də məhz Prezident İlham Əliyevin xidmətləri ilə bağlıdır.

Dövlət başçısının rəhbərliyi ilə respublikamızda sosial-iqtisadi və elmi-mədəni sahələrdə bir çox nailiyyətlər əldə olunmuş, xüsusilə təhsil sahəsində mühüm islahatlar həyata keçirilməyə başlamışdır. Onun qarşıya qoyduğu tələbləri həyata keçirmək üçün sivil dünyanın ən mütərəqqi yeniliklərinin Bakı Dövlət Universitetinin elm və təhsil istiqamətlərinə tətbiqi indi ən başlıca məsələlərdəndir. Həmin istiqamətdə qarşıya qoyulan vəzifələr bu ali təhsil məbədinin çoxsaylı kollektivindən, xüsusilə professor-müəllim heyətindən ciddi məsuliyyət tələb edir.

Bu baxımdan Prezident İlham Əliyevin 21 iyun 2017-ci il tarixli Sərəncamı əsasında Bakı Dövlət Universitetinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunun verilməsi bu ali təhsil ocağının inkişafı istiqamətində yeni perspektivlər müəyyənləşdirir. Əlbəttə, bu status Bakı Dövlət Universitetinin akademik və elmi fəaliyyətdə çevikliyini, eyni zamanda müasir korporativ idarəetmə modellərinin tətbiqini təmin etməyə kömək göstərəcəkdir.

Tədris prosesi Azərbaycan, rus və ingilis dillərində aparılan Bakı Dövlət Universitetində dünyanın bir çox ölkələrindən təxminən min nəfərə qədər əcnəbi tələbə də təhsil alır. Burada ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrində kadr hazırlığı Avropa kredit transfer sisteminə uyğun həyata keçirilir.

Bakı Dövlət Universiteti çeviklik, beynəlxalq rəqabətə davamlılıq və məşğulluq imkanını artırmaq kimi üç əsas məqsəd daşıyan və əsas mahiyyəti Avropa universitetlərinə inteqrasiya olan Bolonya prosesinə qoşulandan bəri ciddi təhsil layihələrinin və ideyalarının gerçəkləşdiyi bir elm və tədris müəssisəsinə çevrilmişdir. Bu ali təhsil ocağında çalışan alim və pedaqoqların peşəkarlığı sayəsində tələbələrin mənimsədiyi biliklər onların seçdikləri ixtisaslar üzrə yüksək səviyyəli kadrlar kimi yetişməsinə əsaslı kömək göstərir.

Qətiyyətlə demək olar ki, bu gün Bakı Dövlət Universitetinin sürətlə inkişaf edən, yenidən qurulan fakültələri, kafedraları, laboratoriyaları özünün müasir texnoloji avadanlıqları, səriştəli mütəxəssislərinin fəaliyyəti sayəsində ən qabaqcıl elm və təhsil ocaqları ilə rəqabət aparmaq qüdrətinə malikdir. Son zamanlar uğurla həyata keçirilən islahatların nəticəsi olaraq Bakı Dövlət Universiteti müasir dünyanın tələbatlarına və beynəlxalq standartlara uyğun gələn savadlı, vətənpərvər mütəxəssislərin hazırlanması işini uğurla həyata keçirir. Bu ali təhsil ocağı tətbiq edilən tədrisin keyfiyyəti, müasir tələblərə cavab verən yüksək maddi-texniki bazası, təhsil alan tələbələrin sayı, intellektual səviyyəsi, beynəlxalq əlaqələri, ölkə hüdudlarından kənardakı mövqeyi baxımından regionda öz liderlik mövqeyini əzmlə qoruyub saxlayır.

Dünya ölkələrinin bir çox ictimai-siyasi xadimlərinin, elm, təhsil və mədəniyyət nümayəndələrinin Bakı Dövlət Universitetinin Fəxri doktorları seçilməsi də bu nüfuzlu ali məktəbin zəngin milli-mənəvi dəyərləri qoruyub saxlamasına, beynəlxalq aləmə, Avropanın mənəvi-intellektual həyatına hərtərəfli inteqrasiyasına əsaslı zəmin yaradır.

Bu baxımdan Prezident İlham Əliyevin 14 noyabr 2017-ci ildə imzaladığı “Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamında qeyd edilir ki, Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr vermişdir.

Dövlət başçısının Sərəncamına uyğun olaraq bu ali təhsil ocağının yubiley tədbirləri həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda beynəlxalq səviyyədə geniş qeyd edilməkdədir. Fərəhli haldır ki, yubileylə əlaqədar zəngin tədbirlər planının tərkib hissələrindən biri kimi Bakı Dövlət Universitetinin şanlı tarixinə həsr edilmiş sanballı kitab artıq nəşrə hazırdır.

İftixar hissi ilə vurğulamalıyıq ki, yüzlərlə görkəmli alim, tanınmış ictimai xadim və yaradıcı ziyalılar yetişdirən Bakı Dövlət Universitetinin 100 illik yubileyi 2019-cu ilin iyun ayında Parisdə UNESKO-nun Baş qərargahında təntənə ilə keçirilmişdir. Həmin tədbirdə çıxış edən ali təhsil ocağının rektoru Elçin Babayev dünyanın tanınmış ictimai-siyasi xadimlərinin bu ali təhsil ocağının fəxri doktoru olduğunu diqqətə çatdırmış, ümummilli lider Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, bir çox ölkələrin, o cümlədən Türkiyə, Rusiya, Polşa və Litva prezidentlərinin, Nobel mükafatçılarının, NATO, UNESKO və İSESKO-nun rəhbərlərinin, ABŞ-ın Dövlət katibləri və digər görkəmli şəxsiyyətlərin Bakı Dövlət Universitetinin Fəxri doktorları olduqlarını vurğulamışdır.

Bundan başqa, Bakı Dövlət Universitetinin 100 illik yubileyi cari ilin may ayında Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN) Baş Assambleyasının və Buxarest Universitetinin təşkilatçılığı ilə Rumıniyanın paytaxtı Buxarest şəhərində, sentyabr ayında isə Avstriyada - Avropanın mədəniyyət paytaxtlarından biri olan Vyana şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində təntənə ilə keçirilmişdir.

Bütün bunlarla yanaşı, respublikamızın bir çox ali təhsil və mədəniyyət ocaqlarında, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Mingəçevir Dövlət Universitetində, Sumqayıt Dövlət Universitetində, Bakı Mühəndislik Universitetində, Lənkəran Dövlət Universitetində, Azərbaycan Texniki Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Şərqin ilk ali məktəbinin - Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransların keçirilməsi də bütövlükdə ölkə elm və təhsilinin uğurlarının göstəricisidir.

Son aylarda Beynəlxalq Türk Akademiyasının (TWESCO) prezidenti, professor Darxan Kıdırəlinin, Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri səfir Zoltan Hernyesin, Fransanın Monpelye Universitetindən professor Fransua Henn və gənc tədqiqatçı Adrien Novrin, İtaliyanın Triest şəhərində yerləşən Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin (ICTP) direktoru, elementar zərrəciklər və yüksək enerjilər fizikası sahəsində tanınmış nəzəriyyəçi-alim, Kembric Universitetinin professoru Fernando Quevedonun, Rusiyanın Sverdlovsk vilayətindəki Ural Federal Universitetinin rektoru Viktor Kokşarovun və başqalarının 100 illik yubiley çərçivəsində Bakı Dövlət Universitetində olması, bir sıra xarici qurumlarla əməkdaşlığa dair əməkdaşlıq sazişlərinin və anlaşma memorandumlarının imzalanması doğma universitetimizin beynəlxalq əlaqələrinin gündən-günə genişlənən miqyası barədə kifayət qədər dolğun təsəvvür yaradır.

Təbii ki, müasir cəmiyyətin inkişafında, onun həyat səviyyəsinin yüksəlməsində, mədəniyyət və sivilizasiyanın tərəqqisində təhsilin və elmin həlledici rolu Azərbaycanın ümumavropa təhsil və elm məkanına inteqrasiyası prosesinin daha da sürətləndirilməsini, bu sahədə həyata keçirilən islahatların intensivləşdirilməsini tələb edir. Bu məqsədlərin həyata keçirilməsi, habelə dünya elminə inteqrasiyanın sürətləndirilməsi üçün Bakı Dövlət Universitetində məqsədyönlü tədbirlər həyata keçirlir, müvafiq struktur dəyişiklikləri aparılır, yeni innovativ şöbələr formalaşdırılır, əsasən gənclərdən ibarət işgüzar və təşəbbüskar kadr potensialı formalaşdırılır. Bu nüfuzlu ali təhsil ocağında ictimai fəallıq qısa müddətdə xeyli yüksəlmiş, universitetin elmi və idarəçik həyatında gənclərin rolu artmağa başlamışdır. Qocaman ali təhsil ocağında gerçəkləşdirilmiş bir sıra zəruri tədbirlər, o sırada kadr korpusunun möhkəmləndirilməsi yaxın gələcəkdə universitetin bütün sahələrdə daha sürətlə inkişaf edəcəyindən soraq verir.

Bu gün Bakı Dövlət Universitetində təhsilin məzmun və formaca yeniləşdirilməsi, aparıcı ölkələrin qabaqcıl ali məktəblərinin zəngin təcrübəsinin mənimsənilməsi istiqamətində ciddi addımlar atılır. Doğma ali məktəbimizin mövqeləri dünya miqyasında gündən-günə möhkəmlənməkdə, elmi-pedaqoji kadrlarının beynəlxalq elmi konfranslarda iştirakı həm kəmiyyət, həm də keyfiyyət baxımından çoxalmaqdadır.

Əlbəttə, keyfiyyətli təhsil ilk növbədə nizam-intizamdan, qaydalara uyğun davranış normalarından başlanır. Bu gün həmin normalar Bakı Dövlət Universitetində mühüm keyfiyyət faktına çevrilmiş, yaradılan möhkəm intizam, tədrisin keyfiyyətinə gündəlik nəzarət fəaliyyətin səmərəsini xeyli dərəcədə artırmışdır. Universitetdə hökm sürən işgüzar şərait, elmi yaradıcılıq mühiti, müasir maddi-texniki baza çoxsaylı kollektivin də böyük rəğbəti ilə qarşılanmışdır. Çoxsaylı professor-müəllim heyəti və tələbə kollektivi son aylarda universitetin ərazisində abad şərait yaradılmasının, tədris korpuslarında və tələbə yataqxanalarında təmir-bərpa işləri aparılmasının, maddi-texniki bazanın gücləndirilməsinin canlı şahidləridir. Bütün korpuslarda tələbə-müəllim yeməkxanaları kompleksinin müasir tələblərə uyğun şəkildə yenidən qurulması, yüksək estetik zövqlə və keyfiyyətlə yenidənqurma işlərinin aparılması bu nüfuzlu elm məbədinin əzəmətli görkəmində klassika ilə müasirliyin uğurlu sintezini yaratmış, kollektivi doğma ali məktəbə daha sıx bağlayan amillərdən birinə çevrilmişdir.

Müstəqilliyimizin indiki mərhələsində Bakı Dövlət Universitetinin əsas məqsədi yüksək səviyyəli mütəxəssis, vətənpərvər ziyalı, milli dövlətçiliyə sadiq vətəndaş, Azərbaycançılıq ideologiyasına şərəflə xidmət göstərən şəxsiyyət hazırlamaqdan ibarətdir. Bununla əlaqədar olaraq bu ali təhsil ocağında strateji istiqamətlər dəqiq müəyyənləşdirilmiş, bu yöndə bütün potensial imkanlar səfərbərliyə alınmışdır. Yüz yaşlı universitetin səriştəli kollektivi bu günün yetkin gəncliyini formalaşdırmaq üçün əzmlə çalışır, xalqımızın işıqlı sabahı naminə layiqli vətəndaşların, savadlı kadrların hazırlanması məqsədi ilə tədrisin və təhsilin keyfiyyətini yüksəltməyə çalışır.

Xüsusi vurğulamaq lazımdır ki, hazırda ali təhsil müəssisəsində tədris səviyyəsinin yüksəldilməsi və sanballı elmi nailiyyətlərin əldə olunması ilk növbədə kompüter və müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqini tələb edir. Bakı Dövlət Universitetinin rəhbərliyi bu reallığı nəzərə alaraq innovasion yeniliklərin geniş tətbiqi istiqamətində mühüm irəliləyişlərə start vermiş, dekanlıqların, kafedraların və digər qurumların müasir kompüter avadanlıqları ilə təchiz olunması prosesinə başlanılmışdır.

Məlum olduğu kimi, son illərdə ölkədə aparılan sosial layihələrin, Prezident İlham Əliyevin əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində apardığı işlərin, dövlət başçısı tərəfindən davamlı olaraq həyata keçirilən genişmiqyaslı tədbirlərin növbəti mərhələsi kimi dövlət büdcəsindən maliyyələşən müəssisələrdə minimum əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması uğurlu sosial siyasətin bariz göstəricisidir. Bu baxımdan Bakı Dövlət Universiteti Elmi Şurasının 2019-cu ilin oktyabr ayında keçirilən iclasında Azərbaycan dövlətinin sosial siyasətini rəhbər tutaraq əməkdaşların maddi rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə BDU əməkdaşlarının, o cümlədən universitetin Qazax filialı kollektivinin əməkhaqlarının sentyabr ayının 1-dən hesablanmaqla orta hesabla 20 (iyirmi) faiz artırılması haqqında qərar qəbul edilməsi bu ali təhsil ocağının çoxsaylı kollektivi tərəfindən rəğbətlə qarşılanmışdır.

Təqdirəlayiq haldır ki, hazırda Bakı Dövlət Universiteti ölkəmizdə təhsil islahatlarının həyata keçirilməsində önəmli rola malikdir. Bu ali təhsil ocağı ölkədə maarifçiliyin, təhsilin inkişafında, elmin tərəqqisində, milli ideologiyanın formalaşmasında fəal iştirak edir. Elm və təhsil sahəsində uğurlu fəaliyyəti ilə Azərbaycanın hərtərəfli inkişafına bundan sonra da öz layiqli töhfəsini vermək niyyətində olduğunu nümayiş etdirən Bakı Dövlət Universitetinin əsas fəaliyyəti və inkişafı bu gün təhsil, elm, innovasiyalar, sosiallıq və beynəlmiləlləşmək hədəflərinə doğru istiqamətlənmişdir. Əminliklə söyləyə bilərik ki, bir əsrlik yubileyini zəngin elm və təhsil nailiyyətləri ilə qarşılayan doğma Bakı Dövlət Universiteti növbəti 100 illiyə yeni enerji ilə qədəm qoyaraq daha böyük uğurlar qazanacaqdır.

# Mühəndis-pedaqoji heyətə Türkiyədə təlimlər keçilir

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

## Amil Əlili: "Təlimlər iki ölkə arasında əməkdaşlığın daha da güclənməsinə və birgə uğurlu layihələrin reallaşdırılmasına təkan verəcək"

*- Oktyabr ayından Türkiyənin 3 şəhərində azərbaycanlı müəllimlər üçün təlimlər keçirilir.*

- Elədir. 2019-2020-ci tədris ili üçün 2 ölkə arasında peşə təhsili sahəsində əməkdaşlığa əsasən müxtəlif istiqamətlər üzrə peşə təhsil müəssisələrinin mühəndis-pedaqoji heyətindən seçilən 47 nəfərin Türkiyə Respublikasının İstanbul, Ankara və İzmir şəhərlərində təlimlərdə iştirakı nəzərdə tutulub. Artıq oktyabr ayından bu təlimlərə start verilib və bəzi qruplarda təlimlər yekunlaşıb.

*- Təlimlərin məqsədi nədir?*

- Təbii ki, başlıca məqsəd təcrübə mübadiləsidir. Öz inkişafında yeni dövrü yaşayan Azərbaycan peşə təhsili sisteminin beynəlxalq standartlara cavab verməsi, kadr hazırlığının keyfiyyətinin artırılması üçün mövcud mühəndis-pedaqoji heyətin təlimləndirilməsi prioritet məsələdir. Peşə təhsili sahəsində tədrisin təşkili, praktiki dərs yükünün artırılması, yeni təhsil proqramlarının hazırlanması və tətbiqi, işəgötürənlərlə əməkdaşlıq, ixtisaslı mütəxəssislərin cəlb edilməsi istiqamətində təcrübənin öyrənilməsi mütləqdir. Bu sahədə Azərbaycan və Türkiyə arasında peşə təhsil sahəsində əməkdaşlıq çərçivəsində təşkil olunan təlimlər də peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətinin kvalifikasiyasının artırılmasına xidmət edir.

*- Azərbaycanlı müəllimlər üçün keçirilən bu təlimlər hansı müddəti əhatə edir? Ən əsası, nəzərdə tutulan məqsəd üçün bu müddət kifayətdirmi?*

- Təlimlər üçün ixtisasdan asılı olaraq 2-12 həftə müddət müəyyən olunub. Təlim proqramları əvvəlcədən hazırlanıb və əhatəlidir. Təlimlərə qardaş ölkənin peşə təhsili sahəsində çalışan mütəxəssisləri ilə yanaşı, ali təhsil müəssisələrinin də qoşulması onun səmərəliliyini daha da artırır. Müvafiq proqram əsasında həyata keçirildiyindən yekunda təlimlərin gözlədiyimiz nəticəni verəcəyinə şübhəmiz yoxdur.

### Təlimlərdə əsasən regionlarımızda fəaliyyət göstərən mühəndis-pedaqoji heyət iştirak edir

*- Bəs, bu təlimlərdə iştirak edənlər kimlərdir?*

- Təlimlərə peşə təhsili müəssisələrinin rəhbərləri, müxtəlif peşə istiqamətləri üzrə istehsalat təlim ustaları və ixtisas fənn müəllimləri qatılıb. İlkin mərhələdə təlimlərdə Bakı və regionlar üzrə 25 peşə təhsili müəssisəsinin 15 peşə istiqaməti üzrə əməkdaşlarının iştirakı nəzərdə tutulub.

*- Kimin iştirak edəcəyinə necə qərar verilib? Yəni, bu seçim hansı kriteriyalarla aparılıb?*

- Bildiyiniz kimi, son illər peşə təhsili müəssisələrində çalışan müəllimlərin də diaqnostik qiymətləndirilməsi aparılır. Seçim zamanı ilk növbədə həmin qiymətləndirmənin nəticələri əsas götürülüb. Yəni, qiymətləndirmə zamanı fərqlənənlər seçiliblər. Bundan əlavə, qeyd edim ki, cari ildən peşə təhsili müəssisələrində bütün ixtisasların tədrisi təhsil proqramları (kurikulum) əsasında həyata keçirilir. Bu məqsədlə müvafiq sahələr üzrə təhsil kurikulumlarının və modul dərsliklərin hazırlanmasında iştirak edən müəllim və istehsalat təlimi ustalarının iştirakına üstünlük verilib. Peşə təhsili müəssisələrində ixtisas seçərkən təhsilalanların əmək bazarının dəyişən tələblərinə uyğun olaraq ən çox üstünlük verdiyi peşə sahələri üzrə müəllimlərin bilik və bacarıqlarının artırılmasına çox böyük ehtiyac var. Onların tədris etdiyi ixtisas üzrə dünyada baş verən yeniliklərdən xəbərdar olması, müasir texnika və texnologiyanın tətbiqi ilə bağlı bilik və bacarıqlarının artırılması bizim üçün önəmlidir. Ona görə də ilkin olaraq ən çox tələbat duyulan ixtisaslar üzrə kadr hazırlığında iştirak edən mühəndis-pedaqoji heyətin Türkiyədə təcrübə keçməsinə şərait yaradılıb. Onlar da əldə etdikləri təcrübəni öz həmkarları arasında bölüşməklə əhatə dairəsini daha da genişləndirəcəklər.

### Təlimlər iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə təşkil olunub

*- Təlimlərin 15 müxtəlif istiqamət üzrə həyata keçirildiyini dediniz. Daha konkret desək, hansı istiqamətlər üzrə təlimlər keçirilib?*

- İqtisadiyyatın müxtəlif istiqamətləri üzrə təlimlər təşkil olunub. Peşə təhsilinin iqtisadiyyatın inkişafı ilə uzlaşması mütləqdir və iqtisadi sahədə ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, hazırlanan mütəxəssislərin iş yerlərinə uyğun olması əsas məqsədimizdir. Bu baxımdan təlimlər əsasən kənd təsərrüfatı, turizm, tikinti, mebel, dərzilik, ictimai iaşə, dizayn, incəsənət, avtomobil, elektrik və zərgərlik peşə istiqamətləri üzrə təşkil olunub.

*- Təlimlərin 3 ayrı şəhərdə keçirilməsi ixtisas sahələri ilə əlaqədardır?*

- Təbii ki, bu amilin rolu mühümdür. Türkiyədəki peşə təhsili müəssisələrində ixtisaslaşma özünü



daha çox göstərir. Məsələn, turizm sektoru üzrə ayrıca liseylər fəaliyyət göstərir və tabeliyindəki otellərdə onların praktiki dərsləri təşkil olunur. Və ya avtomobil üzrə peşə liseylərində "Mercedes-Benz", "Volkswagen" kimi avtomovil şirkətlərinin emalatxanaları qurulub. Belə misalları çox çəkə bilərik. Bu isə peşə təhsili üzrə hazırlanan kadrların praktiki bacarıqlarını daha artırır. Bu baxımdan Ankara, İstanbul və İzmirdə yerləşən peşə liseylərinin ixtisaslaşması nəzərə alınıb.

### Təlimlərə universitetlər də qoşulub

*- Neçə universitetdə təlimlər təşkil olundu?*

- Təlim zamanı mühəndis-pedaqoji heyət qardaş ölkənin peşə təhsili müəssisələri ilə yanaşı, Ege Universitetində olublar. Türkiyənin dördüncü universiteti hesab olunan Egedə peşə liseyləri də fəaliyyət göstərir. Kənd təsərrüfatı sahəsi üzrə kadr hazırlığında uğurları olan universitet kimi bizim mütəxəssislər buradan maksimum dərəcədə yararlanmağa çalışdılar. Əsasən regionlarda fəaliyyət göstərən peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətinin iştirak etdiyi təlimlərin aqrar sahədə yeniliklər, onların tətbiqi imkanları, elmi araşdırmalar cəhətdən mühüm əhəmiyyətli olacağına inanıram.

*- Təlimlərin mahiyyəti nədən ibarətdir? Azərbaycandan gedən mühəndis-pedaqoji heyət təlimlərdən nə qazanacaq, nə görüb-götürəcək?*

- Təlimlər zamanı kənd təsərrüfatı üzrə meyvə-tərəvəz sahəsindəki aqrotexniki, incəsənət istiqaməti üzrə müxtəlif çəkiliş studiyalarında praktiki işlərlə yaxından tanış olublar. Avtomobil qrupu üzrə təlim keçən heyət dizel mühərriki, gəmi və avtomobilin hərəkət sistemlərinin müayinəsi emalatxanalarında qurulan iş, mebel sahəsi üzrə emalatxanalarda müxtəlif əl alətləri və dizayn proqramları ilə, elektrik istiqaməti üzrə "Autocad" proqramlarında elektrik dövrələrin çəkilməsi, siqnalizasiya sistemi və təhlükəsizlik kameralarının iş prinsipi ilə tanış olublar. Kənd təsərrüfatı üzrə müxtəlif bitkiçilik laboratoriyalarına, arıçılıq sahələrinə, quşçuluq və heyvandarlıq fermalarına səfərlər təşkil olunub. İncəsənət üzrə müəllim və ustalar müxtəlif studiyalarda foto texnikalar, video qurğular, tədbirlərin təşkili, radio və televiziya yayımı ilə bağlı maraqlı təcrübələr əldə ediblər. Məsələn, TRT kanalında iş prosesi və dekor işləri ilə yaxından tanış olublar. Düşünürəm ki, təlimlər zamanı incəsənətlə bağlı nümayəndə heyəti bu tanışlıqlardan faydalı məlumatlar, özləri üçün maraqlı təcrübə əldə etdilər. İzmir şəhərində keçirilən idarəetmə təlimləri zamanı isə iştirakçılar bir neçə peşə liseyində oldular. Orada həmin müəssisələrin maddi-texniki bazası ilə tanış olmaq, tədris olunan ixtisaslar haqqında məlumatlanmaqla yanaşı, liseyin idarəetmə prosesində bir növ iştirakçı oldular. Həmçinin liderlik, strateji planın hazırlanması, işəgötürənlərlə əməkdaşlıq, büdcədənkənar gəlirlərin idarə olunması ilə bağlı maraqlı məqamlar öyrəndilər.

### Təlimlər davam edir, əməkdaşlıq genişləndirilir

*- Təlimlərin 2-12 həftə müddətində keçirildiyini vurğuladınız. Artıq təlimləri başa çatanlar da var, davam edənlər də, elə deyilmi?*

- Elədir, idarəetmə, avtomobil, inşaat, mebel, turizm və ictimai iaşə istiqamətləri üzrə təlimlər başa çatıb, dərzilik və dizayn istiqamətləri üzrə təlimlər davam edir. Təlimləri başa çatan qruplara sertifikatlar təqdim edilib. Bununla bağlı Ege Universitetində, Mazhar Zorlu Anadolu Teknik Liseyində Türkiyənin Milli Təhsil Nazirliyinin nümayəndələrinin də iştirakı ilə təntənəli tədbirlər keçirilib.

*- Bilirik ki, peşə təhsilində bir sıra fərqli ölkələrin təcrübəsi öyrənilir. Elə götürək peşə təhsilinin inkişafında bir çox ölkələri geridə qoyan Böyük Britaniyanı. Bu ölkəyə təşkil edilən müxtəlif səviyyəli səfərlərdən xəbərimiz var. Bu cür təcrübəli ölkələrlə müqayisədə Türkiyə təcrübəsi nə dərəcədə qabaqcıldır?*

- Peşə təhsili sahəsində beynəlxalq əməkdaşlıq fəaliyyətimizdə prioritetlik təşkil edir. Cari il ərzində peşə təhsili müəssisələrinin rəhbər, mühəndis-pedaqoji heyətinin iştirakı ilə Böyük Britaniyadan əlavə, Koreya, Serbiya, Bosniya Herseqovinaya təlim səfərləri təşkil olunub və davam etdirilir. Türkiyə təcrübəsində də kifayət qədər qabaqcıl nümunələr var. Düşünürük ki, bu təcrübə bizim peşə təhsili sahəsində çalışanlar üçün yeni və maraqlıdır. Məsələn, ölkəmizdə inkişaf edən turizm sektorunda, kənd təsərrüfatı sahəsində çalışacaq ixtisaslı kadr hazırlığında Türkiyənin təcrübəsinin öyrənilməsində xüsusilə maraqlıyıq. Bu sahələr üzrə ixtisaslı kadrlara tələbat böyükdür. Türkiyənin də bu sahədə yaxşı mənada kifayət qədər təcrübəsinin olduğunu bilirik. Azərbaycandan olan mühəndis-pedaqoji heyət Türkiyədə bu təcrübəni artırmaq və bölüşmək imkanı qazandı.

*- Türkiyədə azərbaycanlı müəllimlərin təlimləri ilə əməkdaşlıq bitməyəcək. Bilmək istərdik ki, bu əməkdaşlıqdan gözləntiləriniz nədir?*

- Qeyd etdiyim kimi, Türkiyənin peşə təhsili sahəsində təcrübəsi bizim üçün çox maraqlıdır. Bu sahədə onların qət etdikləri məsafə və əldə etdikləri təcrübəni öyrənməyə dəyər. Əməkdaşlığın ölkəmizdə kadr potensialının gücləndirilməsinə öz töhfəsini verəcəyinə də şübhə etmirik. Təlimlər yekunlaşsa da, əməkdaşlığımız davam edəcək. Hazırda "Türkiyə-Azərbaycan" Peşə Protokolunun imzalanması istiqamətində işlər davam etdirilir. Protokolun imzalanmasından sonra əməkdaşlıq yeni perspektivlərdə inkişaf etdiriləcək. Həmçinin birgə əməkdaşlıq çərçivəsində Azərbaycanda ortaq peşə məktəbinin yaradılması layihəsi də nəzərdən keçirilir. Eyni zamanda, Türkiyədə olduğumuz müddətdə əməkdaşlığın davamı olacaq önəmli 5 imza da atdıq. Yəni, İzmirdə fəaliyyət göstərən ixtisaslaşmış 5 peşə liseyi ilə qardaş məktəb layihələrinin imzalanması həyata keçirildi. Hesab edirəm ki, bu, qarşılıqlı əməkdaşlıq çərçivəsində reallaşdırdığımız böyük yenilikdir.

*- Layihənin şərtləri nədən ibarətdir?*

- Əsas şərt qarşılıqlı təcrübə mübadiləsi, peşə təhsili sahəsində iş birliyi və əməkdaşlığın genişləndirilməsindən ibarətdir. Birgə təhsil proqramlarının hazırlanması və tətbiqi imkanları, müəllim və tələbə mübadiləsi, tədris materiallarının istifadəsi də layihədə nəzərdə tutulub. Təbii ki, bunlar ilkin addımlardır və gələcəkdə əməkdaşlıqda yeni yanaşmalar istisna deyil.

*- Qardaşlaşan hansı peşə təhsili müəssisələrindən söhbət gedir? Bu layihənin reallaşdırılması bizə nə verəcək?*

- Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə Konak Alsancak Nevvar Salih İşgörən Mesleki və Texnik Anadolu Liseyi qardaşlaşdı. Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi Konak Çinarlı Mesleki və Texnik Anadolu Liseyi ilə birgə layihəyə başladı. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə Şəhid İdari Ateşe Çağlar Yücel Mesleki və Texnik Anadolu Liseyi də qarşılıqlı əməkdaşlığa başladı. Sənaye və Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi isə Mazhar Zorlu Mesleki və Texnik Anadolu Liseyi ilə əməkdaşlığını sıxlaşdıracaq. Nəhayət, imzalardan sonuncusu da İsmayıllı Peşə Təhsil Mərkəzi ilə Bornova Mesleki və Texnik Anadolu Liseyinin əməkdaşlığının əsasını qoydu.

*- Belə başa düşdüm, Türkiyə ilə əməkdaşlıqdan ən böyük gözlənti kadr potensialının gücləndirilməsidir. Bu istiqamətdə başqa planlar da varmı?*

- Təbii ki, əməkdaşlıq perspektivləri genişdir. Bu sahədə təcrübə mübadiləsi üstünlük təşkil edir. Eyni zamanda, qarşılıqlı müəllim, tələbə mübadiləsi də önəmlidir. Türkiyədə olarkən orada fəaliyyət göstərən ulu öndərimiz Heydər Əliyevin adını daşıyan peşə liseyində olduq. Azərbaycanın dəstəyi ilə tikilib istifadəyə verilən bu müəssisənin fəaliyyətinin ilk illərində ölkəmizdən 55 nəfərin orada təhsil alması təmin edilib. Müəssisənin maddi-texniki bazası, yataqxana şəraiti imkan verir ki, gələcəkdə tələbə mübadiləsi davam etdirilsin. Gələcək planlarımız içərisində bu ənənəni davam etdirmək də var. Düşünürük ki, Azərbaycanın maddi dəstəyi ilə istifadəyə verilən belə bir təhsil müəssisəsinin imkanlarından ən çox ehtiyac duyduğumuz sahələr üzrə kadr potensialının gücləndirilməsində mütləq yararlanmalıyıq. Yəqin ki, təlimlər zamanı əldə etdiyimiz təcrübə, bilik və bacarıqlar, razılaşmalar əməkdaşlığımızın daha da güclənməsinə və birgə uğurlu layihələrin reallaşdırılmasına təkan verəcək.



# Tələbələr və işçi heyət "SƏTƏM"ə dair məlumatlandırılıblar

## "Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi" mövzusunda tədbir

**Sifai SƏFƏROVA**

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində "Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi" mövzusunda cəmiyyətin hər bir üzvü üçün maraqlı, eyni zamanda insan sağlamlığının qorunmasına xidmət edə biləcək vacib amillərə həsr olunan tədbir keçirilib.

Müzakirələrdə iştirak edən tələbə və işçi heyəti beynəlxalq standartlar əsasında hazırlanmış "SƏTƏM" haqqında ümumi məlumatlandırma" ilə yaxından tanış olublar. İştirakçılar üçün maraq doğuran təlimin əsas qayəsi ondan ibarət idi ki, "SƏTƏM" sahəsində bütün işçilər və tələbələr iş yerlərində və təcrübə ərazisində təhlükəsizlik prinsiplərinə əməl edə bilsinlər. Onlar istər özlərinin, istərsə də ətrafdakıların daha az risklə üzləşməsi üçün təlqin olunan bilik və bacarıqlara yiyələnməklə maariflənmiş olsunlar və çalışdıqları, təhsil aldıqları, təcrübə keçdikləri ərazilərdə özlərinin və ətrafdakıların təhlükəsizliklərini sığortalasınlar. Ümumiyyətlə, bu tədbirin keçirilməsində əsas məqsəd hamını ayıq-sayıq olmağa, çalışdıqları, təhsil aldıqları, təcrübə keçdikləri ərazilərdə, yolda, küçədə və sair yerlərdə diqqətsizliyə yol verməməyə çağırmaq idi. Diskussiya şəraitində davam edən müzakirə zamanı iştirakçıları maraqlandıran bütün suallarda ətraflı izahat verilməklə cavablandırıldı.

Sonda həyatımızın bütün sahələrində təhlükəsizliyə əməl olunmasının vacibliyinə diqqət çəkərək vurğulandı ki, hər bir kəs fövqəladə hallar zamanı idarəetmə prinsiplərinə uyğun hərəkət etməli, "SƏTƏM"in əhəmiyyətini, "SƏTƏM" İdarəetmə Sisteminin elementlərini, beynəlxalq və yerli qanunvericiliyin tələblərini, işəgötürənin və işçilərin "SƏTƏM"ə dair öhdəliklərini bilməlidir. Belə olan halda heç kim nə öz həyatını təhlükə altına atar, nə də ətrafdakılara ziyan vura bilər.

Maraqlı keçən müzakirədə "SƏTƏM" məsləhətçisi Kamil Manaflı "Alışan və zəhərli qazlar", "Qazıntı təhlükəsizliyi", "Qapalı sahəyə giriş", "Hündürlükdə iş", "Təhlükəli maddələr və bioloji təhlükələr", "Təhlükələrə qarşı nəzarət tədbirlərinin görülməsi", "Sağlamlığa zərərli maddələrə nəzarət (COSHH & MSDS)", "Hadisə nədir və hadisənin növləri", "Hadisələrin araşdırılması və məruzə olunması", "Ətraf mühitin idarəetmə sistemi", "SƏTƏM mədəniyyəti", "Biliklərin və təlimin qiymətləndirilməsi" və sair mövzular barədə ətraflı məlumat verib.



## "Nəsimi ili"

Azərbaycan muğamının, çoxsaylı nemətlər arasında yüksək mövqeyini hər vaxt saxlayan, heç vaxt qiymətdən düşməyən təbii bala olduqca bənzəri var. Əlbəttə, təkcə həzinlikdən doğan şirinliyi ilə ruha dad verdiyinə görə yox, həm də bədii sözün şəhd-şirəsini canına çəkdiyi üçün. Tarixin dərin qatlarından üzü bəri sənədən-sənəyə, qərinədən-qərinəyə arı zəhmətsevərliyinə, arı fədakarlığına qadir ustad xanəndələr tərəfindən böyük bir missiya həyata keçirilib: Xaqani, Nizami, Məhsəti, Nəsimi, Xətai, Füzuli, Vaqif, Vidadi, Zakir, Nəbati, Natəvan, Seyid Əzim, Abbas Səhhət, Vahid, Səməd Vurğun, Şəhriyar, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə kimi şairlərin yaradıcılığında dönə-dönə aramalar aparılıb. Səsə rahat oturuşan, dinləyicinin ovqatına müsbət təsir göstərən, gücünə güc qatan şeirlər, xüsusən qəzəllər seçilib repertuarlara salınıb. Bu minvalla zövqdən-zövqə, yaddaşdan-yaddaşa fasiləsiz, ardı kəsilməyən musiqili-poeziyalı uzun yol gəlinib.

Zamandan-zamana həmin fenomenal sıraya yeni düşənlər də olub, oradan yoxa çıxanlar da. Poetik səviyyəsinin melodik tələblər qarşısında duruş gətirməsi sayəsində ön yerlərdə əbədi qərar tutan müəlliflərdən biridir Seyid Əli İmadəddin Nəsimi. Hərçənd, tərcümeyi-halına, özündən sonrakı ədəbi taleyinə nəzər yetirəndə görürük ki, o, bu sayğıya-şərafətə asanlıqla yetməyib...

# Anadilli fəlsəfi şeirin banisi

## Nəsimi, muğamlarımız və müasirlik

**Ruzə İBİŞOVA,**
*respublikanın Əməkdar artisti, AMEA-nın doktorantı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muğam Sənəti kafedrasının müəllimi*

XIV əsrin axırlarında bölgəmizdə hadisələrin gedişatı ürəkaçan deyildi. İranla Qafqazı növbəti şikarına çevirmək istəyən Əmir Teymur, təbiidir ki, Azərbaycanın işğalını da qara planına daxil etmişdi. Artıq Qəbələ şəhərini viran qoymuş, Əlincə qalasını mühasirəyə almış, Naxçıvanda tükürpədici qırğınlar törətmişdi. Səltənətinin də əvvəl-axır oxşar aqibətlə üzləşəcəyini yaxşı anlayan Şirvan hakimi Şeyx İbrahim onunla sülh müqaviləsi bağladı və bu yolla bir müddət dövlətinin əmin-amanlığını qoruya bildi. Həmin illərdə gənc Nəsimi hələ ki, üsyankar çağırışlardan, siyasətdən uzaq aşiqanə lirikası ilə insanları sehrinə salmaqda idi.

*Həsrət yaşı hər ləhzə qılır bənzimizi saz,*
*Bu pərdədə kim, nəsnə bizə olmadı dəmsaz.*
*Üşşaqmeyindən qılalı işrəti-Novruz,*
*Ta Rast gələ çəngi-hüseynidə sərəfraz.*

*Ya Çargahi lütf qıl, ey hüsnü-Büzürgü,*
*Küçik dəhənindən bizə, ey dilbəri-tənnaz.*

*Zəngulə sifət nalə qılam zar Segaha,*
*Çün əzmi-hicaz eyləyə məhbubi-xoşavaz.*

*Çün suzə gəlib, eşq sözün qılsa Nəsimi,*
*Şövqündən onun cuşə gələr Sədiyi-Şiraz.*

"Üşşaq"ı, "Novruz"u, "Rast"ı, "Çahargah"ı, "Büzürgü"nü, "Segah"ı belə heyranlıqla tərənnüm edirdisə, yəqin ki, "Könlümün şəhrini çün kim eylədi yəğmayi-eşq", "Firqətin dərdi, nigara, bağrımı qan eylədi" kimi qəzəlləri muğam üstündə məclislərdə oxunurdu da...

Amma şairin həyatının bu sakit, azadə, şux axarı çox az çəkdi. Çünki ehtimal edilən möcüzə baş vermədi: Əmir Teymurla Toxtamış xan nəinki toqquşub bir-birlərini zəiflətmədilər, əzmədilər, əksinə, qısa zaman kəsiyində - 1385-1399-cu illərdə hərəsi üç dəfə Azərbaycanı və ona qonşu dövlətləri qana bələdi, xarabalığa çevirdi. Gördüyü qorxunc səhnələr, eşitdiyi fəryadlar-nalələr iyirmi dörd-iyirmi beş yaşlı Nəsimini dəhşətə gətirdi. Ruhu, düşüncəsi, dünyaya baxışı tamamilə dəyişdi. 1394-cü ildə Bakıda Nəimi ilə görüşərək, o dövrdə yeganə nicat yolu sanılan hürufiliyə tapındı. Ustadının amansızcasına öldürülməsindən sonra təriqətin bayraqdarına çevrildi. Nəticədə isə qələmi nikbin gözəlləmələrdən soyudu, yazı tərzinə siyasi-fəlsəfi motivlər hakim kəsildi. Məsnəvilərinə, tərcibəndlərinə ictimai ab-hava hopdu. Yaradıcılığında dərvişlərin asan əzbərləyə, çevik yaya biləcəyi yığcam tuyuğlar, dördlüklər geniş yer aldı. Qəzəlləri də kövrəkləşməklə yanaşı kəskinləşdi, mübarizə elementləri ilə cilalandı:

*...Zalım oldun, zülm əkərsən yenə kəndi tarlana,*
*Zalımın zülmü şərindən tarlada üsyan bitər.*

*...Söhbət etmə, söhbət etmə, dəgmə hər nadan ilə,*
*Nadanın tərbiyəsindən həm yenə nadan bitər.*

Beləcə, nadanlıqdan xilası, kamilliyə qovuşmağı, özünüdərki xoşbəxtliyin qızıl açarı kimi zəmanəsinə, bizə, gələcəyə təqdim etdi.

Dəfələrlə məhbəsə salınan, illərcə qəriblik keçirən, didərginlik yaşayan, fiziki ömrü işgəncəli ölümlə sonuclanan bu əqidə şəhidinin elə əsərləri də özü kimi yetərincə qadağalar, məhrumiyyətlər görüb. Azərbaycan əruzunun əzəmətli nümayəndələrindən biri, anadilli fəlsəfi şeirin banisi olmasına rəğmən, qəzəlləri-qitələri muğamatın formalaşıb pərvəriş tapdığı saraylara əsrlər boyu yaxın buraxılmayıb. Musiqi ilə vəhdətdən kənar qalıb.

Yetmiş illik mövcudluğunun son iyirmi iki ilini çıxsaq, heç sovet dönəmində də dahi şairə münasibət tam səmimi deyildi. Bir yandan saflaşıb müdrikləşməklə Allahın bəyəndiyi dərəcəyə ucalmaq mənasında işlətdiyi "ənəlhəq" ifadəsi israrla ateizmə yönəldilərək "Mənəm Allah!" küfrünə yozulur, o biri yandan "Həqqin kəlamı məndədir, sanma məni həqdən iraq" kimi Yaradana itaət bildirən misrasının əsl şərhindən qaçılırdı.

Bir çox ədəbi simalar kimi, Nəsiminin də taleyinə gur işığın düşməsi ulu öndərin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin respublikaya ilk rəhbərliyi zamanı, 1973-cü ildə keçirilən 600 illik yubileyi zəminində şairin nüfuzu layiq olduğu həddə yüksəldi. Şəxsiyyəti, şeiriyyəti ədəbiyyatla paralel, kinoda, teatrda, rəssamlıqda, heykəltaraşlıqda əsas mövzuya döndü. O cümlədən, musiqiyə sirayət edib, bəstəkarların yaradıcılığında öz əksini tapdı. Haqqında vokal-xoreoqrafik poemalar, kantatalar, simfonik əsərlər yarandı, sözlərinə mahnılar, romanslar bəstələndi.

Milli ruhla bəşəri ruhu özündə birləşdirən sənət hər dövrdə, hər formasiyada aktual olur və vaxtdan-vaxta ictimai çəkisini artırır. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2019-cu ilin "Nəsimi ili" elan edilməsi barədə imzaladığı Sərəncamda bu hikmətli deyim şairə ünvanlanaraq onun 650 illiyinin keçirilməsini zəruriləşdirən səbəb kimi göstərilmişdir. "Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir...". İmzaladığı qərarlarda həmişə dövlətimizin mənafeyini önə çəkən ölkə başçımızın sözlərindən aydın görünür ki, bu yubiley təkcə görkəmli qələm sahibinə ehtiram naminə gündəmə gətirilməyib, eyni zamanda, praktiki məqsəd daşıyır. Aparılan islahatlarda, irimiqyaslı layihələrin gerçəkləşdirilməsində, işğal altındakı torpaqlarımızın geri qaytarılması uğrunda savaşda əsas qüvvə sayılan gənclərimiz Nəsiminin yaradıcılığından örnək kimi bəhrələnə bilərlər. Ən vacibi, mərdlik, dözüm, sədaqət əxz edərlər.

Sözün musiqi fonunda, şirin səs avazında daha yaxşı mənimsənildiyini nəzərə alsaq, bu işin keyfiyyəti həmin incəsənət sahəsində fəallıqdan da çox asılıdır. Təqdirə layiqdir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü, Heydər Əliyev Fondunun dəstəyi sayəsində müntəzəm olaraq keçirilən muğam müsabiqələrində Nəsimi poetikasına geniş yer verilir. Musiqi ixtisaslı orta məktəblərdə, liseylərdə, kolleclərdə, konservatoriyada, müəllim kimi fəaliyyət göstərdiyim Mədəniyyət və İncəsənət Universitetində şairin yaradıcılığı kifayət qədər əhatəli tədris edilir.

Nəsiminin qəzəlləri o qədər rəngarəngdir ki, aralarında muğamlarımızın hər birinə aid seçim aparmaq olur. Həm "Tələb eylə", "Degil", "Bitər", "Bəllidir" kimi, mübarizə əhvali-ruhiyyəli "Çahargah"a, "Rast"a, "Mahurhindi"yə, "Bayatı-Qacar"a, "Heyratı"ya münasib üsyan saçanları var, həm də "Etməgil", "Dönməzəm", "Xoşmudur", "Gerçək imiş" kimi, yanıqlı, amma vüsala ümidli "Segah"a, "Mirzə Hüseyn segahı"na, "Zabul segahı"na, "Orta segah"a uyğunları. Həm "Neylərəm ", "Qandasan" (Hardasan) kimi, nakam məhəbbəti tərənnüm edən "Bayatı-kürd"ə yaraşanları var, həm də "Mərhəba", "Verməzəm" kimi, nikbin ovqatlı "Şur"a yarayanları.

...Qərib bir yolçu qəmgin-qəmgin xəyala dalaraq üzü yoxuşa yol gedir. Yorulub taqətdən düşsə də, inadkarlıq göstərərək hərəkətlərinə-düşüncəsinə bir an ara vermir. Sanki yeriməsə düşünə bilməyəcəyindən, düşünməsə ayaqları tutulacağından qorxur. Budur, nəhayət, sonuncu aşırımdadır. Lakin onu keçərkən nədənsə sürətini birdən-birə yavaşıdır, hətta hərdən dayanıb nəfəs də dərir. Sakitliyinə, təmkininə səbəb nədir görəsən? Qarşıda işıqmı görüb? Ya sadəcə qisməti ilə razılaşıb?.. Təxminən belə bir melodik məzmuna malik "Bayatı-Şiraz" ən emosional muğamlarımızdandır. Bu cəhətinə görə qətiyyən ondan geri qalmayan Nəsimi lirikası ilə qoşalaşarkən, sözsüz ki, daha effektli olar. Şairin "Cananə mənim sevdiyimi can bilir ancaq, Könlüm diləyin dünyada canan bilir ancaq" mətləli, yaxud "Bəri gəl" rədifli, fəlsəfi çalarlarla zəngin aşiqanə qəzəllərindən istifadə etməklə, şöbədən-şöbəyə həmin obrazı dinləyicinin şüurunda canlandırmaq mümkündür. Təhlilimizi ikinci qəzəl üzərində qursaq, ilk beytlər muğamın "Bərdaşt"ına çeviklik, büsat, xoş ahəng gətirir:

*Susadım vəslinə, ey çeşməyi-heyvan, bəri gəl,*
*Yaxma hicrində məni bunca, gəl, ey can, bəri gəl.*

*Firqətin şərbəti acıdır ani içəməyəm,*
*Ey ləbin gül şəkəri dərdimə dərman, bəri gəl.*

*Aşiqin tamusi yarından iraq olduğudur,*
*Ey camalın irəmi rövzeyi-rizvan, bəri gəl.*

Növbəti şöbələrdə - "Mayeyi-Bayati-Şiraz" və "Nişibi-fəraz"da aramlı, ahəstə, tədricən qəmginliyə səmt götürən inkişafın şahidi oluruq:

*Ənbərin sünbül zülfün düşəli məndən iraq,*
*Qəti aşüftəyəm, ey zülfi pərişan, bəri gəl.*

*Könlümün həsrəti göz yaşına qərq etdi məni,*
*Bunca ağlatma məni, ey gülü-xəndan, bəri gəl.*

Beləcə, psixoloji eniş-yoxuş başlanır. "Nişibi-fəraz" duyğusal misralarla "Mayeyi-Bayatı-Şiraz"ı "Bayatı-İsfahan"a bağlayır:

*Kirpigin şövqi oxun bağrıma, ey can, vuralı,*
*Yürəyimdən gözümə hər dəm içər qan, bəri gəl.*

Ardınca gələn, daha gur səs, daha şaqraq zəngulə tələb edən şöbələr - "Zil Bayatı-Şiraz", "Xavəran" və "Hüzzal" mənaca hər cür yüksəkliyə boy verən Nəsimi beytləri ilə bitkinləşib sevimli, kövrək, həzin "Dilrüba"nı qarşılayırlar:

*Firqətin qəhri məni yaxdı, göyündürdü əzim,*
*Mədətin qandadır ey rəhmətü-rəhman, bəri gəl.*

*Aləmi tutdu bu gün hüsnü-rüxün dastanı,*
*Afərin, hüsnünə, ey fitneyi-dövran, bəri gəl.*

"Bayatı-Şiraz" muğamı çox təmkinli tərzdə tamamlanır. Şair möcüzəsinə bax ki, elə qəzəl də eyni məqamda atəşin xitablardan qurtulub, sakit məcraya toxtayır:

*Zülfü rüxsarını görməklik üçün leylü nahar,*
*Oxuram səbi məsani ilə Quran, bəri gəl.*

*Eyləmiş canını çün eşqə Nəsimi təslim,*
*Nə ziyan eylər ana qeyd ilə zindan, bəri gəl.*

Nəsimi şeiriyyəti zamansızdır. Dünənin çətin sınaqlarından zəfərlə çıxıb, bu günsə öyrənilib dillər əzbərinə çevrilir. Sabah yenə yaşayacaq və digər şairlərimizlə çiyin-çiyinə muğamlarımızı da minilliklərə doğru daşıyacaq...

# İmadəddin Nəsimi yaradıcılığı və mənəvi-əxlaqi dəyərlərimiz



**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Əməkdar müəllim*

Ədəbiyyat tariximizdə yeni və bənzərsiz poeziyası ilə özünə əbədiyyət qazanmış İmadəddin Nəsiminin yaradıcılığı zəngin və çoxcəhətlidir. Şairi bizdən uzaqlaşdıran 650 illik zaman onun sözünün qüdrəti qarşısında acizdir: Nəsiminin əsərlərini hər dəfə oxuduqca çağdaş oxucunu ovsunlayan poetik fikirlər onu müasirimizə çevirir, misraların arasından boylanan müdrik və nurlu siması gözlərimiz önündə canlanır, qəlbdən süzülüb gələn söz və ifadələr ruhumuzu oxşayır, beləliklə, Nəsimi yaşayır, yaşıdımız olaraq bizimlə danışır...

Ölməz şairimizin yaradıcılığına həsr etdiyimiz bu yazıda məqsəd onun şeirlərində bu gün də müasir yeniyetmə və gəncliyə, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan insanlara, o cümlədən valideynlərə gərəkli və faydalı olan nümunələrə diqqəti cəlb etmək, uşaqların mənəvi-əxlaqi cəhətdən formalaşmasına müsbət təsir edən fikirlərlə oxucularımızı tanış etməkdir. Nümunələr şairin "Lider" nəşriyyatında çap olunmuş ikicildlik əsərlərinin ikinci cildindən (Bakı, 2004) götürülmüşdür.

Lirik şeirlərində kamil insanı vəsf edən şair didaktik ruhlu qəzəllərində də öz əqidəsinə sadiq qalır. Ayrı-ayrı qəzəllərində, eləcə də beyt və təkmisralarda əsl insan olmağın yollarını göstərir, oxucusunu yüksək milli dəyərlərimiz əsasında tərbiyələndirməyə çalışır. Öz dövrünün oğlu kimi, müsəlman etiqadlı müdrik bir insan kimi möminlərə tövsiyə edir ki, qəlbən lətif və xeyirxah təbiətli ol, bağışlamağı və mərhəmət göstərməyi bacar, səxavətini əsirgəmə, Allahın buyurduğu kimi ibadət elə. Xoşbəxtlik və səadət içində yaşamaq üçün bunlar vacib əməllərdir:

*Əya, mömin, gər istərsən səadət,*
*Özünə peşə qıl daim se adət.*
*Əvvəl təbi-lətifü xülqi-niku,*
*İkinci həm kərəm, cudü səxavət.*
*Üçüncü, olma hərgiz bivüzu sən,*
*Yeri, həq buyruğun tut, qıl ibadət.*

Nəsiminin düşüncəsinə görə, üç xasiyyət var ki, ona sahib olan insanlar pak və rahat yaşayarlar: həya, ədəb, bir də qiyamət qorxusu. Bundan əlavə, daha üç hərəkət: kitab ("Quran") oxumaq, axar suya baxmaq, israfçılıq etmədən seyrə çıxmaq, qəm-qüssəni dağıtmaq üçün gəzmək də insana rahatlıq gətirər.

*Biri müshəf, biri axar su derlər,*
*Bu iki nəsnəyə baxsan kifayət.*
*Üçüncü, süni-həqdi hüsni-ziba,*
*Təsərrüfsüz təfərrüc qıl fərağət.*

Şair insanın həyatına qəmginlik və gərginlik gətirən səbəblərə də toxunur. Pis qonşu, bədxah yoldaş, yalan danışmaq, qeybət etmək, paxıllıq, ədavət, böhtan, şit və yersiz zarafat da insanı hörmətdən salan, onun özünə ziyan vuran xasiyyətlər kimi qeyd olunur. Şair oxucularını bunlardan uzaq olmağa çağırır:

*Yaman qonşu, yaman yoldaşi-bədxu,*
*Yaman övrət siyasətdir, siyasət.*
*Yəqin cənnət üzün görməz bir adəm*
*Ki, var canında anın üç əlamət:*
*Biri kəzzablıq, birisi qeybət,*
*Biri olmaq bəxil, əhli-ədavət.*
*Gəlir üç nəsnədən azari-mərdüm,*
*Var, etmə özünə anı sənaət.*
*Biri böhtan, biri kəcgəngəl etmək,*
*Biri küstaq olub, qılmaq zərafət.*

O adamlar xalqın hörmətini qazanır, camaatın gözündə ucalır ki, alicənablıq və mərdliyə adət etmişdir, xoş xasiyyət və gözəl əxlaq sahibidir. Belə insanlar kiməsə həqarətlə, alçaldıcı nəzərlə baxmır. Hər kim bu göstərilən nəsihətlərə əməl etsə, həyatı səadət içində keçər.

*Nəsimi, sən yəqin əhli-nəzərsən,*
*Bu üç nəsnəyi qıl kəndunə adət:*
*Biri lütfü kərəm, həm xülqi-niku,*
*Biri - heç kimsəyə baxma həqarət.*
*Bu sözlər xoş nəsihətdür bilənə,*
*Seadətdir, vəli eyni-səadət.*

Şair nəsihətamiz şeirlərində də müasirlərinin dünya malı uğrunda savaş və yürüşlərinə qarşı etiraz səsini qaldırır. Bəzi beyt və misralarda lovğalığı böyük bəla sayır, bu dünyanı "tozlu cahan" adlandırır və insanlara üz tutub ətəklərini onun tozuna bulaşdırmamağa çağırır. Bir sözlə, dünya malından dördəlli yapışanlar kordur. Tamah insanın vücudunda ən pis illət, qənaət isə ondan gələn bəlanı dəf etməyə qadir gözəl xasiyyətdir. Hər kim muradına yetmək istəyirsə, öz mənini uca tutmalıdır. Çünki mənliyini uca tutmayanın "qumaşı dəğəl çıxdığı" üçün təmiz mətahı olmaz. Odur ki, onun bazarından uzaq durmaq daha münasibdir:

*Həm təkəbbürlük adəm oğlunda*
*Ki, əzim ol bəlavü afətdir.*
*...Dünyada mülkə, mala sən aldanma, ey məlik*
*Kim, dünyanın mətahi bəğayət həqirdir.*
*Tozlu cahana silkin ətək kim, nəiminə*
*Hər bibəsər kim, oldu müqəyyəd əsirdir.*
*Mənlik satanın çünki dəğəl çıxdı qumaşı,*
*Var, ari mətah istə, bu bazara yapışma!*

Klassik ədəbiyyatımızda mərifət anlayışı geniş məna daşıyır. Buraya əxlaq, ləyaqət və mədəniyyətlə yanaşı, elm, savad, kamillik də daxildir. Nəsimi də insanda mərifəti üstün tutur, onu "xalis altun" adlandırır. Mərifətdən məhrum olanlar naqis vücudlardır ki, bunlara daim nöqsan gəlir. Kamil olmaq lazımdır ki, kamala nöqsan tuta bilməzlər:

*Mərifətdir xalis altun, sikkəsi fəzlü hünər,*
*Altunu tanı, zəğəldən ari dinar istəmə!*
*Naqis vücuda çün kim, nöqsan gəlir həmişə,*
*Cəhd eylə kamil ol kim, gəlməz kamala nöqsan.*

Nəfsə tabe olmaq nadanlıqdır, nadanlar gövhərin qədrini bilməzlər. Aldadıb gövhəri əllərindən alarlar. Nəfsini tanıyan, ona tabe olmayan insan Allahını tanıyar, hirs və həsəddən uzaq olar. Canını bunlardan qurtara bilənlər daim özünü azad hiss edərlər.

*Sən bu sərayi-fanidə istər isən eyni-bəqa,*
*Nəfsini əvvəl tanı kim, həqqi derisən tanıyam...*
*...Nəfsi-xəbisə uymaq nadanların işidir,*
*İşin nədir gör axır, fikr eylə, olma nadan.*
*...Hirsü həsəd sifatın tərk eylə, ayrıl andan,*
*Neçin kim, ol sifətdən nacidir ayrılan can.*

Nəsimi elmə yüksək qiymət verir, oxuduğuna əməl etməyənləri qınayır. Möminlərin elmi bu dünyada həccin, ibadətin, axirətdə behiştin qapısını onların üzünə açar. Cahilin dili alimin önündə lal olmalıdır. Mərifət əhli olmayan adam hansı mərifətdən danışa bilər? Əməli ilə elmi düz gəlməyənlər şairin kəskin ittihamı önündə aciz qalırlar:

*Bu elmi oxuyuban bilmədinsə kəndözünü,*
*İlət şu dəftərini tez bazarda bir pula sat!*
*... Söz bilə cahilin dili alim önündə lal ola,*
*Mərifəti nə söyləyə olmayan əhli-mərifət?*

Yaxşılıq etməyə çağıran şair bildirir ki, Allah yaxşılıqları əvəzsiz qoymur. İnsan etdiklərinin əvəzini görür və görəcəkdir. Nəhayətdə xeyir də, şər də əslinə qayıdır. Ona görə də ağıllı insan özünə xeyirxahlığı və yaxşılığı peşə etməli, yamanlıq və pisliklərdən uzaq olmalıdır. Hətta yamanlarla da yaxşı rəftar etmək yaxşıdır:

*Yaxşılıq eylə sən, sənə yaxşılıq eyləyə xuda,*
*Aqibət əslinə qılır xeyr ilə şər müraciət.*

Nəsimi buraya qədər qeyd etdiklərinə sanki özü aşağıdakı beytlə yekun vurur: Yaxşı tərbiyə, doğruçuluq və dürüstlük, yüksək mərifət kəsb etmiş adamlar hörmətə layiqdir:

*Əmali-saleh, mərifət elmi-lüdəndir kəsb edən,*
*Biməriфət adam haman əhməq gedər,*
*hümqan gəlir.*

Nəsiminin nəsihətamiz fikirləri milli dəyərlərimizin ifadəsidir. Digər əsərlərinin dili ilə müqayisədə belə misra və beytlərdə dil sadəliyi, xalq dilinə yaxınlıq daha aydın görünür:

*Bir şaha sən qulluq eylə, söhbətindən can bitər,*
*Bir sədəfdən çaşnı dadgil, dürr ilə mərcan bitər.*
*Söhbət etmə, söhbət etmə dəgmə hər nadan ilə,*
*Nadanın tərbiyətindən həm yenə nadan bitər.*
*Qafil olma əhli-dillər söhbətindən bir zaman,*
*Əhli-dillər söhbətindən şöleyi-iman bitər...*
*Ol əli kəsgil, buraxgil, xeyri yoxdur, şərri çox,*
*Dutgil imdi ol əli kim, xeyr ilə ehsan bitər.*
*Zalım oldun, zülm əkərsən yenə kəndi tarlana,*
*Zalımın zülmü şərindən tarlada üsyan bitər.*

Ulu şairimizin irsində qiymətli fikirlərin bir qisminə diqqəti cəlb etməklə bədii sözünün qüdrəti ilə əbədiyyət qazanmış şairimizə 650 ildən sonra məhəbbətimizi və vətəndaşlıq ehtiramımızı ifadə etmək istədik.




# Kodlaşdırma bacarıqlarının kiçikyaşlı şagirdlərə öyrədilməsi

## Layihə gələcəyin memarlarının hazırlanmasına hədəflənib

Səadət MƏMMƏDOVA,
*Sumqayıt şəhər 4 nömrəli tam orta məktəbin direktoru*

Scratch proqramlaşdırma dilinin yaradıcılarından biri Miç Resnik kodlaşdırmanın məktəblərdə öyrədilməsinin vacibliyinin səbəbləri barədə danışdı. Və səbəblər heç də sizin gözlədikləriniz deyil. Otuz ildən çoxdur ki, Miç Resnik təhsil texnologiyaları və innovativ öyrənmə modellərini dərindən araşdırmaqla məşğuldur. Hazırda Massaçusets Texnologiya İnstitutunun professoru olan Resnik şagirdyönümlü təhsilin, birgə aparılan (kooperativ) təhsil mühitinin və kodlaşdırmanın savadlılığın (oxumaq və yazmaq) göstəricisinə çevrilməsi fikrinin qatı tərəfdarıdır. Onun "Ömürboyubağça: layihələr, oyunlar, sinif yoldaşları və həvəs vasitəsilə yaradıcılığın (kreativliyin) aşılanması" adlı yeni kitabı bizim indiki təhsil vəziyyətimizə baxışı əks etdirir. Resnik iddia edir ki, "gələcəkdə indiki məktəb şagirdlərinin üçdə ikisi hələ ixtira olunmamış peşələrdə işləyəcək". Bunu deyərkən o, yeni yaranan sahələrə - süni intellektə, özünü idarə edən maşınlara və "ağıllı" evlərə işarə edir. Bəs, biz şagirdləri bu sahələrdə uğurla fəaliyyət göstərməyə necə hazırlayaq?

### Kodlaşdırmanı niyə öyrənməliyik?

Biz də məsələnin aktuallığını nəzərə alaraq 2018-2019-cu tədris ilində Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində "Kodlaşdırma bacarıqlarının kiçikyaşlı uşaqlara öyrədilməsi" mövzusunda layihə ilə iştirak edərək qalib olduq. Bu layihəmiz Sumqayıt şəhərində gələcəyin memarlarının hazırlanmasına hədəflənmişdir.

"Biz, ümumiyyətlə, kodlaşdırmanı niyə öyrənməliyik?". Bu suala bir çoxlarının cavabı o olur ki, kodlaşdırmanı tədris etməklə biz şagirdlərin kompüter proqramçısı və kompüter üzrə mütəxəssis kimi peşələrə axın etməsinə nail oluruq. Sözsüz, onlar haqlıdırlar ki, adıçəkilən sahələrdə iş imkanları sürətlə artır, lakin bu, hər kəsin kodlaşdırmanı öyrənməsi üçün yetərli səbəb deyil.

Çox az adam böyüyüb yazıçı olur, lakin biz yazı yazmağı hamıya öyrədirik, çünki yazmaq düşüncələr və fikirləri sistemləşdirməyin və digərləri ilə ünsiyyət yaratmağın bir yoludur. Düşünürəm ki, kodlaşdırmanı öyrənməyin səbəbləri də yazmağı öyrənməyin səbəbləri ilə eynidir. Yazmağı öyrənəndə biz sistemləşdirməyi, özümüzü ifadə etməyi və fikirlərimizi yeni üsullarla və yeni vasitə ilə paylaşmağı öyrənirik.

Hazırladığımız layihənin əsas məqsədi Sumqayıt şəhər məktəblərinin kodlaşdırma istiqamətində xüsusi biliklərinin təkmilləşdirilməsi, informasiyalaşdırılma prosesinin elmi təminatının və informasiya texnologiyalarına əsaslanan müasir təlim üsullarının hazırlanması, informatika fənninin kiçikyaşlı şagirdlərə yeni bir formada, tədris prosesində düzgün və effektiv öyrədilməsinə nail olmaqdır. Avqustun 20-dən start götürən layihə bu ilin dekabrın 20-də yekunlaşacaqdır. Artıq layihənin geniş təqdimatı keçirilib və şəhərin təhsil ictimaiyyəti, şagird və valideynlər bununla bağlı ətraflı məlumatlandırılıblar.

### Məktəbin bazasında mərkəz

Layihə çərçivəsində Sumqayıt şəhər 4 nömrəli tam orta məktəbin bazasında Gələcəyə Təməl və İnnovasiyalar Mərkəzi yaradılacaqdır. Həmin mərkəzdə Sumqayıt şəhər məktəblərində çalışan informatika müəllimlərinin və şagirdlərin proqramlaşdırma sahəsi üzrə alqoritmik bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində mütəmadi olaraq işlərin görülməsi nəzərdə tutulur. Adıçəkilən mərkəzdə 5 ay ərzində layihə boyunca peşəkar təlimçilər tərəfindən mentor müəllim və şagirdlərin hazırlanması həyata keçiriləcəkdir. Təlimlər "Mars Academy" şirkətinin peşəkar mütəxəssisləri tərəfindən aparılacaqdır.

### Metodiki vəsaitin hazırlanması

Bundan başqa, kodlaşdırma metodiki vəsaitinin hazırlanması nəzərdə tutulur. Həmin təlim vəsaitində kodlaşdırma və proqramlaşdırma sahəsində ən vacib biliklər öz əksini tapacaq. Düşünürük ki, bu kitab Azərbaycan təhsil sistemində kodlaşdırılma biliklərinin öyrənilməsi baxımından həm müəllim, həm də şagirdlər üçün çox yaxşı bir təlim vəsaiti olacaqdır. Layihə zamanı informasiya texnologiyaları (İT) sistemləri və rəqəmsal bacarıqların öyrədilməsi üzrə proqramlar hazırlayan STEP İT Academy, Sumqayıt Şəhər Təhsil Şöbəsi, Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, "Alqoritmika Azərbaycan MMC", "Edumedia Azərbaycan", bu sahədə fəaliyyət göstərən QHT-lər və layihənin PR xidmətlərini həyata keçirəcək Təhsil TV, QHT TV ilə də yaxından əməkdaşlıq qurulacaq. Bu əməkdaşlığın sayəsində şagird və müəllimlər üçün mütəmadi olaraq onlayn təlimlər də həyata keçiriləcək.

Layihədən əsas gözləntilərimiz informatika fənninin tədrisinin təkmilləşdirilməsi ilə şagirdlərin kompüter savadlılığının yüksəldilməsi, onların yüksək texnoloji ixtisaslara marağının artırılmasına nail olmaqdır.

Proqramlaşdırma sahəsində ixtisaslı kadr hazırlığına diqqətin artırılması həmin sahədə ölkəmizin beynəlxalq miqyasda rəqabətədavamlılıq əmsalını artıracaq. Bu baxımdan, inkişaf etmiş ölkələrin məktəb proqramlarının əsas trendi hesab olunan təhsilalanlara rəqəmsal bacarıqların öyrədilməsi zərurəti ölkəmizin ümumtəhsil şəbəkəsi üçün də mühüm əhəmiyyət kəsb edir.

Ümid edirik ki, layihə çərçivəsində görülən və görüləcək işlər şagirdlərin informatika olimpiadalarında da mövcud kodlaşdırma çətinliyini həll etmiş olacaq, eyni zamanda müəllimlərin bu sahədə mövcud bilikləri daha da təkmilləşəcəkdir.

# Paytaxt məktəblilərinin növbəti uğuru

## *Akademik Zərifə Əliyeva adına liseyin 2 şagirdi "MDB üçün 100 ideya" beynəlxalq gənclər layihəsinin qalibi olub*

Sifai SƏFƏROVA

Bu günlərdə "Baku Crystall Hall"un Media Mərkəzində "MDB üçün 100 ideya" beynəlxalq gənclər layihəsinin müsabiqəsinə yekun vurulub və qaliblərin mükafatlandırılması mərasimi keçirilib.Müsabiqəni Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Gənclərlə İş üzrə Şurası təşkil edib. MDB-yə üzv dövlətlərdən 30-dan çox gəncin elm, texnika və digər sahələr üzrə layihələri bu müsabiqədə nümayiş etdirilib. Sərgi-müsabiqənin məqsədi MDB-yə üzv ölkələrin gənclərinin sosial-iqtisadi əhəmiyyətli innovativ fəaliyyətlərinin dəstəklənməsi, elmi-texniki yaradıcılığa sövq edilməsi və gənclərin beynəlxalq əməkdaşlığının genişləndirilməsi idi. Müxtəlif nominasiyalar üzrə elan olunan qaliblər sırasında Azərbaycanı təmsil edən iki gəncimiz - Ələsgər Tarverdiyev və Cəmilə Əlizadə də olub. Həmin gənclərlə görüşüb bu müsabiqənin onlara yaşatdığı həyəcanlı və sevincli anları bizimlə də bölüşməyi xahiş etdik.

### "Qalib kimi yaşadığım hissləri təsvir etmək çətindir"



*Ələsgər Tarverdiyev:* Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi: Mən 2003-cü ildə Bakı şəhərində anadan olsam da 12 il Ukraynanın Xarkov şəhərində yaşamışam. Xarkovda yaşadığım müddətdə "Kenquru", "Soneçko", "Zolotıy leleka" və s. müsabiqələrdə yer tutmuşam. 2016-cı ildə Azərbaycana qayıtmışam. 7-ci və 8-ci sinifləri Bakıdakı 139 nömrəli tam orta məktəbdə oxumuşam, sonra isə 2018-ci ildə orta təhsilimi imtahan verməklə akademik Zərifə Əliyeva adına liseydə davam etdirməyə başlamışam.

"MDB üçün 100 ideya" layihəsindən öncə də biz bu il "Avrasiya patent universiadası" musabiqəsinə komanda yoldaşımla Cəmilə Əlizadə ilə qatılmışdıq. 7 ölkə nümayəndəsinin iştirak etdiyi müsabiqədə biz qalib gəldik, baxmayaraq ki, ölkəmiz bu layihədə birinci dəfə iştirak edirdi. Mənim üçün düşərli olan bu il Neft və Kimya Prosesləri İnstitutunun keçirdiyi "Mən XXI əsrdə Y.Məmmədəliyevin davamçısı olmaq istəyirəm" müsabiqəsinə də qatıldım və III yeri tutdum. Bu layihəmizin adı isə "Su anbarlarının suyunun təmizlənməsi üçün bioplatonun tətbiqi" idi. Elmi rəhbərimizsə biologiya müəllimimiz Natalya Qurbanova idi. O və sinif rəhbərimiz İradə Səmədova həmişə bizə dəstək olublar, biz isə onların ümidlərini həvəslə doğrultmuşuq.

"MDB üçün 100 ideya" müsabiqəsi isə 14-15 noyabr tarixlərində keçirildi. Biz öz layihəmizi təqdim etmək üçün "Kristal Hall"a getdik. Həmin gün hər ikimizi başqa ölkələrin nümayəndələri və onların layihələri ilə tanış etdilər. Qeyd edim ki, müsabiqəyə qatılanlar arasında məktəbli yaşında olanlar ancaq Azərbaycan təmsilçiləri idilər, yəni mən və Cəmilə Əlizadə. Digər ölkələrin nümayəndələri isə aspirantlar, dosentlər, elmlər namizədləri, şirkət sahibləri idilər. Gənclər və idman naziri Azad Rəhimov da layihəmizlə tanış oldu və bizə uğurlar dilədi. Ertəsi gün bütün iştirakçılar öz projelərini münsiflər heyətinə təqdim etdilər. Sonra təntənəli tədbir keçirildi. Tədbirdə tanınmış şəxsiyyətlər və hökumət nümayəndələri iştirak edirdilər və müsabiqə barədə öz fikirlərini bizimlə bölüşdülər. Mükafatlandırma mərasimi zamanı olduqca həyəcanlı idim. Qalib kimi yaşadığım hissləri təsvir etmək mümkün deyil. "Rusiya Gənclər və Uşaq Assosiasiyaları Milli Şurası" İctimai Birliyin sədri Qriqori Valeryeviç Petuşkov qalib diplomlarını bizə təqdim etdi. Sevincimizin hədd-hüdudu yox idi...

### "Bu qələbə tək bizim deyil"

*Cəmilə Əlizadə:* 23 aprel 2004-cü ildə Bakıda ziyalı ailəsində anadan olmuşam. Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdiyəm. Gələcəkdə həkim olmaq arzusundayam. Xaraktercə sakit və təmkinliyəm. Çoxlu rəfiqəm var. Texniki və təbiət elmlərini çox sevirəm. Araşdırmaya, tədqiqata meyilliyəm. Liseydə "Kiçik Akademiya" fəaliyyət göstərir. Burada layihə əsaslı təhsilə böyük önəm verilir. Biz tez-tez öz layihələrimizlə mötəbər yarışlara qatılır və qalib oluruq. Artıq biz buna, necə deyərlər, adət etmişik. Bu il "Su anbarlarının suyunun təmizlənməsi üçün bioplatonun tətbiqi" layihəsində Ələsgər Tarverdiyevlə birlikdə iştirak etdik və qalib də olduq. Elmi rəhbərimiz liseyin biologiya müəllimi Natalya Qurbanova idi. Layihənin mövzusu aktualdır. Məlumdur ki, yer kürəsində içməli suyun çatışmazlığı ən böyük problemlərdən biridir. Layihənin əsas məqsədi su anbarlarının istismar dövrünün artırılmasıdır. Bunun üçünsə əsas məsələ hələ su anbarına daxil olmamış suyun çöküntülərdən, toksik maddələrdən fitoekstraksiya yolu ilə təmizlənməsidir. Layihəmiz qalib olduğuna görə çox xoşbəxtik, çox sevinirik. Bu, bizim üçün gözlənilməz oldu. Biz çox qürur hissi duyuruq ki, "MDB üçün 100 ideya" beynəlxalq gənclər layihəsinin müsabiqəsində də qalib olduq. Bu qələbə tək bizim deyil, bütün Azərbay-



canın uğurudur. Müsabiqədə MDB-yə üzv dövlətlərdən 30-dan çox elm, texnika və digər sahələr üzrə layihələr nümayiş etdirildi. Təəccüblü olsa da biz bu müsabiqədə iştirak edən insanların arasında ən kiçik yaş qrupuna aid idik, başqa dövlətlərin nümayəndələri arasında hətta elmi dərəcələri olanlar da var idi. Amma nə olsun? Qalib ki, biz olduq! Qalib Azərbaycan oldu. Bunun bizə yaşatdığı sevinc hisslərinin misli olarmı? Biz doğma vətənimiz Azərbaycanımızla fəxr edirik və qürur duyuruq!

Gələcəkdə isə öz elmi fəaliyyətimizi ətraf mühitin mühafizəsi istiqamətində davam etdirməkdə israrlıyıq. Vətənimizə, xalqımıza bunu ən layiqli xidmət sayırıq.

# "İKT-İRS" layihəsi gənc nəsli öz tarixi keçmişi ilə tanış edir

Rəşad ZİYADOV

Noyabrın 15-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsildə İnkişaf və İnnovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi olmuş 39 nömrəli tam orta məktəbdə "İKT-İRS" layihəsinin açılış mərasimi keçirilib. Tədbirin proqramına uyğun olaraq əvvəlcə qonaqlara Azərbaycan və rus bölmələrində 4 "c" Gülşən Tağıyevanın və 4 "ç" Aytən Rəfiyevanın siniflərində "Balıq əhvalatı" və "Ailəsini sevməyən vətənini sevməz" adlı "açıq dərs"ləri təqdim olunub. "Açıq dərs"lərdə "İKT-İRS" layihəsi əsasında hazırlanmış, məşhur Azərbaycan xeyriyyəçisi Haci Zeynalabdin Tağıyevin həyatından real epizodu əks etdirən "Balıq əhvalatı" nağılı Azərbaycan və rus dillərində sinifdənxaric oxu materialı kimi təqdim edilib.

Sonra akt zalında keçirilən tədbiri məktəbin direktoru və layihənin rəhbəri Tahirə Şükürova açaraq layihə haqqında hesabat xarakterli çıxış edib, Azərbaycan Respublikası Təhsil Nazirliyinə bu layihənin həyata keçirilməsində göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib. Bildirib ki, məktəb olaraq "İKT-İRS" lahiyəsini seçməkdə əsas məqsəd inkişafda olan gənc nəslin öz tarixi keçmiş irsi ilə yaxından tanış olması və eyni zamanda yeni texnologiyaların öyrənilməsində onların yaxından iştirakını təmin etmək olub. T.Şükürova vurğulayıb ki, ölkənin təhsil sahəsinin inkişafı daim möhtərəm Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Onun təşəbbüsü ilə bütün sahələrdə başlanan islahatlar təhsildə də özünü daha qabarıq göstərməkdədir: "Məhz bu dərs ilində məktəbimizin əsaslı şəkildə təmir olunub, müasir avadanlıqlarla təmin edilməsi bizə bu layihə üzərində daha da səylə işləməyə stimul verdi. Bizə bu şəraiti yaratdığına görə ölkə Prezidenti İlham Əliyevə öz adımdan və kollektiv adından təşəkkürümüzü bildiririk".



Tədbir iştirakçıları kiçik məktəblilərin ifasında "İlmə" mahnısını dinlədikdən sonra söz "İRS Mədəni Təhsil Mərkəzi"nin rəhbəri, uşaq yazarı, professor Solmaz Amanovaya verilib. O öz çıxışında qeyd edib ki, dövləti, Vətəni sevdirməyin yolu məhz təhsildən keçir. Xüsusilə dünyanın bir çox ölkələrində yaşayan həmvətənlərimizin, eləcə də şagirdlərin öz tarixi irsimizi öyrənməsində layihənin böyük rolu olduğu vurğulanıb.

Tədbirin sonunda qonaqlar məktəbin foyesində təşkil olunmuş Azərbycanın milli-mənəvi dəyərlərini əks etdirən sərgi ilə tanış oldular.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd təhsil müəssisələrində və təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaqdan ibarətdir. Müsabiqə təhsilin idarəedilməsi, istedadlı uşaqların aşkar olunması və dəstəklənməsi üçün yaradıcı mühitin inkişaf etdirilməsi, keyfiyyətin idarə edilməsində müasir qiymətləndirmə vasitələrinin tətbiq olunması, təkmil forma və məzmunda metodik xidmət sisteminin yaradılması, sağlamlıq imkanları məhdud uşaqların təhsil alması üçün xüsusi imkanların və şəraitin yaradılması, informasiya-kommunikasiya texnologiyalarının təhsilə tətbiqinin təbliğ edilməsi mövzularında keçirilib.




## "Uşaq hüquqları aylığı"

Biləsuvar rayon ümumtəhsil məktəblərində "Uşaq hüquqları aylığı" ilə əlaqədar silsilə tədbirlər keçirilib. Aylıq çərçivəsində uşaq hüquqları mövzusunda maarifləndirici tədbir, "dəyirmi masa", seminar, müsabiqə və sərgilər təşkil olunub.

"Uşaq hüquqları aylığı"nın təşkil olunmasının əsas məqsədi BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının ildönümü, 20 noyabr-Ümumdünya Uşaqlar Günü ərəfəsində uşaqlara diqqətin daha da artırılması və uşaq hüquqlarının qorunması işinin yaxşılaşdırılmasından ibarətdir.

Şəhər 1, 4 nömrəli tam orta məktəb , Zəhmətabad ümumi orta məktəb, İsmətli kənd tam orta məktəb, Xırmandalı kənd 1 nömrəli tam orta məktəblərində keçirilmiş tədbirlərdə şagirdlərə uşaq hüquqlarının yaranma tarixi, milli və beynəlxalq qanunvericilik, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumatlar verilib. Qeyd edilib ki, BMT-nin Uşaq Hüquqları Konvensiyasının icrasının təmin edilməsi istiqamətində respublikamızda bir sıra tədbirlər həyata keçirilib.

Tədbirdə çıxış edənlər "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda əhalinin müxtəlif qruplarının, o cümlədən də uşaq hüquqlarının müdafiəsi ilə bağlı təsbit olunan müddəaların uğurla həyata keçirildiyini şagirdlərin diqqətinə çatdırıblar.

**Arzu HÜSEYNOVA,**
*Biləsuvar Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Ölkəmizi tanıyaq"

Göygöl rayon ümumtəhsil məktəblərinin şagirdlərindən ibarət qrup "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində maarifləndirici tur-aksiyaya qoşulublar.

Göygöl rayon Heydər Əliyev Mərkəzinin qarşısında şəhər rəhbərliyinin, təhsil işçilərinin və valideynlərin iştirakı ilə tur-aksiya iştirakçılarının, eləcə də onları müşayiət edən qrup rəhbərləri və müəllimlərin Quba-Qusar-Xaçmaz istiqaməti üzrə yolasalma mərasimi keçirilib.

Məktəblilər 3 gün ərzində Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib, Quba xalçaçılıq emalatxanası, Cümə məscidi, Tağlı körpü, Qusar şəhərinin görməli yerlərini gəzib, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olublar. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, Xalça muzeyinə ekskursiya ediblər.

Aksiyanın əsas məqsədi gələcək nəslə ölkəmizin tarixi irsini, mədəniyyətini, milli adət-ənənələrini, vətənpərvərlik ruhunu aşılamaq, müstəqillik illərində əldə olunmuş nailiyyətlərimizi dərindən öyrətmək, onların dünyagörüşünün daha da zənginləşdirilməsindən ibarətdir.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## UTECA-nın nümayəndə heyəti Vilnüsdə təlimdə

Azərbaycan Texnologiya Universitetinin nümayəndə heyəti növbəti dəfə Litvada təlimdə iştirak edir.

Avropa Komissiyası tərəfindən maliyyələşən Erasmus+EQAC layihəsi çərçivəsində Litvanın paytaxtı Vilnüs şəhərində təşkil edilən təlimlərdə UTECA-nı universitetin Keyfiyyətin təminatı şöbəsinin müdiri Asiman İlyasov, Elm və xarici əlaqələr mərkəzinin direktoru Orxan Vətənxah təmsil edir.

Təlimlərdə avropalı təhsil ekspertləri ilə birlikdə Keyfiyyətin təminatı üçün istifadə olunan QPR Graphics Design və QPR Metrics proqram təminatları barədə müzakirələr aparılır. Hər universitet nümayəndələri təmsil etdikləri ali təhsil müəssisəsinin timsalında sözügedən proqram təminatının köməyi ilə iyerarxik strukturunu quraraq vəzifə təlimatlarını daxil edirlər.

## "Əhməd bəy Ağaoğlu haqqında nə bilirik?"

Ağstafa Rayon Təhsil Şöbəsinin ümumi təhsil müəssisələrində "Əhməd bəy Ağaoğlu haqqında nə bilirik?" mövzusunda silsilə tədbirlər, "dəyirmi masa"lar keçirilib.

Tədbirlərin keçirilməsində məqsəd şagirdləri milli-vətənpərvərlik ruhunda tərbiyə etməkdir.

Çıxış edənlər bildiriblər ki, Əhməd bəy daim milli mübarizə hərəkatının önündə olub. Onun bütün yazılarında, ideologiyasında sülh, əmin-amanlıq məfhumları xüsusi yer tuturdu. O, əsərlərində insan azadlığını, qanunun aliliyini vacib sayırdı. Əhməd bəyə qarşı aparılan kampaniyalar onun əzmini qıra bilmədi. Ömrü boyu xalqımız üçün yazdı, yaratdı.

Tədbirlərdə böyük mütəfəkkirin həyat və fəaliyyətindən, apardığı milli mücadilənin müxtəlif istiqamətlərindən, onun bir alim, hüquqşünas, millət fədaisi olmasından geniş danışılıb. Qeyd edilib ki, Əhməd bəy Ağaoğlu milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınıb.

Sonda Əhməd bəy Ağaoğlunun ömür yoluna işıq salan, böyük şəxsiyyətin keşməkeşli və qürur dolu həyat və fəaliyyətindən geniş bəhs olunan "Millət fədaisi" adlı sənədli film nümayiş etdirilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Müəllim uşaqları, Vətənini sevməklə nümunə olmalıdır"

## *Gülbəniz İsrafilova:* "Pedaqoji fəaliyyətim dövründə uğurlarımın sayı çox olub"



**Gülbəniz İsrafilova 1966-cı ildə Şəki şəhərində anadan olub. 1988-ci ildə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirdikdən sonra həmin il Şəki şəhər M.Füzuli adına 3 nömrəli tam orta məktəbdə riyaziyyat-informatika müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. Pedaqoji fəaliyyəti müddətində olimpiadalara hazırladığı şagirdlər yüksək nəticələr göstərib. Dərs dediyi şagirdlərin əksəriyyəti ölkənin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunub. Onların arasında Gülbəniz müəllimin ixtisasını seçənlər də var.**

*- Gülbəniz xanım, müəllimlik peşəsini necə oldu ki, seçdiniz?*

- Mənim uşaqlara və daim öyrənib-öyrətməyə olan məhəbbətim riyaziyyat müəllimi olmağıma əsas səbəb hesab edilə bilər. Hələ orta məktəbdə oxuyanda bəxtimdən bizə nəinki məktəbimizin, hətta rayonumuzun adlı-sanlı müəllimləri dərs deyirdilər ki, onların şəxsi nümunələri, heç şübhəsiz ki, mənim peşə seçimimdə həlledici rol oynamaya bilməzdi. Həmişə ən yaxşı müəllimlərimə bənzəməyə çalışırdım.

*- Bu gün peşə seçiminizdən razısınızmı?*

- Bəli, seçimimdən bu gün razıyam, özü də lap çox. Hər şeydən əvvəl düşünüb-daşınıb bu addımı atmışam. Görəndə ki, şagirdlərim məni sevir, seçimimdən razı qalıb, daha da sevinirəm. Ölkəmizdə də müəllim nüfuzunun yüksəlməsi istiqamətində görülən sanballı işlərin səmərəsi müntəzəm olaraq artır, bu da müəllimin fəaliyyətində əlavə və daha etibarlı stimul yaradır. Hər il daha çox sayda istedadlı gənclərin müəllimlərin sırasında yer alması nikbinliyi artıran amillərin sırasında əhəmiyyətli yer tutur.

*- Şagirdlərə tövsiyəniz nə ola bilər?*

- Şagirdlərə tövsiyə edərdim ki, qədim Çin atalar sözünü həmişə yadda saxlasınlar: "Gündən-günə artmayan bilik gündən-günə azalar." Hər bir gənc gələcəkdə özü, ailəsi və ölkəsi üçün dəyərli vətəndaş olmağa borcludur. Buna isə məhz məktəb partası arxasında, məktəbdə hazırlaşmaq lazımdır. Gənclərimiz bütün elm sahələri üzrə əsaslı və dərin biliyə malik olmalı, bütün həyatları boyu müstəqil öyrənmək vərdişlərini qazanmalıdırlar.

*- Sizin uğur formulunuz nədir?*

- Mənim uğur fəlsəfəm rus filosofu Belinski demişkən: "İrəli getməyən geriyə getməlidir, dayanıqlıq vəziyyəti mümkün deyildir". Həmişə yeniliyə can atmaq, səhvlərdən ruhdan düşməmək, əksinə, daha sağlam nəticə çıxarmaq, özünə və ətrafdakılara qarşı tələbkar olmaq lazımdır.

*- Artıq 32 ildir ki, müəllim vəzifəsində çalışırsınız. İşlədiyiniz məktəb haqqında nə deyə bilərsiniz?*

- Mən 1988-ci ildən həmin kollektivdə işləyirəm. Kollektivlə aramızda yaranan və hər an artıb inkişaf etməkdə olan qarşılıqlı hörmət və məhəbbət, eləcə də elmi, pedaqoji-metodiki əməkdaşlıq uğurlarımın rəhnidir. Kollektivimizdə yüksək peşəkarlığı, şəxsi və iş keyfiyyətləri ilə bütün rayonda tanınan müəllimlərimiz də az deyil.

*- Əgər müəllim olmasaydınız?*

- Müəllim olmaya bilməzdim. Uşaqlara öyrənib-öyrətməyə olan məhəbbətim, riyaziyyatı çox dərindən sevməyim başqa variantları qeyri-mümkün edir. Cəmiyyət özünün ən böyük sərvətini məhz müəllimlərə etibar etmişdir. Bunu da məsuliyyətlə qiymətləndirməyə borcluyuq.

*- Son illərdə məktəblərimizdə gənc müəllimlərin sayı artmaqdadır. Bu, təcrübəli müəllim kimi sizi sevindirməyə bilməz...*

- Bu, təhsil sahəsində aparılan islahatların nəticəsi kimi qiymətləndirilməlidir. Pedaqoji kollektivlərimizdə istedadlı gənc müəllimlərin sayının getdikcə artması nikbinlik yaradan amillərdən biridir.

*- Öz uğurlarınız barədə, yəqin ki, deyiləcək sözünüz çoxdur...*

- Pedaqoji fəaliyyətim dövründə uğurlarımın sayı çox olub. Məktəb, təhsil şöbəsi və şəhər icra hakimiyyəti rəhbərliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Şəki komitəsi tərəfindən dəfələrlə təltif edilmişəm. 2014-cü ildə Təhsil İnstitutu və "Demokratik Gənclər" İctimai Birliyinin ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə birgə həyata keçirdikləri "Ən Yaxşı Bloq" müsabiqəsində IV yeri tutaraq uğur diplomuna layiq görülmüşəm. 2015-ci ildə Təhsil Nazirliyi və "Edumedia Azərbaycan" təşkilatının birgə təşkil etdiyi "Prometan interaktiv lövhələrinin tədrisdə tətbiqi" müsabiqəsinin V-XI siniflər üçün hazırlanmış ən yaxşı resurs nominasiyası üzrə fərqlənmə sertifikatına, həmin ildə Təhsil Nazirliyi tərəfindən keçirilən "Elektron Təhsil" Respublika müsabiqəsində "Elektron lövhələrin istifadəsi ilə yaradılan ən yaxşı resurs" nominasiyası üzrə I yerə layiq görüldüm. 2016-cı ildə iki şagirdim - Möhlət Kərimov və Murad Nəsrullayev "Elektron Təhsil" Respublika müsabiqəsində iştirak edərək "Tədrisdə istifadə üçün ən yaxşı elektron resurs" nominasiyası üzrə fərqlənmə diplomu ilə mükafatlandırılıb. Riyaziyyat müəllimi kimi 2017-ci ilin may ayında keçirilən diaqnostik qiymətləndirmə imtahanında rayon üzrə maksimum bal - 58 bal (ixtisas üzrə 40, metodika üzrə 18) toplamışam. 2019-cu ilin iyul ayının 10-da müəllimlərin işə qəbulu imtahanında informatika fənni üzrə 57 bal toplayaraq yüksək nəticə göstərmişəm.

Və bu uğurların davamı olaraq 2017-ci ildə Təhsil Naziriliyi tərəfindən "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşam.

*- İndi, artıq peşəkar müəllimsiniz, kifayət qədər təcrübəniz var. Bəs, ilk fəaliyyətə başlayanda hansı çətinliklərlə qarşılaşdınız?*

- Mən ilk fəaliyyətə başlayanda da, indi də, təsəvvür edin ki, çətinliklərdən daha çox özümə qarşı diqqət və qayğılarla qarşılaşmışam. Məktəbimizdə rəhbərliyin elmi, pedaqoji-metodiki cəhətdən çox yüksək peşəkarlığı istənilən çətinliyin dərhal aradan qaldırılmasını təmin edir və belə kollektivdə işləmək son dərəcə şərəfli və maraqlıdır. Hər bir müəllim belə kollektivdə işləməyi yalnız arzulaya bilər. Məktəbimizdə bütün ixtisaslar üzrə rayonun ən yaxşı və istedadlı müəllimləri çalışır.

*- Müəllim olmaq istəyənlərdə hansı xüsusi keyfiyyət və bacarıqlar lazımdır?*

- Müəllim başqaları ilə müqayisədə daha təmkinli, səbrli, bütün işlərini əvvəlcədən planlaşdırmağı bacaran, qarşıya qoyulan məqsədlərin içərisində ən başlıcasını düzgün müəyyənləşdirə bilən, bu başlıca məqsədə çatmağın ən optimal variantını seçə bilən olmalıdır. Hər şeydən əvvəl uşaqları, xalqını və Vətənini böyük məhəbbətlə sevməklə hamıya nümunə olmalıdır.

Müəllimlər hər gün öz üzərlərində çalışmağı və uşaqları daha çox sevməyi özlərinin həyat kredosuna, həyat fəlsəfəsinə çevirməlidirlər. Böyük rus pedaqoqu A.S.Makarenko deyirdi ki, "Müəllim nə qədər öyrənirsə, məhz o qədər müəllimdir".

Bu gün ən başlıca amillərdən biri böyüməkdə olan nəslin vətən üçün daha dəyərli vətəndaş olmasını təmin etməkdən ibarətdir. Ona görə də bütün fənlərin tədrisində mühüm amillərə xüsusi diqqət yetirilməlidir.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Əjdər Ağayevsiz bir il...



**Noyabr ayının 27-də uzun illər tükənməz yaradıcılıq enerjisi, səmərəli və məhsuldar fəaliyyəti ilə Azərbaycan pedaqogika elminin inkişafında mühüm rol oynayan Əjdər Ağayevin vəfatının bir ili tamam olur. Bir il elə sürətlə keçdi ki,... bu bir il ərzində ona olan sevgi azalmadı, əksinə artdı, onun yeri daha qabarıq göründü. Nurani siması, intellekti, mədəniyyəti, zəhmətkeşliyi, erudisiyası, sadəliyi, məhəbbəti, insanlara münasibəti ilə ürəkləri fəth edərək, qəlblərdə ən doğma insan kimi yaşayır və daima yaşayacaqdır.**

**Bu gün biz tarixi səhifələyərək, şair, nasir, publisist, tənqidçi, pedaqoq, Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor, Azərbaycan Təhsil Şurasının təsisçisi və ilk sədri, respublika müəllimlər şurasının sədri Əjdər Əbdülhüseyn oğlu Ağayevin xatirəsini şad etmək niyyəti ilə onun həyat salnaməsinə nəzər yetirmək istərdik.**

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru, pedaqoji elmlər doktoru, Təhsil Şurasının sədri*

### Əjdər Ağayevin elmdə ilk tədqiqat işi

Əjdər Ağayevin ilk tədqiqat işi "Fərhad Ağazadənin pedaqoji görüşləri"nin tədqiqinə həsr olunmuşdur. Bu mövzuda namizədlik dissertasiyası müdafiə etməklə yanaşı, 1987-ci ildə onun "Fərhad Ağazadənin pedaqoji görüşləri" adlı monoqrafiyası da işıq üzü görür. Bu əsərlərində o, Fərhad Ağazadənin yaşayıb-yaratdığı dövrün ictimai-iqtisadi və maarif mənzərəsini təhlil edərək, onun dünyagörüşünün, baxışlarının və yaradıcılığının mənbələrini müəyyənləşdirir. 1880-1931-ci illərdə yaşayan Ağazadə Fərhad Məşədi Rəhim oğlu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu olmuş, Xaldan, Şuşa, Gorus, Gəncə və Bakı məktəblərində müəllim işləmiş, xalqın maariflənməsi istiqamətində mühüm işlər görmüş, ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsində böyük xidmətləri olmuş, çoxlu sayda pedaqoji məqalələrlə mətbuatda çıxış etmişdir. Bu məqalələrində onun məktəb, təhsilin məzmunu, prinsip və üsulları, ana dilinin tədrisi, gənc nəslin tərbiyəsi, qadın təhsili haqqında fikirlərini yaşadığı dövrün ictimai-siyasi hadisələri fonunda təhlil edən Əjdər Ağayev gənc nəslin tərbiyəsində bu irsdən istifadənin yollarını müəyyənləşdirir.

### Vətəndaşlıq borcunun tərbiyə edilməsi - təlimin məqsədi kimi

Vətəndaş tərbiyəsi problemi Əjdər Ağayevin tədqiqatlarının leytmotivini təşkil edir. O, təkcə yüksək dünyagörüşünə malik insanlar yetişdirmək vəzifəsi ilə məktəbin fəaliyyətini məhdudlaşdırmağı səhv addım kimi qiymətləndirirdi. Onun fikrincə, məktəb, ilk növbədə, öz fəaliyyəti ilə Azərbaycan xalqının inkişafına xidmət edə biləcək vətəndaşlar yetişdirməlidir. Sovetlər dönəmində ideologiyanın Sovet adamının formalaşmasına yönəldiyini nəzərə alsaq, Əjdər Ağayevin vətəndaş tərbiyəsi ideyasının nə qədər mühüm əhəmiyyət kəsb etdiyi aydın olar. Bu ideyanı ancaq qəlbi vətən eşqi ilə döyünən insan irəli sürə bilərdi və onun "Məktəblərdə vətənə sədaqət tərbiyəsi" (1975), "Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi" (1975), "Vətəndaş olmağa borclusan" (1979), "Həyatın Astanasında"(1983) kitabları və çoxlu sayda məqalələri bu mövzuya həsr edilmişdi. Bu əsərlərlə yanaşı, bir şair kimi yazdığı "Qalx ayağa, Azərbaycan"şeiri ilə o bir daha qəlbinin Azərbaycanla, onun müstəqilliyi, suverenliyi və inkişafı ilə döyündüyünü sübut edir.

*Qalx ayağa,Azərbaycan, alovlardan vurub keç.*
*Daha bəsdir, aç gözünü, düşmənini yaxşı seç.*
*Qeyrətini bayraq elə, silahını uca tut,*
*Qoy məhv olsun qatı düşmən, nəfəs alsın ana yurd.*
*Qalx ayağa, Azərbaycan -*
*Sənin üçün verək can!*
*Biz səninik, sən də bizim.*

### Pedaqogika tarixində yeni istiqamət

Pedaqogika tarixçiləri tədqiqatlarında adətən mütəfəkkirlərin, maarifçilərin pedaqoji görüşlərini və məktəbin tarixini tədqiq edirlər. Əjdər Ağayev ilk dəfə olaraq, problem xarakterli mövzudan - şəxsiyyətin formalaşması mövzusundan mütəfəkkirlərin, maarifçilərin fikirlərinin tədqiqinə keçid edir. Bu problemlə bağlı olaraq "Azərbaycan maarifpərvərlərinin şəxsiyyət və onun formalaşması haqqında" (1974), "Azərbaycan maarifpərvərləri şəxsiyyət haqqında"(1974), "Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi"(2005) kitabları və çoxlu sayda məqalələri nəşr edilmişdir. Qeyd olunan sonuncu kitab onun doktorluq dissertasiyası əsasında yazılmışdır. Həmin əsərlərdə "şəxsiyyət", "insanın inkişafı", "şəxsiyyətin formalaşması" anlayışları mövcud pedaqoji, psixoloji, fəlsəfi və sosioloji ədəbiyyata istinad edilərək, təhlil edilir. Sonra o, qədim dövrün filosofu Anakarın, orta əsr mütəfəkkirləri Ə.Bəhmənyarın, E.Miyanəçinin, Ş.Sührəvərdinin, S.Urməvinin, N.Tusinin, H.Qəzvinin, M.Şəbüstərinin şəxsiyyətin formalaşmasına dair fikirlərini təhlil edir. Əjdər Ağayevin bu istiqamətdə apardığı tədqiqatların orijinallığı ondadır ki, o, mütəfəkkirlərin bu istiqamətdə fikirlərini müqayisəli təhlil edir, şəxsiyyət probleminin qoyuluşu və probleminin həlli yollarını araşdırır, şəxsiyyətin formalaşması probleminin məzmununa və metodlarına yeni müstəvidə yanaşır, müasir dövrdə klassik irsimizdən istifadə edilməsinin imkanlarını araşdırır və dəyərli təkliflər irəli sürür. Bu, onun ənənə və müasirlik prinsipini prioritet sayması ilə bağlı idi.

### Ənənə və müasirlik - təhsilin strateji prinsipi kimi

Müstəqillik əldə edildikdən sonra ölkəmizdə köklü təhsil islahatlarına böyük ehtiyac olduğu müəyyən edildikdə, bəzi alimlər təhsil sistemini təkmilləşdirməyin yolunu xarici ölkələrdə aprobasiyadan çıxmış konsepsiyaların tətbiqində gördükləri zaman, Əjdər Ağayevin "Təlim prosesi: ənənə və müasirlik" kitabı işıq üzü gördü. Bu kitab konseptual bir məsələni aktuallaşdırırdı: - təlim prosesində müasirlik ənənə üzərində öz inkişafını tapa bilər. Bu konseptual ideya Əjdər Ağayevin vətənpərvərlik hisslərindən irəli gəlirdi və onun irəli sürdüyü "ənənə və müasirlik" reallığı əks etdirdiyi üçün hamı tərəfindən qəbul edilən prinsipə çevrildi.

"Təlim prosesi: ənənə və müasirlik" kitabında o, Azərbaycan məktəbinin uğurlu təcrübəsinə diqqəti cəlb edir, qabaqcıl və yenilikçi müəllimlərin innovasiyalarını dəyərləndirir, xarici ölkə məktəblərinin təcrübəsinin Azərbaycan məktəblərinə tətbiqinin səmərəli yollarını araşdırır, yeni təlim texnologiyalarının mahiyyətini açıqlayır.

### Sağlığında müəllimlər müəllimi adını qazanmış müəllim

Əjdər Ağayev təbiətən müəllim doğulmuşdu. O, öz elmi axtarışları ilə yanaşı, müxtəlif dövrlərdə müxtəlif ali məktəblərdə "Pedaqogika" fənnini tədris edirdi. Onun müəllimlik fəaliyyətinə bütün müəllimlər qibtə edə bilər. Qayğıkeş, humanist bir müəllim kimi o, dərsi əməkdaşlıq metodları ilə tədris edir, tələbənin müstəqil fəaliyyətinə üstünlük verir, biliyi tələbələrin özləri tapmasına və ona yaradıcılıqla yanaşmasına şərait yaradırdı. Pedaqogika fənni yaradıcı xarakterə malik olduğu üçün yalnız belə tədris edildikdə tələbə üçün əlçatan olur. Elə buna görə idi ki, biz onu həmişə tələbələr arasında görürdük. Tələbələr arasında olanda, onlara nə isə öyrədəndə özünü dünyanın xoşbəxti sayırdı. Belə münasibət yalnız əsl müəllimlərə xas idi.

Əjdər Ağayev təkcə ali məktəb tələbələrinə deyil, həmçinin doktorantlara da elmi tədqiqatların sirlərini öyrədirdi. Təsadüfi deyil ki, onun rəhbərliyi ilə 52 nəfər doktorant pedaqogika üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almışdır. Lakin bu rəsmi rəqəmdir. Qeyri-rəsmi olaraq, ölkəmizdə pedaqogika üzrə tədqiqat aparan doktorantların mütləq əksəriyyəti onun məsləhətlərindən faydalanmışdır. Ona görə də hamı onu öz müəllimi kimi mənalandırırdı.

O təkcə doktorantlarla deyil, həmçinin məktəb müəllimləri ilə əlaqə saxlayırdı. Onun tez-tez müxtəlif məktəblərdə müəllimlərlə söhbət etdiyini, onlara məsləhətlər verdiyini, müəllimlər üçün elmi seminarlar və mühazirələr təşkil etdiyini görmək olardı. Bütün bu işləri Azərbaycan müəlliminin daha yüksək səviyyədə inkişaf etməsinə, təhsilin səviyyəsini yüksəklərə qaldırmaq motivasiyasına görə həyata keçirərdi.

O, "Müəllim himnini" yazması ilə müəllimliyə nə qədər önəm verdiyini sübut etdi. Həmin himn ilk dəfə 1989-cu ildə Azərbaycan müəllimlərinin I qurultayında Respublika sarayında Birləşmiş Müəllim Xorunun ifasında səslənmişdir.

*Ömrümüzü şam kimi əridib gilə-gilə,*
*Böyüyən nəslimizi hazırlarıq həyata!*
*Gözümüzün nurunu bəxş edib doğma elə*
*Çatmışıq azadlığa, dirçəlişə, büsata.*

*Vətənin yüksəlişi istiqlal amalımız,*
*Ucalır əlimizdə üçrəngli bayrağımız.*
*Dünyanın sirlərini öyrədirik həvəslə,*
*Azərbaycan - sevgimiz, dövlətimiz - gücümüz!*

*Mübarizə əzmində, yüksəliş yolundayıq,*
*Vətən üçün layiqli övladlar bəslərik biz.*

*Hər məktəb elm ocağı, hər müəllim bir işıq,*
*Hər şagird, hər tələbə yurdumuzun sərvəti,*
*Elmin dərinliyinə baş vurub güc almışıq,*
*Canımız tək sevirik bu müqəddəs sənəti!*

### Əjdər Ağayevin uşaqlar üçün şeir və hekayələri

Əjdər Ağayev 1950-ci illərdən bədii yaradıcılığa başlamışdır. İlk hekayəsi "İlk və son mahnı" 1956-cı ildə "Azərbaycan pioneri" qəzetində, "Bir də çal o mahnını" adlı ilk şeiri isə 1957-ci ildə "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. 200-dək şeirinə mahnı bəstələnmişdir. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Bədii əsərlərini mətbuatda Ə.Ə.Ağayev, A.Əjdər, Əjdər Ağazadə, Ə.Atəşin, Əjdər Ağayev imzaları ilə çap etdirmişdir.

"Sülh gəmisinin kapitanı" (1982), "Payız" (1995), "Kosmos və mən" (1997), "Bala dadı, bal dadı" (1999), "Ceyran nənəm" (1999), "Gəlirəm gözlə məni" (2000), "Fərhadın rəsmləri" (2008), "Allahın haqq bəndəsiyəm" (2008), "Pişik balasının səhvi" (2013) kitablarında o bir tərəfdən balaca uşaqların hiss və həyacanlarını təsvir etmiş, ikinci bir tərəfdən onların həyat təcrübəsi toplaması baxımından mühüm məsələləri pedaqoji müdrikliklə təsvir etmişdir.

### Təhsil eksperti

Keçən əsrin 1970-ci illərindən etibarən mütəmadi olaraq Azərbaycan televiziyasında təhsil və tərbiyənin müasir problemlərindən, gənclərin milli-mənəvi tərbiyəsindən bəhs edən "Sənin vətəndaşlıq borcun", "Həyat bizi səsləyir", "Ədəb - ərkan dünyamız", "Təbliğatçının televiziya məktəbi", "Təhsil: düşüncələr, mülahizələr" verilişlərinin müəllifi və aparıcısı olub. Uzun illər ərzində efirlərə gedən bu verilişlər ölkəmizin təhsil sisteminin təkmilləşməsində, gənclərdə milli-mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamışdır. Bu verilişlərdə Əjdər Ağayev özünü həmçinin kamil təhsil eksperti kimi göstərə bilmişdir. Təsadüfi deyil ki, 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təklifi ilə yaradılan "Təhsil Şurası" İctimai Birliyinə də ilk sədr məhz Əjdər Ağayev seçilmişdir. Bu şuranın yaradılması mühüm hadisə idi. 20 il həmin şuraya rəhbərlik edən Əjdər Ağayev kamil təhsil eksperti kimi təhsil sistemində mövcud nöqsanları göstərmiş, bu nöqsanların aradan qaldırılması yollarını açıqlamış, mətbuatda daima aktual pedaqoji məsələlərə həsr edilmiş mövzularla çıxış etmiş, müəllimlər üçün konfranslar, elmi seminarlar təşkil etmiş- bir sözlə, var qüvvəsi ilə Azərbaycan təhsilinin inkişaf etməsi üçün çalışmışdır.

### Epiloq əvəzi

Biz onun gördüyü işlərin, zaman-məkan müstəvisində, bir hissəsi haqqında söhbət açdıq. Onun gördüyü işləri sadalamaqla qurtarmır. İstər-istəməz belə bir sual insanı düşündürür: Görəsən bir ömrə nə qədər iş görmək olar? Görünür, görülən işin həcmi, məzmunu və keyfiyyəti insanın özünün məzmunu ilə ölçülür. Əjdər müəllim kamil şəxsiyyət, böyük ziyalı, xeyirxah və nəcib insan, ləyaqətli vətəndaş, yorulmaz tədqiqatçı, zirvədə duran müəllim, uşaqların qəlbini duyan şair, yazıçı, səmimi dost, mükəmmil ailə başçısı idi. Belə insanlar dünyaların dəyişəndə, hamı heyfsilənir və "Allah rəhmət eləsin" deyir.

## Qırmızıkənddən başlanan ömür yolu

Əjdər Əbdülhüseyn oğlu Ağayev 1937-ci ilin oktyabr ayının 10-da Salyan rayonunun Qırmızıkənd kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra Əjdər Ağayev 1955-1960-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsində təhsil almışdır. Hələ təhsil aldığı illərdə öz intellekti və zəhmətkeşliyi ilə diqqət çəkən Əjdər Ağayev əmək fəaliyyətinə doğma Salyan rayonunun məktəblərində müəllim kimi başlamışdır. Şagirdlərə tədris etdiyi fənni öyrətdikcə onun müəllimlik peşəsinə marağı daha da artmışdır. Bu maraq onun yolunu 1965-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasına (indiki doktorantura) doğru istiqamətləndirmişdir. Taleyin hökmü ilə burada o böyük alim, görkəmli ziyalı, professor Əhməd Seyidovun rəhbərliyi ilə "Fərhad Ağazadənin pedaqoji görüşləri" mövzusunda namizədlik dissertasiyası üzərində işləmiş və 1969-cu ildə dissertasiya işini böyük uğurla müdafiə edərək, pedaqoji elmləri namizədi elmi dərəcəsi almışdır. Dissertasiya işinin uğurları onun əmək fəaliyyətinə həmin institutda davam etdirməsinə yol açmış və bu institutda o əvvəlcə elmi işçi, sonra isə baş elmi işçi, bölmə müdiri, şöbə rəisi, direktorun elmi işlər üzrə müavini vəzifələrində çalışmışdır. Elmi-pedaqoji fəaliyyəti zamanı əldə etdiyi uğurlar onun yolunu "Azərbaycan məktəbi" jurnalına istiqamətləndirir və 1974-1981-ci illərdə bu jurnalın və onun əlavə nəşr edilən məcmuələrinin baş redaktoru kimi fəaliyyət göstərir. Onun jurnalda işlədiyi dövrdə Azərbaycan təhsilinə görkəmli təhsil xadimi, akademik Mehdi Mehdizadə rəhbərlik edirdi. Əjdər Ağayev jurnaldakı fəaliyyəti ilə onun ehtiramını qazandı, jurnalın ənənələri yarandı və "Azərbaycan məktəbi" SSRİ-nin nüfuzlu mətbu orqanlarından birinə çevrildi. 1981-ci ildən etibarən əmək fəaliyyətini yenidən Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda pedaqogikanın nəzəriyyəsi və tarixi şöbəsinin müdiri vəzifəsində davam etdirmişdir.

Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda işlədiyi müddətdə o, pedaqoji fəaliyyətlə də məşğul olmuş, müxtəlif ali məktəblərdə "Pedaqogika" və "Pedaqogika tarixi" fənlərini tədris etmişdir. 1981-ci ildən 2006-cı ilə qədər Lənkəran Dövlət Universitetində pedaqogika və psixologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır. Ömrünün son dövrlərində əmək fəaliyyətini Bakı Mühəndislik Universitetində "Pedaqogika" kafedrasının müdiri vəzifəsində davam etdirmişdir.

Əmək fəaliyyəti ilə yanaşı o, mühüm əhəmiyyət kəsb edən müxtəlif ictimai işləri də uğurla yerinə yetirmişdir. Müxtəlif vaxtlarda o, Azərbaycan Təhsil Nazirliyi nəzdində pedaqogika və psixologiya elmləri üzrə Elmi-metodiki şuranın sədri, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasında pedaqogika və psixologiya elmləri üzrə ekspert komissiyası sədrinin müavini, dərslikləri qiymətləndirmə komissiyasının sədri, ümumtəhsil məktəbləri üçün baza tədris planları hazırlayan işçi qrupunun rəhbəri, "Təhsil haqqında" Qanunu, təhsil islahat proqramını və fasiləsiz təhsil konsepsiyasını hazırlayan işçi qrupunun üzvü, "Ən yaxşı ümumtəhsil məktəbi", "Ən yaxşı müəllim" müsabiqə komissiyasının təşkilat komitəsinin üzvü, Təhsil Cəmiyyətinin sədr müavini, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəyasət heyətinin və məclisinin üzvü, Respublika Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü, Təhsil şurasının sədri, "Təhsil və zaman"qəzetinin baş redaktoru kimi ictimai işləri yerinə yetirmişdir.

1975-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. "Araz" ali ədəbi və "Qızıl qələm" media, akademik Mehdi Mehdizadə mükafatına layiq görülmüşdür. 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına, 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, Sosial və Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

# 100 yaşlı kollec

## ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci yubiley ərəfəsində





**Sevda AXUNDOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini*

XX əsrin ikinci onilliyinin sonu xalqımızın şanlı tarix salnaməsinə qızıl hərflərlə yazıldı. 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulması ilə bu şanlı tarixin əsası qoyuldu. Xalqın savadlanması və maariflənməsini prioritet istiqamət kimi qəbul edən AXC-nin qısa fəaliyyəti dövründə təhsil müəssisələrinin açılması məsələsi tarixi zərurətə çevrildi. Bu gün 100 illik şərəfli bir yol qət edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci də məhz həmin tarixi şəraitdə fəaliyyətə başladı. Yarandığı dövrdən müxtəlif adlarla fəaliyyətini davam etdirən kollec ölkənin təhsil sahəsinə sanballı töhfələrini verməkdədir. Uğurla həyata keçirilən təhsil strategiyasının diqtə etdiyi mühüm vəzifələri gündəlik fəaliyyət proqramına çevirən kollec pedaqoji kadr hazırlığı sahəsində mühüm yeniliklərə imza atır.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllim peşəsinə yüksək qiymət verərək bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərib. Ulu öndərin müəyyənləşdirdiyi təhsil strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Müəllim Azərbaycanda həmişə çox hörmətli peşə olub. Həmişə müəllimə böyük hörmət olub. Bu gün isə bu, daha da yüksək səviyyədədir. Müəllimlərin əməkhaqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması bu nəticəyə gətirib çıxarır ki, müəllim olmaq istəyənlərin sayı əvvəlki illərlə müqayisədə böyük dərəcədə artıb". Dövlət başçısı bu fikirləri sentyabrın 16-da Bakıdakı 300 nömrəli tam orta məktəbin yeni tədris kompleksinin açılışında müəllimlər və valideynlərlə görüşü zamanı söyləyib.

Qeyd etməliyik ki, geniş dünyagörüşə, hərtərəfli bilik və bacarıqlara, əsl vətəndaş mövqeyinə malik gənc pedaqoji kadrların hazırlanması müasir dövrdə diqqətdə saxlanılan vacib məsələlərdəndir. Müəllimlərin peşəkar bacarıqlarının artırılması istiqamətində atılan addımlar məhz bu vəzifənin uğurla yerinə yetirilməsinə əsaslı zəmin yaradır. Kollecimizin pedaqoji heyəti üzərinə düşən böyük məsuliyyəti dərindən dərk edərək müxtəlif təlim proqramlarına qatılmaqla innovativ materiallara yiyələnir, bilik və bacarıqlarını artırırlar.

Tədris-təlim prosesinin yüksək səviyyədə təşkil edildiyi ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində "Ailə və ev təhsili", "Məktəbəqədər təlim və tərbiyə", "Məktəbəqədər təhsildə korreksiyaedici təlim", "Texnologiya müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi" və s. ixtisaslar üzrə pedaqoji kadrlar hazırlanır.

Kurikulumun tərkib hissəsi kimi tətbiq edilən yeni texnologiyalar, istifadə olunan müasir yanaşmalar sinif - dərs sisteminin qurulmasında geniş imkanlar açır. İnteraktiv təlim texnologiyalarından təlim prosesində geniş istifadəsinə nail olmaqla müəllimlərimiz müasir dərs anlayışının mahiyyətinə dərindən nüfuz edə bilirlər.

Kollecimizdə müasir tələblərə uyğun qurulan tədris-təlim prosesində tələbələr əsaslı bilik və bacarıqlara yiyələnirlər. Gənclərdə nəcib əxlaqi dəyərlərin aşılanması vacib amil kimi diqqətdə saxlanılaraq onlarda yüksək insani dəyərlər, müsbət keyfiyyətlər formalaşdırılır. Nəticədə tələbələrin intellektual səviyyələri inkişaf edir ki, bu da onların gələcək müəllimlik karyeralarında mühüm faktora çevrilir.

ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində yüksək ixtisaslı kadrların hazırlanmasında vacib rol oynayan pedaqoji təcrübəyə də diqqət və tələbkarlıqla yanaşılır. Belə ki, pedaqoji təcrübədə tələbələr tədris prosesində qazandıqları elmi bilik və qabiliyyətlərini daha da təkmilləşdirmək imkanı qazanırlar. Yaradılan bu imkanlardan maksimum yararlanaraq tələbələrin yaradıcılıq qabiliyyətləri inkişaf edir, düşüncə tərzləri, sağlam yanaşmaları formalaşır. Peşə liseyləri, ümumtəhsil məktəblərində və uşaq bağçalarında dərs və məşğələlər keçirən tələbə gənclər ana dili, riyaziyyat, ətraf aləmlə tanışlıq, texnologiya, musiqi, təsviri incəsənət və s. fənləri tədris ediblər.

2018-2019-cu tədris ilində kollecimizdə rəhbərliyim və təşkilatçılığım ilə bir sıra mühüm tədbirlər həyata keçirilib. Belə ki, "Bilik günü", "Beynəlxalq Sülh Günü", "Beynəlxalq Müəllimlər Günü", "Dövlət Bayraq Günü", "Sağlam gənclik - sağlam gələcək", "Xocalı fəryadı", "Çiçəkli Novruz" və s. mövzularda keçirilən tədbirlərdə tələbələrimiz fəal iştirak ediblər.

Bildiyimiz kimi, müasir dövrün əsas çağırışlarından biri də gənclərin mütaliə mədəniyyətini formalaşdırmaqla onların kitaba marağını artırmaqdır. Məhz bu amili əsas götürərək kollecin Sosial-İqtisadi Fənn Birləşmə Komissiyasının müəllimi İlahə Məmmədovanın təşəbbüsü və mənim dəstəyimlə Sabunçu korpusunun 646-cı qrup tələbələrinin Bakı Kitab Mərkəzinə ekskursiyasını və bədii əsərlərin müzakirəsini təşkil etmişik. Eyni zamanda, tələbələr Heydər Əliyev Mərkəzində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Qala Arxeoloji - Etnoqrafik Muzey Kompleksi, Şamaxı Astrofizika Rəsədxanasında , Qala Əntiq Əşyalar Muzeyi, "Tullantıdan sənətə" muzeyi və "Qobustan Dövlət tarixi-bədii qoruğu"nda ekskursiyada olublar. Bu kimi tədbirlər gənclərin xalqımızın maddi-mənəvi sərvətləri haqqında geniş məlumat əldə etmələri, onların vətənpərvərlik, Vətənə, dövlətçiliyimizə sədaqət ruhunda tərbiyəsi baxımından əhəmiyyətli rol oynayır.

Gənclərimizi xalqımıza layiqli vətəndaş, hərtərəfli bilik və geniş dünyagörüşünə malik, azərbaycançılıq ideologiyasına sadiqlik ruhunda yetişdirməklə əsrin yaşıdı olan doğma kollecimizin 100 illik yubileyinə bayram töhfəmizi ərməğan etmiş olarıq.

# Xoreoqrafiya təhsilinə maraq artır

**B**akı Xoreoqrafiya Akademiyası yarandığı gündən üzü bəri böyük inkişaf yolu keçərək, tərəqqi etmişdir. Hazırda Azərbaycanda milli mədəniyyətin inkişafında misilsiz rol oynayan xoreoqrafiya təhsilinin yaranmasının 90, Bakı Xoreoqrafiya Akademiyasının isə 5 illik yubileyi ərəfəsindəyik. Xronoloji ardıcıllıqla Azərbaycanda xoreoqrafiya təhsilinin inkişaf yoluna nəzər salsaq, görərik ki, Bakıda balet studiyasının mövcud olması barədə ilk məlumatlar 1922-1923-cü illərə təsadüf edir.1929-cu ildə Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına əsasən bu studiya Bakı Xoreoqrafiya Məktəbinə çevrilmiş, 1933-cü ildə isə buradakı təhsil 4 ildən 9 ilə çatdırılmışdır. 1935-ci ildə Xoreoqrafiya Məktəbi Azərbaycan SSR Xalq Maarif Komissarları Şurasının qərarı ilə Bakı Xoreoqrafiya Texnikumu, 1962-ci ildə isə Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsinin qərarı ilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi nəzdində Bakı Xoreoqrafiya Məktəbi adlandırılmışdır. Azərbaycanın və Şərqin ilk böyük ustad balerinası Qəmər Almaszadə balet sənətinin sirlərinə məhz burada yiyələnmişdir.

**Vəfa GÖVHƏR,**
*Bakı Xoreoqrafiya Akademiyasının Mətbuat katibi*

İlk tədris illərindən etibarən peşəkar kadrların Xoreoqrafiya Məktəbinə cəlb olunması və Rusiyadan bir sıra mütəxəssislərin pedaqoji kollektivə dəvət edilməsi nəticəsində xoreoqrafiya tədris prosesi daha da təkmilləşmiş, balet səhnəsi üçün kamil mütəxəssislərin hazırlanması sistemi formalaşmışdır. Təhsil sahəsində gedən inkişaf prosesi milli kadrların yetişməsinə geniş zəmin yaratmışdır. Bu dövrdə Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərən Qəmər Almaszadə ilə yanaşı, Leyla Vəkilova, Tamilla Məmmədova, Rəfiqə Axundova, Çimnaz Babayeva, Tamilla Şirəliyeva və digər tanınmış balet ustaları yetişmişdir.

Azərbaycan milli rəqs adət-ənənələrinin qorunması, milli rəqsin peşəkar şəkildə öyrədilməsi və təbliğ edilməsi zərurətindən irəli gələrək, Bakı Xoreoqrafiya Məktəbində 1960-cı illərdə xalq bölməsi fəaliyyətə başlayır. Azərbaycanın Əməkdar və Xalq artisti fəxri adlarını almış görkəmli rəqs ustalarımızdan Xumar Zülfüqarova, Afaq Məlikova, Roza Cəlilova, Cəmilə Bayramova, Səbinə Qasımova, Elizbar Osmanov və başqaları bu illərdə məhz xalq bölməsində təhsil almışlar.

Azərbaycan Respublikası Prezidentinin 30 aprel 2014-cü il tarixli sərəncamına əsasən Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksi yaradılmış və fəaliyyətə başlamışdır. Akademiyanın rektoru Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Timuçin Əfəndiyevdir.

Akademiya ümumi (ibtidai, ümumi orta və tam orta təhsil), orta ixtisas (kollec) və ali təhsil (bakalavr, magistr, doktorantura səviyyələri) pillələri üzrə tədris proqramını həyata keçirir. Bununla yanaşı, akademiyada əlavə təhsilin müvafiq istiqamətləri üzrə - ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi yönündə elmi biliklər aşılanır.

Balet sənətindəki terminlər fransız dilindən alındığı üçün məktəblilərə birinci sinifdən məktəbi bitirənə qədər fransız dili fənni keçirilir. Orta məktəblərdə öyrədilən ümumi fənlərlə yanaşı qrim sənəti, tarixi-məişət rəqsləri, xalq-səhnə, klassik və milli rəqslər fənni yüksək səviyyədə tədris olunur.

Akademiyada xoreoqrafiya sənəti üzrə müxtəlif ixtisaslar, o cümlədən balet artisti, baletmeyster sənəti, balet pedaqogikası və digər ixtisaslaşmalar üzrə tədris aparılır. Xoreoqrafiya sənəti, rəqs müəllimliyi, musiqi müəllimliyi ixtisasları mövcud olmaqla, instrumental ifaçılıq, xalq çalğı alətləri, menecment, sənətşünaslıq (səhnəqrafiya tarixi, geyim tarixi, xoreoqrafiya tarixi və s.), dizayn (səhnə tərtibatı, milli və klassik rəqslər üçün geyim dizaynı), teatrşünaslıq, musiqişünaslıq kimi bir sıra yeni ixtisaslar 2017-2018-ci tədris ilindən etibarən qəbul planına əlavə edilmişdir. Akademiyada Baletmeyster sənəti, Klassik rəqs, Milli rəqslər, İctimai fənlər, Musiqi fənləri, Azərbaycan dili və ədəbiyyatı, Sənətşünaslıq kafedraları və İncəsənət fakültəsi formalaşmışdır.

Bakı Xoreoqrafiya Akademiyasının qarşısında duran ümdə vəzifələrdən biri xoreoqrafiya təhsilinin bütün istiqamətləri üzrə məqsədyönlü fəaliyyət göstərmək və bu fəaliyyətin əsasını təşkil edən fənn proqramları və dərs vəsaitlərinin tərtib olunub, nəşr etdirilməsidir. Bir sıra xoreoqrafik tədris vəsaitləri ilk dəfə olaraq, akademiyanın peşəkar müəllimləri tərəfindən Azərbaycan dilində tərtib edilərək nəşr olunmuş, bəziləri isə rus dilindən Azərbaycan dilinə tərcümə edilərək, xoreoqrafiya sahəsində təhsil alan şagird və tələbələrin ixtiyarına verilmişdir.

Akademiyanın ən böyük uğurlarından biri xoreoqrafiya sənəti tarixində ilk dəfə olaraq, Qəmər Almaszadə adına Klassik və Milli Rəqs üzrə Beynəlxalq Müsabiqənin təsis edilməsidir. Müxtəlif ölkə nümayəndələrinin iştirak etdiyi bu müsabiqənin iki ildən bir keçirilməsi qərara alınmışdır. Akademiya 2016 və 2018-ci illərdə dünyanın 12 ölkəsindən 324 nümayəndənin iştirakı ilə müsabiqəni müvəffəqiyyətlə keçirməyə nail olmuşdur.

Respublikanın teatr və konsert zallarında verilən onlarla hesabat konsertləri, xoreoqrafik kompozisiyalar, rəqs və balet tamaşaları, həmçinin tələbələrin ölkə hüdudlarından kənarda keçirilən müxtəlif rəqs və balet müsabiqələrində iştirakı akademiyanın əldə etdiyi yüksək nailiyyətlərindəndir.

Təhsil kompleksində ixtisas fənləri üzrə pedaqoji fəaliyyətə qabaqcıl elm xadimləri - elmlər və fəlsəfə doktorları, dosent, professor və Əməkdar müəllimlər, o cümlədən yüksək ixtisaslı elmi potensiala malik Azərbaycan Respublikasının Əməkdar və Xalq artistləri, Əməkdar incəsənət xadimləri, Əməkdar rəssam və mədəniyyət işçiləri cəlb olunmuşlar.



Akademiyada mütəmadi olaraq elmi-praktik konfranslar, ustad dərslər, görkəmli sənətkarların yubiley gecələri, elmi seminarlar keçirilməklə yanaşı, "Elmi əsərlər" toplusu və "Sənət akademiyası" adlı elmi-nəzəri məcmuəsi nəşr olunur.

Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksi bu 5 il ərzində bir çox uğurlara imza atmışdır. Belə ki, akademiya Avropa İncəsənət Universitetləri Liqasına üzv seçilmiş, 10 ölkənin 12 təhsil müəssisəsi ilə əməkdaşlıq sazişləri bağlamağa müvəffəq olmuşdur.

Moskva Dövlət Xoreoqrafiya Akademiyası və Sankt-Peterburq A.Y.Vaqanova adına Rus Balet Akademiyası, Qazaxıstan Milli İncəsənət Akademiyası, Litva Milli İncəsənət Məktəbi, Belarus Dövlət Mədəniyyət və İncəsənət Akademiyası, Pekin Rəqs Akademiyası və digər xarici təhsil müəssisələri ilə Bakı Xoreoqrafiya Akademiyası arasında geniş beynəlxalq əlaqələrin yaradılması istiqamətində əməkdaşlıq sazişləri imzalanaraq, onlarla qarşılıqlı şəkildə sıx yaradıcılıq əlaqələri və təcrübə mübadiləsi aparılır.

Azərbaycanın tanınmış Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülmüş balet və rəqs ustaları xoreoqrafiya təhsil ocağının yetirmələridir. Hazırda Bakı Xoreoqrafiya Akademiyasının yüksək ixtisaslı məzunları professional kadr qismində akademiyanın özündə pedaqoji fəaliyyətə cəlb edilir ki, bunun da nəticəsində Azərbaycan milli balet və rəqs sənəti beynəlxalq arenalarda yüksək və peşəkar formada nümayiş etdirilməklə, əcnəbi vətəndaşlara Azərbaycan incəsənətinə qarşı böyük diqqət, maraq və sevgi hissləri aşılanır.

Akademiyanın tələbələri hər il Tbilisidə keçirilən Vaxtanq Çabukiani adına uşaq və yeniyetmələrin xoreoqrafiya sənəti üzrə beynəlxalq müsabiqəsində iştirak edirlər. Dəfələrlə laureat adını qazanmış tələbələr, həmçinin Fransanın Sen Simeon şəhərində keçirilən ənənəvi Sen-Jan milli bayramında, eləcə də Fransanın Müluz şəhərində Azərbaycan musiqisinə həsr olunmuş "İki dünya" adlı musiqi festivalında milli rəqs nömrələri ilə çıxış edərək Fransa Senatının xatirə medalı ilə təltif olunmuşlar. Bununla yanaşı, Serbiyanın Belqrad şəhərində keçirilən "Avropanın sevinci" festivalında çox uğurlu çıxışlarına görə akademiyanın şagird və tələbə heyəti diplomlarla təltif olunmuş və Serbiya prezidenti ilə görüşmüşlər. Tələbələrimiz Rusiya Federasiyasında "Yer kürəsi - ümumi evimizdir" başlığı altında keçirilən Gənclərin XVI Beynəlxalq musiqi yaradıcılığı festivalında birinci yerə sahib çıxmaqla yanaşı, Qazaxıstan və Çeçenistan respublikalarında keçirilən milli rəqs və Sankt-Peterburqda reallaşan klassik rəqs üzrə müsabiqə və festivallarda uğurla çıxış etmişlər.

Bu gün akademiya müasir standartlara cavab verəcək səviyyədə əsaslı şəkildə təmir olunmuş və bütün auditoriya, kafedra və şöbələr müasir avadanlıqlarla təchiz edilmişdir.

İctimaiyyət arasında akademiyanın bütün təhsil pillələrinə maraq gün-gündən artmaqdadır. Sevindirici haldır ki, xüsusilə akademiyanın bakalavr və magistratura səviyyələrində keçirilən ixtisaslara qəbul olmaq, xoreoqrafiya sahəsində təhsil almaq və tələbə adını qazanmaq istəyənlərin sayı ildən-ilə çoxluq təşkil edir. Tədris mərkəzinə cəlb olunmuş peşəkar müəllim heyəti, xoreoqrafiya təhsili sistemində aparılan islahatlar və mövcud maddi-texniki baza Bakı Xoreoqrafiya Akademiyasının möhtəşəm təhsil ocağı olmasının bariz təcəssümüdür. Bu kimi göstəricilərə cavab verdiyinə görə akademiyaya hətta əcnəbi vətəndaşların da maraq dairəsi artmış və hazırda bir neçə xarici ölkə vətəndaşları beynəlxalq müqavilələr əsasında, ödənişli əsaslarla akademiyamızda təhsil alır.




Qarşımda 2019-cu ildə "Elm və təhsil" nəşriyyatında nəfis şəkildə nəşr olunmuş bir kitab var: "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları". Kitabın müəllifi Azərbaycan pedaqoq-alimlərinin öncüllərindən biri olan yetirməm Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor Fərrux Rüstəmov, elmi redaktoru ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanovdur. Professor Fərrux Rüstəmov Bakıda, Moskvada, Tehranda və İstanbulda nəşr etdirdiyi monoqrafiya, dərslik və dərs vəsaitləri və çoxsaylı elmi məqalələri ilə pedaqoji ictimaiyyətin rəğbətini qazanmışdır. Bu kitab da həmin silsilədəndir. Azərbaycanda və eləcə də keçmiş İttifaq miqyasında bu, yeni bir yanaşma, yeni bir layihədir. Bu kitab yalnız ayrı-ayrı vaxtlarda ADPU-ya rəhbərlik etmiş rektorlar (direktorlar) haqqında oçerklər deyil, universitetin bir əsrlik tarixinin güzgüsüdür. Bu layihənin müəllifi ADPU-nun rektoru, tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərovdur. Ömrümün 70 ilə yaxın bir dövrünü gənc nəslin təhsilinin inkişafına həsr etdiyim Azərbaycan Dövlət Pedaqoji Universitetində son illərdə o, xeyli uğurlu layihələrə imza atıb. Ənənələri qoruyub saxlamaqla infrastrukturun və insan resurslarının yeniləşdirilməsi, sağlam təhsil mühitinin yaradılması, beynəlxalq sahədə elmi əməkdaşlığın genişləndirilməsi sahəsində xeyli uğurlara nail olub.

# "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları"

**Hüseyn ƏHMƏDOV,**
*pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü*

Kitab onun Azərbaycan Dövlət Pedaqoji Universitetin pedaqoji və elmi-pedaqoji kadr hazırlığı sahəsində keçdiyi tarixi və şərəfli yolu xarakterizə edən "Ön söz"ü ilə açılır.

Sonra Pedaqoji Universitetin təşəkkülü və inkişafının ən maraqlı və yaddaqalan anlarını xatırladan oçerk verilir. Burada zəngin arxiv materialları və ilkin mənbələr əsasında Ali Pedaqoji Kişi və Qadın İnstitutlarının yaradılması, onların vahid institut şəklində birləşdirilməsi, institutun ilk əsasnaməsi, institut üçün ayrılan ilk tədris binaları, xüsusilə indiki "Səbail" korpusu haqqında geniş məlumat verilir.

Kitabda Pedaqoji Universitetin tərcümeyihalına düşmüş bütün insanların deyil, onun təşkilində, inkişafında və idarəedilməsində xidmətləri olan 31 rektor (direktor), Ali Pedaqoji Qadın İnstitutunun ilk və son direktoru olmuş Sara xanım Xuramoviç, "A.Şaiq nümunə məktəbi" və onun müdiri Qafur Əfəndizadə haqqında oçerklər verilmişdir.

Professor F.Rüstəmov elmi dəlillərlə sübut edir ki, institutun təşkili və formalaşmasının ilkin mərhələsi (1921-1927-ci illər) Odessa Universitetinin məzunu Fətulla Rzabəylinin, Peterburq Universitetinin məzunu Məmməd Əfəndiyevin, Tiflis Müəllimlər İnstitutunun məzunu Həbib Mahmudbəyovun, Peterburq Psixonevroloji İnstitutunun Pedaqoji fakültəsinin "Ümumi tarix" ixtisasının məzunu, Başqırd Hökumətinin sədri olmuş Şarif Manatovun və Kiyev Politexnik Universitetinin məzunu Cəlil Məmmədzadənin adı və yorulmaz fəaliyyəti ilə bağlıdır.

Kitabda 1927-1930-cu illərdə Pedaqoji İnstitutun ADU-nun Pedaqoji fakültəsi ilə birləşdirilməsinin səbəbləri araşdırılır, 1930-cu ildə BDU-nun ləğvinin milli dövlətçilik təfəkkürün formalaşmasına vurulan ağır zərbə kimi dəyərləndirilir. Həmin illərdə ADU-da intellektual səviyyəsi, əxlaqi-mənəvi saflığı, millətsevərliyi ilə seçilən milli ruhlu ziyalılar toplaşmışdır. Onların düşüncələrində sovet hakimiyyətinə qarşı narazılıq ideyaları göyərməkdə idi. Universitetin ayrı-ayrı fakültələrinin bazalarında yeni institutların yaradılması ali təhsil sisteminin genişləndirilməsi məqsədi ilə deyil, siyasi səbəblərlə bağlı idi. Əsas məqsəd aydın və işıqlı düşüncə sahiblərini bir-birindən ayırmaq idi. Həmin ildə ADU-nun Pedaqoji fakültəsinin bazasında Azərbaycan Pedaqoji İnstitutu yenidən təşkil olundu. Pedaqoji İnstitutun inkişafının yeni mərhələsi başlandı.

1930-cu illər institutun həyatında çox çətin və mürəkkəb dövr kimi yadda qalıb. O dövrdə rəhbərlik tez-tez dəyişdirilsə də, ADPİ-də təşkilati məsələlərin həllində, tədris və elmi-tədqiqat işlərinin düzgün qurulmasında direktor vəzifəsində çalışan Tiflis Müəllimlər İnstitutunun məzunu Pənah Qasımovun, Azərbaycan Dövlət Universitetinin məzunları Bəşir Bünyatovun, Məmməd Bayramovun və Hüseyn Musayevin, Şərq Zəhmətkeşləri Kommunist Universitetinin məzunu Mirzə Məmmədovun, Tiflis Politexnik İnstitutunun məzunu Mirzə Davud Rəsulzadənin, Azərbaycan Pedaqoji İnstitutunun məzunu Aqil Salayevin, Zaqafqaziya Kommunist Universitetinin məzunu Camal Əliyevin, Marksizm-Leninizm İnstitutunun məzunu Ələsgər Həşimovun mühüm xidmətləri oldu.

Professor F.Rüstəmovun tədqiqatlarından məlum olur ki, 1930-cu illərdə başlanan repressiya dalğası Pedaqoji İnstitutdan yan keçməmiş, İnstitutun direktorları olmuş Fətulla bəy Rzabəyli, Pənah Qasımov, Məmməd Bayramov, Mirzə Davud Rəsulzadə, Mirzə Məmmədov Hüseyn Musayev repressiya maşınının təzyiqlərinə məruz qalmışlar. Məmməd Bayramov, Mirzə Məmmədov isə həbs ediləndən bir il sonra - 1938-ci ildə Bakıda güllələniblər.

Böyük Vətən müharibəsinin ilk illərində Pedaqoji İnstitut ADU-ya birləşdirildi. 1943-cü ildə ADU-ya birləşdirilən Azərbaycan Dövlət Pedaqoji İnstitutu yenidən quruldu. Müharibənin ali pedaqoji kadr hazırlığına vurduğu ağır zərbənin nəticələrini aradan qaldırmağa xeyli vəsait və vaxt sərf edildi. Müharibədən sonrakı illərdə də ADPİ müəllim kadrları hazırlığı sahəsində öz liderliyini qoruyub saxladı və özünün dinamik inkişafını təmin etdi. Baxmayaraq ki, həmin dövrdə digər pedaqoji institutlar da fəaliyyət göstərirdi. Bu illərdə instituta ayrı-ayrı vaxtlarda maarif və mədəniyyət naziri olmuş Məmməd Ələkbərov, 23 il Azərbaycan maarifinə rəhbərlik edən akademik Mehdi Mehdizadə, professorlar - Ağamməd Abdullayev, Əhməd Seyidov, Cəfər Xəndan Hacıyev, Həmid Qədirov, Cəbrayıl Ələsgərov, Mehdixan Vəkilov, Mehdi Əliyev, Şövqi Ağayev rəhbərlik etdilər.

Müəllifin də yazdığı kimi, 14 iyul 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi seçilməsi Azərbaycanın ən yeni tarixinə dönüş mərhələsi kimi daxil oldu. Həmin illərin canlı şahidi kimi deyə bilərəm ki, keçən əsrin 70-80-ci illərində Pedaqoji İnstitut xeyli inkişaf etdi. İnstitutun rəhbərliyində, tədris və elmi həyatında ciddi dəyişiklik baş verdi. Heydər Əliyev bir neçə dəfə institutun professor-müəllim heyətinin qonağı oldu, 2 dəfə ən yüksək dövlət mükafatını kollektivə təqdim etdi, öz təklif və tövsiyələrini verdi, ali məktəbdə qəbul prosesini izlədi. Bu illərdə instituta professor Həşim Ağayev və AMEA-nın müxbir üzvü, professor Afad Qurbanov rəhbərlik etmişdir. 1990-cu illərdən sonra Pedaqoji Universitetə AMEA-nın müxbir üzvü, professor Səlvər Aslanov, professor Nizami Xudiyev, professor Bəhlul Ağayev və AMEA-nın müxbir üzvü, professor Yusif Məmmədov rəhbərlik etdilər. Hazırda isə professor Cəfər Cəfərov rəhbərlik edir.

Adı çəkilən rektorların hər birinin mənim taleyimdə rolu var. M.Ələkbərov Azərbaycan ET-PEİ-də direktor işləyərkən məni işə qəbul edib. Ə.Seyidov mənim namizədlik, M.Mehdizadə doktorluq dissertasiyamın elmi rəhbəri olub, 12 rektorla işləmişəm. Hər birinin Pedaqoji Universitetin inkişafında xidmətləri olub. Kitabda onlar haqqında verilən oçerkləri həyəcansız oxumaq olmur.

Professor F.Rüstəmov onların həyat və yaradıcılıqlarını, ictimai-siyasi və pedaqoji fəaliyyətlərini, deyərdim ki, zərgər dəqiqliyi ilə təsvir edib. Onların fəaliyyətini universitetin inkişafı fonunda təqdim edib, pedaqoji və elmi pedaqoji kadr hazırlığındakı xidmətlərini önə çəkib. Onların xidmətlərini üzə çıxarmağın özü də bir xidmətdir ki, onun da ağırlığı professor Fərrux Rüstəmovun üzərinə düşüb. O, bu kitabı yazarkən Dövlət Təhlükəsizlik Xidmətinin Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin, Azərbaycan Respublikası Dövlət Arxivinin, ADPU-nun Arxivinin, Xalq Təhsil Muzeyinin və Milli Kitabxananın materiallarından istifadə edib, rektor (direktor) işləyənlərin ailə üzvləri ilə görüşüb, xatirələrini dinləyib. Bunun da nəticəsində mükəmməl tarixi sənədli bir əsər ərsəyə gətirib. Hesab edirəm ki, bu kitabı oxuyan hər bir kəs xəndan olacaqdır. Hazırda da uğurla çalışanların (Cəfər Cəfərov, Yusif Məmmədov, Bəhlul Ağayev, Nizami Xudiyev) və dünyasını dəyişən rektorların (direktorların) övladları, yaşayan nəvə-nəticələri bilsinlər ki, onların babaları Azərbaycan xalqına necə fədakarlıqla xidmət göstərib.

Professor Fərrux Rüstəmovun həm rektorların, həm Pedaqoji Universitetin, həm də ali pedaqoji təhsilin inkişafını əks etdirən "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabı ADPU-nun qarşıdan gələn 100 illik yubileyinə ən layiqli və qiymətli hədiyyədir.

---




Bəri başdan hamının bildiyi bir məsələni bir daha yada salmaq istəyirik. İndi elmin, sənətin, ədəbiyyatın və s.-nin müxtəlif sahələrində olduğu kimi ədəbiyyatşünaslığa dair də kifayət qədər çox kitablar nəşr olunur. Kəmiyyət çox olsa da, keyfiyyət oxucunu, mütəxəssisi qane etmir. Nəticədə bolluq içərisində bir yoxsulluq, kasadlıq özünü büruzə verir. Bir yaxşı kitab görəndə sevinirsən. Biz Sevinc Rəsulovanın uşaq ədəbiyyatımızın tədqiqinə həsr olunmuş monoqrafiyası barədə də bu sözləri deyə bilərik. "Elm və təhsil" nəşriyyatında cap olunmuş (Bakı, 2018) monoqrafiyanın adında onun tədqiqat zamanı və hədəfi yetərincə dürüst, sərrast şəkildə ehtiva olunmuşdur: "Azərbaycan uşaq ədəbiyyatının maarifçi-realist mərhələsi (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri)".

Ədəbiyyatşünaslığımız üçün uğurlu bir hadisə sayıla biləcək gərəkli və fundamental bir tədqiqat əsəri uzun axtarışların, gərgin əməyin, sağlam təfəkkürün məhsuludur. Uşaq ədəbiyyatımızın, habelə bütövlükdə ədəbiyyatşünaslığımızın son dövrlərdəki qazanclarından biridir. Burada mövzu obyekti kimi götürülən zaman intervalı bir neçə onilliyi əhatə edir. Əgər nəzərə alsaq ki, bizim uşaq ədəbiyyatımızın yaranma zəmini XIX əsrin 20-ci illərindən, yəni Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğalının başa çatmasından az sonra başladı, onda deyə bilərik ki, monoqrafiyada araşdırma obyekti kimi götürülən zaman kəsimi az qala bir əsrə qədər sürən uzunmüddətli bir dövrü əhatə edir.

# Uşaq ədəbiyyatımızın fundamental tədqiqi

**Sənan İBRAHİMOV,**
*filologiya elmləri doktoru, professor*

Əlbəttə, bu, tədqiqatçı üçün xeyli çətinlik və zəhmət deməkdir. Təbii ki, zaman böyüdükcə araşdırıcı üçün yaranan problemlər də böyüyür. Araşdırmaya cəlb edilməli olan materialların sayı da artır. Materiallar çoxaldıqca onları tapıb üzə çıxarmaq, fikir və təhlil süzgəcindən keçirmək, ümumiləşdirmək missiyasının əhatə dairəsi də artır. S.Rəsulova da monoqrafiya üzərində işləyərkən belə bir missiyanı yerinə yetirməyin şərəf yükünü daşımalı olmuşdur.

Təbii ki, dediyimiz dövrün, daha doğrusu, mövzu obyekti kimi götürülən dövrün uşaq ədəbiyyatının öyrənilməsi ilk hadisə deyil. Bu sahədə müəyyən işlər görülmüş, faydalı təşəbbüslər edilmiş, bir sıra məqalələr, monoqrafiyalar, hətta dissertasiyalar yazılmışdır. Bunları nəzərə almamaq, bunların çəkisini, dəyərini azaltmaq, inkar etmək ədalətsizlik, qədirşünaslıqdan kənar bir iş olardı. Əlbəttə, bu istiqamətdə görülən işləri, tədqiqat aparan müəllifləri biz burada sadalamaq fikrində deyilik. Ancaq görülən işlərə boy verən, onları zənginləşdirən yeni-yeni araşdırmaları mütləq dəyərləndirmək, onların sanbalını, ədəbiyyatşünaslığımıza və balacalar üçün ədəbiyyatımızın tədqiqinə əlavə etdiyi yenilikləri nəzərə çatdırmaq lazımdır. Yəni, biz sələf tədqiqatçılarımıza ehtiramla yanaşdığımız kimi indiki və gələcək araşdırmaçılarımıza da qədirşünaslıqla münasibət göstərməliyik. Bu, filologiya elmimizdə irs və varislik prinsipinin hörmət, qayğı, ehtiram qanunauyğunluğu əsasında qurulmasının vacib, qorunmalı, yaşadılmalı şərtidir. Biz Sevinc xanımın tədqiqatına da məhz həmin prizmadan baxırıq.

Müəllifin problemə həssas və obyektiv bir müstəvidə yanaşması ilk növbədə monoqrafiyanın adında özünü göstərir. Çünki müəllifin də izah etdiyi kimi XIX əsrin II yarısı-XX əsrin əvvəlləri bizim uşaq ədəbiyyatımızın inkişafında maarifçi-realist mərhələ kimi xarakterizə olunmalıdır. Alim kitabının ilk fəslində bu məsələnin üzərində geniş şəkildə dayanır. Haqlı olaraq göstərir ki, deyilən dövrdə milli məkanda bizim "böyüklər üçün" bədii sərvətimizin mühüm bir qolunu maarifçi-realist ədəbiyyat nümunələri təşkil edir. Yəni bu dövrdə ədəbi fikrin mühüm bir axarını, bədii məhsulların böyük bir qismini ədəbi-estetik məfkurə və istiqamət baxımından maarifçi-realist ədəbiyyatın meyarları ilə ölçmək, onun tələb və hüdudları sferasına aid etmək lazım gəlir. Eyni mənzərə bilavasitə kiçiklərdən ötrü yaradılan əsərlərə də şamil edilə bilər. Tədqiqatçı belə bir yanaşmasında, şərhində obyektiv mövqe nümayiş etdirir ki, XIX yüzilliyin II yarısı-XX yüzilliyin əvvəllərində meydana gələn Azərbaycan uşaq ədəbiyyatı iki mənada maarifçi-realist müstəvidə öyrənilməli, təhlil edilməlidir. Birincisi, bu ədəbiyyatın təşəkkülünü, zühur etməsini və tərəqqisini şərtləndirən amillərin əksəriyyəti yeni tipli məktəblə, maariflə və maarifçilik hərəkatı ilə bağlı olmuşdur. Bizim milli uşaq ədəbiyyatımız yeni tipli məktəb və maarifçilik hərəkatının bətnindən, onun ehtiyaclarından doğulmuşdur. İkincisi, həmin tarixi mərhələdə ərsəyə gələn kiçiklər üçün ədəbiyyatımız məzmunu, mahiyyəti, estetik dəyərləri, pedaqoji-psixoloji tutumu, əsas meyarları, mətn fəlsəfəsi ilə maarifçi-realist ədəbiyyatın tələbləri çərçivəsində təzahür etmişdir. Doğrudur, bu xəzinənin məhsulları içərisində romantik ruhlu, hətta romantizm ədəbi cərəyanının tələblərinə, estetikasına uyğun gələn əsərlər də vardır. Lakin bunlar azlıq təşkil edir. O dövrdə kiçik oxuculardan ötrü yaradılan bədii nümunələrin əsas yükünü öz üzərinə götürə bilmir. Elə buna görə də biz haqqında söhbət gedən mərhələni Azərbaycan uşaq ədəbiyyatının maarifçi-realist mərhələsi kimi götürməli oluruq. Belə bir baxış bu ədəbiyyatın istər təşəkkülünü və inkişafını düzgün şərh etməyə, istərsə də çoxlu sayda örnəklərinin obyektiv təhlilinə yol açır.

Haqqında danışdığımız monoqrafiyada müəllif tədqiqatın düzgün bir axarda aparılması üçün bir axtarışçı filoloq duyğusu və fəhmi ilə işin planını düzgün müəyyənləşdirib, kompası düzgün seçib. Əlbəttə, ilk baxışda sadə görünən bu məsələdə məqsədə lazımi səviyyədə nail olmaq o qədər də asan deyil. Çünki bunun üçün həm araşdırdığın sahə ilə əlaqədar yüksək elmi-nəzəri biliyə nail olmalı, həm də praktiki materiala kifayət qədər bələd olmalısan. Onu da nəzərə almalıyıq ki, Sevinc xanımın üzərində işlədiyi mövzu ilə bağlı yüksək elmi-nəzəri bilik almaqdan ötrü elmi ədəbiyyatlar nə qədər çoxdursa, praktiki materialın özü də bir o qədər zəngindir. Bu material böyük bir xəzinəni xatırladır. Bunların içərisindən daha qiymətliləri tapmaqdan ötrü onların hamısını diqqətlə nəzərdən keçirməli, öyrənməli, saf-çürük etməlisən. Alimin monoqrafiyadakı uğurlarını təmin edən mühüm faktorlardan ikisi bu dediklərimizdir. Belə ki, burada tədqiqatçının həm mövzu ilə bağlı yüksək elmi-nəzəri hazırlığı, həm də faktiki materiala bələdliyi aşkar şəkildə hiss olunur.

Bəllidir ki, filologiya elmləri doktoru Zahid Xəlil həm tanınmış uşaq yazıçısı, həm də bu ədəbiyyatın məhsuldar tədqiqatçılarından biridir. O, haqqında söhbət açdığımız əsərə yığcam, lakin dəyərli ön söz yazmışdır. Onun ön sözdəki bizi qane edən bu mülahizələri monoqrafiyanın səciyyəvi müsbət cəhətlərinin müəyyən əlamətlərini qabardıb nəzərə çatdırır: "Yaxşı cəhətdir ki, monoqrafiya müəllifi XIX əsrin II yarısı və XX əsrin əvvəllərində ərsəyə gələn milli uşaq ədəbiyyatımıza bir kompleks halında baxır, onu bir küll halında nəzərdən keçirir. Azərbaycan uşaq ədəbiyyatının yaranmasına və inkişafına dövrün ictimai-siyası, ədəbi-mədəni, pedaqoji və maarifçi hərəkatı müstəvisində baxır. Milli uşaq ədəbiyyatımızın istər təşəkkülünü, istərsə də yüksəlişini şərtləndirən və ona təkan verən amilləri yetərincə dolğun, inandırıcı şəkildə incələyir. Yeni-yeni faktlar üzə çıxarır, söylədiyi nəzəri fikirləri elmi və tarixi sübutlarla əsaslandırmağı bacarır".

Monoqrafiyada diqqətimizi çəkən məsələlərdən biri də Azərbaycan uşaq ədəbiyyatının qaynaqlarından biri kimi tərcümə əsərlərinə xüsusi diqqət yetirilməsidir. Müəllif belə bir doğru qənaətə gəlir ki, XIX əsrin 70-ci illərinə qədər milli məkanda kiçik yaşlılar üçün əsərlər yazılmaması, ana dilində onların mütaliəsinə veriləcək mənəvi sərvətin olmaması vətən və millət yanğısı ilə yaşayan cəfakeş, təəssübkeş ziyalıları, mütərəqqi maarifpərvərləri bu sahədəki boşluğu doldurmaqdan ötrü başqa xalqların ədəbiyyatına üz tutmağa sövq etdi. Bu mənada rus və Avropa ədəbiyyatı daha müasir, əhəmiyyətli və əlverişli göründü. Doğrudur, bu işin öncülləri, təəssübkeşləri və əməli icraçıları Şərqdən də bir sıra süjetlər götürürdülər. Lakin rus və Avropa xalqlarının bədii təfəkkür məhsullarına daha çox önəm verirdilər. Çünki bu əsərlər böyüməkdə olan nəslin maraqlarına, zövqünə, mənəvi-əxlaqi və etik-estetik cəhətdən tərbiyəsinə, ruhi-psixoloji aləminə daha çox uyğun gəlirdi. Millət balaları üçün əsər yazmaqda qələm sahiblərimizə daha gərəkli nümunə rolunu oynayırdı. Alim monoqrafiyada K.D.Uşinski, L.N.Tolstoy, İ.A.Krılov, A.S.Puşkin, M.Y.Lermontov və s. kimi onlarla rus yazıçı və şairlərinin, habelə bir sıra Avropa sənətkarlarının uşaq əsərlərinin azərbaycanlı müəlliflər tərəfindən ana dilinə niyə və necə tərcümə olunduğunun səbəblərini, mahiyyətini, istər tərbiyəvi, istərsə də sənət baxımından əhəmiyyətini, habelə uşaq ədəbiyyatımızın intişarında və inkişafında rolunu dolğun surətdə incələyib ortalığa qoyur. Müəllif bu əsərlərin bütövlükdə tərcümə ədəbiyyatımızın yüksəlişindəki rolunu da aydınlaşdırır.

Monoqrafiyada bizim üçün yeni və cəlbedici görünən məsələlərdən biri də o dövrdə bilavasitə balaca oxuculardan ötrü qələmə alınan dini mövzulu əsərlərin təhlilə cəlb edilməsidir. Bəllidir ki, sovet imperiyası dönəmində dini mövzulu əsərlər tədqiqat sferasında yasaq olunmuş mövzular sırasında idi. Dini məzmunlu əsərlərin nəşri qadağan olunduğu (müəyyən məqsəd güdən bəzi istisnaları nəzərə almasaq) kimi onların tədqiqi də diqqətdən kənarda saxlanılmışdı. XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycan sənətkarlarının kiçiklər üçün yazdıqları xeyli dini mövzulu bədii, publisistik nümunələr, dərsliklər də bu yasağın sərhədləri içərisində tədqiqatdan kənarda qalmışdı. S.Rəsulova indiki müstəqillik dönəmində azad tədqiqat imkanından maksimum dərəcədə yararlanaraq həmin əsərləri də üzə çıxarmış və araşdırmaya cəlb etmişdir. Bu zaman tədqiqatçı həm o zamankı şəriət dərsliklərinə, həm uşaq mətbuatına, həm də qiraət kitablarında olan nümunələrə diqqət yetirmişdir. Məsələn, müəllifin bu mövzuda araşdırmaya cəlb etdiyi bədii örnəklər cərgəsində görkəmli pedaqoq yazıçı S.M.Qənizadənin "Qurban bayramı, yaxud on gün riyazət" adlı hekayəsinin təhlili ilə bağlı mülahizələri kifayət qədər maraqlı, orijinal və səmərəli təsir bağışladı. Hekayəni əhatəli və obyektiv şəkildə təhlil süzgəcindən keçirən alim belə bir doğru qənaətə gəlir ki, Qənizadənin bu əsəri bu gün də mövzu, məzmun, sənətkarlıq və obrazların səciyyəsi baxımından öz aktuallığını saxlayır. Uşaq nəsrimizin incilərindən olan bu tipli bədii nümunələrdən imtina edə bilmərik. Onları dəyərli mənəvi mirasımız kimi çap etməli, öyrənməli, indiki və gələcək nəslə anlatmalıyıq.

Monoqrafiyada araşdırmaya cəlb edilən əsərlərin xeyli hissəsi indiyə qədərki tədqiqatlarda diqqətdən kənarda qalmışdı. Halbuki bunlar o dövrdəki uşaq ədəbiyyatı xəzinəmizin sərvətləridir. Onları üzə çıxarıb öyrənmədən haqqında bəhs açdığımız ədəbi-tarixi mərhələdə uşaq ədəbiyyatımızın bütöv mənzərəsini yaratmaq imkan xaricindədir. Ona görə ki XIX-XX əsrlərin hüdudlarında yaranan kiçiklər üçün bədii düşüncə məhsulları çoxlu sayda mənbələrdə öz əksini tapmış, oxuculara təqdim edilmişdir. Məsələn, XX yüzilliyin əvvəllərində uşaqlardan ötrü üç jurnal nəşr olunmuşdur: "Dəbistan", "Rəhbər" və "Məktəb". 1906-1920-ci illər arasında ərəb əlifbası ilə işıq üzü görən həmin jurnallar xalqımızın ədəbi-mədəni tarixində uşaq mətbuatının ilk qaranquşları hesab olunur. Onların üst-üstə 130-a qədər nömrəsi çap olunmuşdur. Onların hamısını diqqətlə, səbrlə nəzərdən keçirmək böyük əziyyət və vaxt tələb edir. Bundan əlavə, o zaman çoxlu sayda dərsliklər və oxu kitabları işıq üzü görmüşdür. Onları tapmaq və lazımi materiallarla yaxından tanış olmaq da ciddi cəfakeşliklə mümkündür. Tədqiqatçı həmin jurnalları, dərslikləri və kitabları diqqətlə nəzərdən keçirmişdir. Elə buna görə də o dövrə aid uşaq ədəbiyyatı nümunələrinin, demək olar ki, əksəriyyəti monoqrafiyada bir bədii fakt və təhlil obyekti kimi ehtiva olunmuşdur.

Tədqiqatçının dili nə qədər elmidirsə, bir o qədər də sadə, tutumlu və sərrastdır. O, problemləri o qədər sadə və məntiqli bir dillə izah edir ki, oxucu dil və üslubun axarından razı qalır, istənilən mətləbi çətinlik çəkmədən qavrayır. Müəllifin dili və üslubu bişmiş, oturuşmuş və dolğun təsir bağışlayır.

S.Rəsulovanın bu monoqrafiyası bizə son illərin səviyyəli ədəbiyyatşünaslıq əsərlərindən biri kimi xoş təsir bağışladı. Biz bunu uşaq ədəbiyyatımızın öyrənilməsi yolunda layiqli bir töhfə kimi dəyərləndiririk.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Punch and Judy

By Russell Evans

You are going to read about a show called Punch and Judy. Have you heard of it before? What do you already know about this?




### Activity 1

Before you read, decide which word(s) (1–5) go(es) with which meaning (a–e).

| | | | | |
|---|---|---|---|---|
| **1.** crocodile | **2.** glove puppet | **3.** plot | **4.** puppeteer | **5.** seaside |

**a.** a kind of toy that you put your hand inside to move it and make it talk
**b.** a large and dangerous animal that lives in rivers
**c.** the area near the sea where people go to have fun
**d.** the person who makes a puppet move and speak
**e.** what happens in a story

### Activity 2

Complete the sentences with the words from Activity 1.

1. For her birthday she got a ........... . It's a cute little 'dog' called Sooty.
2. I liked the acting a lot, but the ........... was a bit slow – nothing happened for the first hour.
3. Last weekend, we went to the ........... . We sat on the sand and had ice cream.
4. Please don't go near the river. Last week, a dog was eaten there by a ...........!
5. The ........... sits inside a red and white tent, and he controls the puppets with his hand.

**A** Punch and Judy is a seaside glove puppet show. It came from Italy to the UK about 350 years ago, and it has been popular since then, first with adults, and then later with children. The basic story is that Mr Punch is a bad man who fights lots of people and wins. Each time he wins, he says: 'That's the way to do it!'

**B** Different puppeteers all make the show their own, by changing the plot or adding new characters. But there are some key parts that usually remain the same. First of all, Mr Punch has a red face, and a big nose. He also sounds very funny when he talks, because puppeteers use something called a 'swazzle' in their mouth to create a special high voice.

**C** At the start of the story, Mr Punch's wife asks him to look after their baby. But he is lazy and careless, and he doesn't do as his wife asks. So, Punch and Judy start fighting, and Punch wins because he has a big stick. A policeman and a doctor arrive to help, but Punch fights them and wins too. Sometimes there's a clown, who asks Mr Punch to look after his sausages, and often there's a crocodile who wants to eat the sausages. Finally, Mr Punch fights the crocodile, and guess what? He kills the crocodile, too!

**D** Although there is a lot of fighting in the story, no one worries too much about it. There are lots of jokes and songs, and the children all join in by shouting 'He's behind you!' and 'Oh no, he isn't!' Everyone gets excited and hopes that the bad Mr Punch will lose a fight one day. But of course, he never does, because he knows that ***that's** the way to do it!*

### Activity 3

The text has four paragraphs, A–D. In which paragraph can you find information about the following? You can use A–D as many times as you need.

1. things that children shout
2. what Mr Punch looks like
3. where Punch and Judy come from
4. the main characters in the story
5. creating Mr Punch's funny voice
6. why the fighting isn't a problem
7. what Mr Punch says when he wins
8. why Mr Punch fights with his wife

### Activity 4

The text about Punch and Judy uses **linking words** to join different ideas and parts of the story together. How many examples of these linking words can you find? Underline them.

| | | | | | |
|---|---|---|---|---|---|
| **a.** also | **b.** although | **c.** because | **d.** but | **e.** finally | **f.** so |

### Activity 5

Which **linking words** match these ideas?

1. adding an idea
2. finishing something
3. giving a different or opposite idea
4. giving a reason for something
5. giving a result of something

### Activity 6

Add one linking word from Activity 5 to each of the sentences (1–5).

1. *Thunderbirds* is a TV puppet show from the UK, ........... it's not on TV any more. It is about the Tracy family, who have a secret organisation called International Rescue.
2. International Rescue has a lot of high-tech machines ........... they can save people from criminals.
3. Lady Penelope and Parker are ........... part of the International Rescue team.
4. Sometimes the Tracy family ask for Lady Penelope's help ........... they need her special skills.
5. ........... the special effects on the show looked great when I was young, they don't look as good these days.

### Activity 7

Are there any popular puppet shows from your country? What do you think about them?

**Answers**

**Activity 1**
1. b; 2. a; 3. e; 4. d; 5. c

**Activity 2**
1. glove puppet; 2. plot; 3. seaside; 4. crocodile; 5. puppeteer

**Activity 3**
1. D; 2. B; 3. A; 4. C; 5. B; 6. D; 7. A; 8. C

**Activity 4**

| linking words | **a.** also | **b.** although | **c.** because | **d.** but | **e.** finally | **f.** so |
|---|---|---|---|---|---|---|
| examples in text | 1 | 1 | 3 | 4 | 1 | 1 |

**Activity 5**
1. a; 2. e; 3. b, d; 4. c; 5. f

**Activity 6**
1. d or b; 2. f; 3. a; 4. c; 5. b

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

# Respublika çempionatının rayondaxili mərhələsinə yekun vurulub



Məktəblər arasında basketbol, voleybol, atletika, şahmat və stolüstü tennis idman növləri üzrə respublika çempionatının rayondaxili mərhələsinin yarışları başa çatıb.

Ölkə üzrə 2515 ümumi təhsil müəssisəsinin qatıldığı rayondaxili mərhələdə 50 mindən çox məktəbli iştirak edib. Yarışlara basketbol idman növü üzrə 1436, voleybol üzrə 1415, atletika üzrə 2338, şahmat üzrə 996 və stolüstü tennis üzrə 778 məktəb qoşulub. Yekunda hər idman növü üzrə zona mərhələsinə vəsiqə qazanan məktəblər müəyyən edilib.

Çempionatın zona mərhələsinə isə 2020-ci ilin aprel ayından start veriləcək. Zona mərhələsinin yarışlarında hər idman növü üzrə 76 məktəb komandası olmaqla 3 minə yaxın məktəbli mübarizə aparacaq. Çempionatın əsasnaməsinə uyğun olaraq bu mərhələdə I-II yeri tutan məktəb komandaları final mərhələsinə vəsiqə qazanacaq.

Qeyd edək ki, məktəblər arasında respublika çempionatı Təhsil və Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə əmrinə əsasən təşkil olunur.

Çempionatın keçirilməsində məqsəd ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili, idmana olan marağının artırılması, ümumtəhsil məktəblərinin idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsidir.

Şahmat, voleybol və atletika idman növü üzrə keçirilən yarışlar ölkədaxili xarakter daşıyır, stolüstü tennis və basketbol idman növləri üzrə keçirilən yarışlar isə məktəblərarası beynəlxalq yarışlara seçim mərhələsidir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6530, **Sifariş** 3956

**Məsul növbətçi:** Ş.Cəfərov



Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

kafedra üzrə aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| № | Kafedranın adı | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Teatrşünaslıq kafedrası | kafedra müdiri | 1 yer |
| | | 0,5 ştat professor | 1 yer |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası Prezidentinin 11.06.2019-cu il tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi haqqında Əsasnamə"nin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydalarının təsdiq edilməsi barədə" 15.11.2017-ci il tarixli 5/5 nömrəli qərarının tələblərinə uyğun olaraq bu elan dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Əlaqə telefonu:** 599-00-54 (daxili-100)

*Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.*

**REKTORLUQ**


## Məktəblilərin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuna ekskursiyaları

Bakı şəhərindəki ümumtəhsil, lisey, gimnaziya və internat məktəblərinin şagirdlərinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuna ekskursiyaları təşkil olunur.

Ekskursiyalar Təhsil Nazirliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə razılaşmaya əsasən təşkil olunub. Məqsəd məktəblilərin Azərbaycanın zəngin mədəni irsi, tarixi, maddi-mədəniyyət nümunələri haqqında ətraflı məlumat əldə etmələrinə nail olmaqdır. Tədris ili boyu təşkil edilən ekskursiyalarda şagirdlərə Şirvanşahlar sarayı, Qız qalası, Sıratağlı Dini-Memarlıq Kompleksi, Buxara və Multanı Karvansaraları, Qoşa Qala Qapıları və qala divarlarının tarixi, ilkin memarlıq üslubu haqqında məlumat verilir, məktəbliləri maraqlandıran suallar cavablandırılır.

Qeyd edək ki, təsdiq olunmuş qrafikə uyğun keçirilən ekskursiyalar tədris ilinin sonuna qədər davam edəcək.

## Şagirdlər beynəlxalq yarışlardan qızıl medalla qayıdıblar

Paytaxt məktəblilərinin idmanın müxtəlif növləri üzrə beynəlxalq yarışlardakı parlaq uğurları davam edir.

Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 21 nömrəli tam orta məktəbin VI sinif şagirdi Kənan Cəfərli 37 kiloqram çəki dərəcəsində kikboksinq idman növü üzrə Rusiyada keçirilən beynəlxalq yarışda bütün rəqibləri üzərində qələbə qazanaraq I yerə layiq görülüb. Final mərhələsində erməni idmançıya qalib gələn məktəbli qızıl medal və diplomla mükafatlandırılıb.

Vətənə qalibiyyətlə dönən digər idmançılar isə 82 nömrəli tam orta məktəbin şagirdləridir. Məktəbin VIII sinif şagirdi Sənan İsgəndərzadə universal döyüşün layt növü, X sinif şagirdi Kənan İsgəndərzadə isə klassik növü üzrə Ukraynada keçirilən dünya çempionatında 81 kiloqram çəki dərəcəsində bütün rəqibləri üzərində qələbə qazanıblar. Məktəblilərə qızıl medal və diplom təqdim olunub.

Paytaxtdakı 311 nömrəli tam orta məktəbin I sinif şagirdi Gülnaz Şərifova Gürcüstanda gimnastika üzrə keçirilən beynəlxalq yarışda uğurlu çıxışına görə bütün rəqiblərini geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Final mərhələsində erməni idmançıya qalib gələn məktəbli qızıl medal və diplomla mükafatlandırılıb.

164 nömrəli tam orta məktəbin VI sinif şagirdi Rəna Fətəliyeva da Gürcüstanda gimnastika üzrə keçirilən beynəlxalq yarışda I yeri tutub. R.Fətəliyeva qızıl medal və diplomla mükafatlandırılıb.

## Etibarsız sayılır

**Kəlbəcər rayon** 1 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş İsbəndiyarov Sahib Köçəri oğluna verilmiş 373912 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Niftəliyev Qüdrət Abbas oğluna verilmiş A-686527 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədzadə Şəbnəm Səxavət qızına verilmiş B-514798 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ağayev Rahib Ramiz oğluna verilmiş B-207752 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Nəvisa Nina Məcid qızına verilmiş A-438632 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Bərxudarzadə Ayxan Fəxrəddin oğluna verilmiş E-251450 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 22 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Məmmədov Rüfət Muxlis oğluna verilmiş A-108633 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli ümumtəhsil orta məktəbini 2008-ci ildə bitirmiş Şayaxmetova Elvina Ənvərovnaya verilmiş B-494501 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2014-cü ildə Ağayev Vüsal Ənvər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2003-cü ildə Zəvərli Təhsib Əmir Yusif oğluna verilmiş MNA-007313 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Allahverdiyev Rüstəm Sahib oğluna verilmiş B-323055 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Axundova Şəhla Fuad qızına verilmiş B-287276 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Ləkit kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Məmmədova Humay Mehdi qızına verilmiş A-391550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 1996-cı ildə Ələsgərov Azər Əli oğluna verilmiş AB-II-003833 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Sovxoz Texnikumu** tərəfindən 1984-cü ildə İbadov Məcid Cankişi oğluna verilmiş 3T-032221 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2006-cı ildə Cəbrayılov Nadir Əbülfəz oğluna verilmiş BB-016411 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 13 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Nəsirova Lalə Əli qızına verilmiş A-483846 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Dədəli kənd tam orta məktəbini 2019-cu ildə bitirmiş Əlimətov Qəyyum Vəfadar oğluna verilmiş E-236469 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1994-cü ildə Mikayılova Nərgiz Həsən qızına verilmiş AB-II-105569 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Qızılağac kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Nağıyev Mirşahin Asif oğluna verilmiş A-043684 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Abdulabad kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Cəfərov Cavid Qərib oğluna verilmiş 144566 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Kondratyev Qriqoriy Viktoroviçə verilmiş (nömrəsiz) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** Horadiz qəsəbə 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva Gülarə Elşən qızına verilmiş B-205075 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Yuri Kovalyov adına 229 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Abdullayeva Nailə Hüseyn qızına verilmiş B-206581 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əsədov Əbülfəz Şəmsi oğluna verilmiş A-568554 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Dünyamalıyev Xəyyam Həqiqət oğluna verilmiş AB-I-008665 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası** tərəfindən 1987-ci ildə Məmmədova Afət Sahib qızına verilmiş MB-010543 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli məktəb-liseyi 2006-cı ildə bitirmiş Həsənova Məhbubə Əbülfəz qızına verilmiş B-289702 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 1991-ci ildə Şükürova Dilbər Sədrəddin qızına verilmiş PT-I-091033 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2016-cı ildə İsmayılov Şamxal Abbas oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Mirili kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Məmişov Orxan Mərdəli oğluna verilmiş A-338923 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş İbrahimov Anar Ağapaşa oğluna verilmiş B-255697 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Çarhan kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Heybətoğlu Calalətdin Eldar oğluna verilmiş B-228659 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Haftoni qəsəbə tam orta məktəbinin IX sinfini 1996-cı ildə bitirmiş Məmmədov Əhliman Məstiəli oğluna verilmiş B-136147 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Nağıyev Nuri Nəriman oğluna verilmiş E-182235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt 35 nömrəli Texniki peşə məktəbi** (indiki Sumqayıt 10 nömrəli peşə liseyi) tərəfindən 1983-cü ildə Salahova Bella Mirzə qızına verilmiş 612344 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2019-cu ildə Məmmədova Aynişan İbrahim qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2019-cu ildə Balayeva Çiçək Ələddin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər rayon TİAHİ-nin sədri Həzərxan Əbilov və 125 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Zeynəb Əliyevaya anası

**BÖYÜKXANIM AXUNDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 173 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Sitarə Abbasovaya qardaşı

**SURXAY ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Ali təhsilə aid ixtisasların tanınması

## YUNESKO qlobal Konvensiyanı qəbul edib

**Oruc MUSTAFAYEV**

Parisdə YUNESKO Baş Konfransının 40-cı sessiyası çərçivəsində Təhsil nazirlərinin Yüksək Səviyyəli Görüşündə ali təhsilə aid ixtisasların tanınması haqqında qlobal Konvensiya sənədi qəbul edilib. Hökumətlərarası məsləhətləşmələr çərçivəsində Konvensiya layihəsinin yekun razılaşdırılması prosesində 6 qitə və 23 ölkənin nümayəndələri fəal iştirak edib. Sənəd təhsilalanların kvalifikasiyalarının ədalətli, şəffaf və qeyri-diskriminasiyasız tanınmasının təmin edilməsi prinsiplərini bəyan edir. Konvensiya ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi prinsiplərini özündə ehtiva edir və informasiya əlaqələrinin təkmilləşdirilməsini, təhsilin tanınma prosesini və keyfiyyət zəmanətini təmin edəcəkdir.




Paris konfransında qeyd olunub ki, ali təhsilin artan populyarlığı və müasir texnologiyaların inkişafı, eləcə də xaricdə təhsil almaq istəyən tələbələrin sayının xeyli artması şəraitində bu yolla əldə edilmiş ixtisasların tanınması hökumətlər üçün getdikcə daha vacib siyasi vəzifələrə çevrilir.

### Ali təhsildə daha çox inteqrasiya və mobillik

Qlobal Konvensiya sənədinin qəbul olunması üçün YUNESKO-nun tarixində ilk dəfə olaraq dünyanın ayrı -ayrı ölkələrindən 100 -dən çox Təhsil nazirləri və universitet rəhbərləri ali təhsildə inteqrasiya və mobillik səviyyəsinin yüksəldilməsi sahəsində beynəlxalq tədbirləri müəyyən etmək üçün bir araya gəliblər. “Ali təhsil sahəsində YUNESKO - nun fəaliyyəti və çoxtərəfli münasibətləri xüsusilə də əsas rol oynamalıdır”, - deyə YUNESKO -nun Baş direktoru Odre Azule müşavirənin açılışında giriş sözündə bildirib. Nazirlərin toplantısında ali təhsil sahəsində ən aktual problemlərdən bir neçəsi müzakirə olunub: hökumətlər və ali təhsil müəssisələri universitetlərdə tələbələrin sürətlə artması və tələbələrin mobilliyinin yüksədilməsi fonunda daha inklüziv qlobal kampusun yaradılması üzərində birgə necə işləyə bilərlər. Onlar həmçinin artan bərabərsizliyə qarşı mübarizə aparmaq üçün dünyanın bütün ölkələrində ali təhsil sektoru üçün yollar müəyyənləşdiriblər.

“Biz ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bilik mübadiləsinin, akademik mübadilə və mobilliyin möhkəmləndirilməsi, eləcə də hamı üçün həyat boyu keyfiyyətli və inklüziv təhsil imkanları təklif edən ədalətli, şəffaf və inklüziv qlobal kampusun yaradılması üçün qəti addımlar atmalıyıq”, - deyə YUNESKO-nun Baş direktorunun təhsil məsələləri üzrə müavini Stefania Giannini bildirib. Kanadanın təhsil nazirləri şurasının üzvü Tina Bodri-Mellor isə çıxışında qeyd edib ki, “Təhsil sahəsində üzləşdiyimiz problemlərdən biri Attestasiya prosesinin demokratikləşdirilməsidir”.

### Sürətlə dəyişən landşaft

Ali təhsilin qlobal mənzərəsi beynəlmiləlləşmənin artması, müəssisələrin diversifikasiyası və yeni təlim formatları ilə əlaqədar sürətlə dəyişir. Hazırda dünyanın ali məktəblərində 220 milyona yaxın tələbə təhsil alır ki, bu da on il bundan əvvəlki dövrlə müqayisədə iki dəfə çoxdur. Xüsusilə Afrika ölkələrində bu göstəricinin daha da artması gözlənilir.

Lakin şagirdlərin sayının artması beynəlxalq səviyyədə razılaşdırılmış və hədəfi 2030-cu ilə qədər “heç kəsi kənarda qoymamaq”, ədalətli və münasib keyfiyyətli ali təhsili təmin etmək məqsədi daşıyan Gündəliyin əldə olunmasının etibarlı göstəricisi deyil. Müəssisələr getdikcə daha müxtəlif şagird kontingenti, qeyri-sağlam vəziyyətdə olan miqrantlar, qaçqınlar və yerli xalqlar kimi sosial qruplar üçün keyfiyyətli təhsilin təmin olunması problemi ilə üzləşirlər.

“İxtisas pasportu mənim üçün bir çox qapıları açdı. Mən Suriyadakı müharibədən Yunanıstana qaçdım və sonra ixtisasımın tanınmasını aldım və Norveçdə təhsilimi davam etdirə bildim”, - deyə suriyalı qaçqın Ənvər Xorani bildirib.

**Konvensiya özünün qlobal əhatə dairəsi ilə Birləşmiş Millətlər Təşkilatının ali təhsil haqqında ilk müqaviləsi olacaq. “Təhsil-2030” gündəliyinə və ali təhsil sahəsində müasir qlobal tendensiyalara uyğun olaraq Konvensiya akademik mobilliyin təşviq edilməsinə, ali təhsil müəssisələrinin keyfiyyətinin artırılmasına və ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldilib.**

### Tələbələrin mobilliyinin artırılması

Son onilliklərdə tələbələrin ali məktəblərə qəbul göstəricilərinin görünməmiş artımı onların mobilliyinin artması ilə müşayiət olunur ki, bu da tələbələrin, müəllimlərin və tədqiqatçıların qlobal kampusunun tədricən ortaya çıxmasına gətirib çıxarır. 2011-ci ildən əvvəlki on il ərzində öz ölkəsindən kənarda oxumağa qərar verən təhsilalanların sayı iki dəfədən çox artaraq 4,3 milyona çatmışdır. Qiymətləndirmələrə görə, bu rəqəm 2025-ci ilə qədər yenidən iki dəfə artacaq. “Tələbələrin mobilliyi istisna deyil, norma olmalıdır. Bizim borcumuz ixtisasların transsərhəd tanınmasını asanlaşdırmaqdır”, - deyə Norveçin elm və ali təhsil naziri İselin Nibe bildirib.

Lakin bir çox tələbələr hələ də Vətənə qayıtdıqda və ya yeni ölkəyə köçərkən öz bacarıqlarının tanınmasında maneələrlə qarşılaşırlar. Kvalifikasiyaların tanınmaması gələcək tədrisə giriş əldə etmək yolunda və ya işədüzəltmə imkanlarını tapmaq üçün əsas maneədir. Bu gün dünyadakı əcnəbi tələbələrin yarıdan çoxu yalnız öz ölkəsinin hüdudlarından kənarda deyil, başqa qitədə və ya başqa bir regionda təhsil alır.

“Bir çox ali təhsil müəssisələrində struktur maneələr universitet təhsilini yalnız cəmiyyətin ən imtiyazlı qruplarında doğulmuş şəxslər üçün əlçatan edir”, - deyə Harvard Universitetinin (ABŞ) Beynəlxalq təhsil üzrə professoru, YUNESKO-nun “Təhsilin gələcəyi” hesabatının hazırlanması üzrə komissiyasının üzvü Fernando Reymers qeyd edib. “İnklüzivlik probleminin həlli bir çox hallarda ali təhsilə çıxış imkanlarının genişləndirilməsini tələb edir”. Onun sözlərinə görə, ali təhsil sahəsində ixtisasların tanınması haqqında qlobal Konvensiya tələbələrin mobilliyini təşviq etmək, regionlarda və qitələrdə ali təhsilə çıxış imkanlarını yaxşılaşdırmaq məqsədi daşıyır.

“Ali təhsil sahəsində ixtisasların tanınması haqqında qlobal Konvensiya çoxtərəfli münasibətlərin tənqidinə baxmayaraq, məhz bu sistemin müasir qarşılıqlı əlaqəli dünyanın şərtlərinə daha uyğun olduğunu əyani şəkildə sübut edəcək”, - deyə xanım Odre Azule əlavə edib.

YUNESKO, eyni zamanda kvalifikasiyalara malik olan qaçqınların mobilliyinin yüngülləşdirilməsi üçün kvalifikasiya pasportunu da hazırlayıb. Kvalifikasiya pasportu hazırda təcrübi əsasda Zambiyada tətbiq olunur.

“Bu pasport qaçqınların öz ölkələrində aldıqları ixtisas və təhsili tanımaqla onların inteqrasiyasına kömək etməkdə əsas rol oynaya bilər”, - deyə xanım Odre Azule bildirib. Zambiyanın ali təhsil naziri isə öz növbəsində deyib: “Biz ölkəmizdə qaçqınlar üçün ixtisas pasportunun eksperimental tətbiqi ilə fəxr edirik. Qaçqın şagirdlər üçün təhsil və karyeralarını davam etdirmək imkanlarını təmin etmək üçün biz YUNESKO ilə işləyirik”.

### Təhsildəki uğurlar davamlı inkişafın yolunu açacaq

Konfransda çıxış edən Türkiyənin Təhsil naziri Ziya Selçuk YUNESKO-dan gözləntilərin çox yüksək olduğunu, BMT-nin əsas gücü olan bu qurumun güclü viziyonuna qayıdacağına inandıqlarını vurğulayıb. Nazir dünyada çoxsaylı yeni problemlər və imkanlar yarandığı bir vaxtda təhsilə daha çox maliyyə vəsaitinin ayrılması zəruriliyini diqqətə çatdırıb. Təhsildə əldə olunan nailiyyətlərin bütövlükdə davamlı inkişafa nail olmağa yol açacağını deyən Z.Selçuk qeyd edib ki, təhsil YUNESKO-nun fəaliyyətinin mərkəzində olmağa layiqdir, qurum bu sahədə güclü və uzaqgörən liderliyi davam etdirməlidir. “Türkiyə ali təhsildə ixtisasların tanınması üzrə Qlobal Konvensiyanı başa çatdırdığına görə baş direktor və üzv dövlətləri təbrik edir. Ümid edirik ki, konvensiyanın qəbul edilməsi ali təhsildə daha yaxşı ixtisaslaşmanı təmin edəcək”, - deyə Z.Selçuk bildirib.

Qeyd edək ki, Konvensiya özünün qlobal əhatə dairəsi ilə Birləşmiş Millətlər Təşkilatının ali təhsil haqqında ilk müqaviləsi olacaq. Bu, tələbələrin, müəllimlərin, tədqiqatçıların və öz ölkələrindən kənarda iş axtaran şəxslərin qarşılaşdıqları maneələri azaltmağa imkan verəcək. “Təhsil-2030” gündəliyinə və ali təhsil sahəsində müasir qlobal tendensiyalara uyğun olaraq Konvensiya akademik mobilliyin təşviq edilməsinə, ali təhsil müəssisələrinin keyfiyyətinin artırılmasına və ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldilib.

## Yeni üz tanıma sistemi personal seçir



**Samirə KƏRİMOVA**

Bir çox xarici işəgötürənlər müsahibələrdə süni intellektdən istifadə etməyə başlayıblar. Bu prosesdə xüsusi neyroşəbəkə hazırlamış “HireVue” şirkətinin sistemi daha məşhurdur. Belə ki, “HireVue” tərəfindən hazırlanan sistem namizədin üzünü, səs tonunu, danışığını təhlil, sonra namizədləri bir-biri ilə müqayisə edir.

**www.hightech.fm** saytının verdiyi məlumata görə, “HireVue” şirkətinin qiymətləndirməsi artıq bir çox sahələrdə geniş yayılıb, buna görə də bəzi universitetlər tələbələrə müsahibədə ən yaxşı nəticə əldə etmək üçün danışmağın yollarını öyrədirlər. Sistem “Hilton”, “Unilever” və “Goldman Sachs” da daxil olmaqla 100-dən çox işəgötürən tərəfindən istifadə olunur.

“Bu texnologiyanın köməyi ilə üzün hərəkəti, səs tonu, davranış tərzinə görə şirkət üçün uyğun bir işçini seçə biləcəklərinə inanırlar, ancaq bu, çox narahatedici bir haldır”, - deyə Nyu-Yorkda “Al Now Institute”-in həmtəsisçisi Meredit Uittaker söyləyib.

## Dünyanın ən kiçik kamerası




ABŞ-ın “OmniVision” şirkəti dünyanın ən kiçik kamerasını təqdim edib. Qum zərrəsi ölçüsündə olan qurğunu tibdə, cərrahi alətlərin istehsalında tətbiq etmək planlaşdırılır.

**www.dni24.com** saytının məlumatına əsasən, kameranın qabaritləri (0,575x0,575x0,232 mm) bütün dünyanı təəccübləndirib. Qurğu ölçülərinə görə kub formasında qara rəngli qum zərrəsini xatırladır. Buna baxmayaraq, kamera 40 min piksel təsvir ölçüsünə malik şəkillər çəkə bilir, fokus məsafəsi 3-30 mm, əhatə bucağı 120 dərəcə təşkil edir. Çəkilişə arxa tərəfdə xüsusi işıqlandırmaya malik olan “RGB Bayer” çipi cavabdehdir. Kristalın yığcam ölçüləri enerji sərfiyyatının da az (25 meqavatt) olmasına gətirib çıxarır. “OmniVision OV6948” saniyədə 30 kadr sürətlə video çəkə bilir.

Kameranın tətbiq sahəsi hələ ki, dəqiq müəyyən edilməyib. Şirkət tibdə, məhz cərrahi alətlərin istehsalında qurğunun öz tətbiqini tapacağına inanır. Ondan, həmçinin zavod və fabriklərdə mürəkkəb texniki detalların yaradılması üçün istifadə etmək olar. Qurğunun istehsal olunan məhsulun keyfiyyətinin real vaxt rejimində yoxlanması üçün tətbiqi də mümkün olacaqdır.

## “Apple” şirkəti “ağıllı” üzük hazırlayır



“Apple” şirkəti displey və bir çox sensora malik üzüyün patentini əldə edib. Daşınan qadcet kompüter, planşet və digər qurğuların idarə edilməsi üçün istifadə oluna bilər.

Patentdə təsvir edilmiş üzük əl hərəkətlərinin hesablanmasının köməyi ilə jestləri ötürə və ya məsələn, barmağı masa üzərində sürüşdürməklə kompüter mausunun işini təqlid edə bilir.

**www.hi-tech.mail.ru** saytının məlumatında bildirilir ki, üzük prosessor, batareya, simsiz ötürücü aparat, mikrofon, akselerometr, hiroskop və bir çox başqa sensorlarla təchiz edilib. Həmçinin, ona bir sıra biometrik sensorlar quraşdırılacaq ki, bu da qadcetdən digər qurğuların blokdan çıxarılması üçün açar kimi istifadə etməyə imkan verəcək.

Üzük həm də simvolların daxil edilməsi üçün kiçik sensor ekrana malikdir. Lakin hələ ki, üzüyün köməyilə simvolların daxil edilməsinin nə üçün lazım olduğu barədə informasiya verilmir.

“Ağıllı” üzük yeni funksional aksessuar kimi adi üzüklərin rəqibi ola bilər. “Apple Watch” modellərinin dünyada ən çox satılan saatlar olması faktı bunu deməyə imkan verir.